www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 mart 2019-cu il Cümə axşamı № 53 (7223) Qiymәti 60 qәpik

**Xəbər**

**Stavropolda dəhşətli qəzada ölən 6 azərbaycanlının kimliyi açıqlandı**

yazısı səh.15-də

## Gündəm

**Qarabağ Komitəsində ilginc dəyişikliklər**



Akif Nağının İdarə Heyəti üzvlüyünə xitam verildi, Sabir Rüstəmxanlı QK-ya gəldi

yazısı səh.3-də

**"ABŞ Cənubi Qafqazı Rusiyaya güzəştə getməyəcək" -politoloq**

yazısı səh.7-də

**Qarabağ döyüşçülərindən ATƏT-in sülh bəyanatına kəskin reaksiya**

yazısı səh.6-da

**"Uşaqpulu bərpa olunmalıdır" - ekspert**

yazısı səh.10-da

**Eldar Əzizov "Torqovı"dakı restoranların "balkon"unu yığışdırır**

yazısı səh.10-da

**İrəvan üçün seçim anı, Bakının müharibə ultimatumu**

yazısı səh.11-də

**Venesuelada gərginlik kritik həddə - Maduro da xalqı meydanlara çağırdı**

yazısı səh.12-də

**Hindistan-Pakistan savaşı böyüyə bilərmi...**

yazısı səh.13-də

**Mərkəzi Asiyada terror riski yüksəlib - səbəblər...**

yazısı səh.12-də

**Maştağa sakininin maşınında "Kalaşnikov" avtomatı aşkarlandı**

yazısı səh.14-də

**Hava kəskin dəyişəcək, güclü külək əsəcək, yağış və qar yağacaq**

yazısı səh.2-də

**İsrailin baş nazirindən Brejnevsayağı xəta**

yazısı səh.13-də

# QARABAĞ ƏTRAFINDA TƏHLÜKƏLİ OYUN - BAKIDAN İRƏVANA KRİTİK XƏBƏRDARLIQ

Azərbaycan, ATƏT və Avropa Birliyi İrəvanın məkrli arzusunu gözündə qoydu; separatçı rejimi danışıqlara qoşmaq istəyən Paşinyan Brüsseldə pərt edildi - Bakının antiterror əməliyyatına "yaşıl işıq"?..



yazısı səh.8-də

# Toya hazırlaşırdılar, yanğında öldülər- yataqxanadakı yanğının şok təfərrüatları

İnsanlar yataq örtüklərini bir-birinə bağlayaraq, pəncərədən xilas olublar...

yazısı səh.4-də



*Azər Ayxan:*

**"Ayaz Mütəllibov həyatda olduğuna görə AXC-yə təşəkkür etməlidir"**

yazısı səh.3-də



*Elçin Mirzəbəyli:*

**"Paşinyanın Avropa səfəri fiaskoya uğradı"**

yazısı səh.9-da



*Fəzail Ağamalı:*

**"Prezidentin xalqa yönəlik addımları radikal müxalifətin fəallaşmasının qarşısını aldı"**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

# Prezident iki teatra "akademik" statusu verdi

**Prezident İlham Əliyev "Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında" sərəncam imzalayıb.**

Sərəncamla Nazirlər Kabinetinə Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsini on beş gün müddətində təmin etmək tapşırılıb.

# Məmmədyarov Moskvaya niyə təcili zəng vurub?



**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyanın işğal altındakı Füzuli rayonundan ötən həftə verdiyi bəyanata görə Moskvaya zəng vurub.**

Virtualaz.org xəbər verir ki, nazir bunu Bakıda ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçakla görüşündən sonra keçirdiyi mətbuat konfransında deyib.

"Ermənistan rəhbərliyinin son bəyanatları sülhə xidmət etmir. Məsələn, Milli Təhlükəsizlik Xidmətinin rəhbərliyinin son bəyanatı. Mən bu məsələ ilə bağlı bu gün telefonla Minsk Qrupunun rusiyalı həmsədri İqor Popovla danışdım" - Məmmədyarov bildirib.

Azərbaycan XİN rəhbəri habelə ATƏT sədrindən xahiş edib ki, İrəvana gedəndə erməni rəhbərliyindən soruşsun: "Biz xalqları sülhə, yoxsa başqa istiqamətə hazırlayaq?"

Layçak isə erməni tərəfinin Dağlıq Qarabağın danışıqlarda iştirakına dair israrlarına münasibət bildirib. "Minsk Qrupu danışıqlar üçün yeganə formatdır və bütün münaqişə tərəfləri bunu qəbul edib. Formatda hər hansı dəyişiklik qarşı tərəflə razılaşdırılmalıdır" - o deyib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

Abunə daha sərfəlidir - **"Yeni Müsavat" abunə** kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# ATƏT sədri Bakıda prezident İlham Əliyevlə görüşdü

## İlham Əliyev: "25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir"



**"Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyət yoxdur və Ermənistan danışıqlar prosesini pozmağa çalışır".**

"Report" xəbər verir ki, bunu Azərbaycan prezidenti İlham Əliyev martın 5-də ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan prezident İlham Əliyev bu münaqişənin uzun illərdir ki, davam etdiyini və Azərbaycan ərazilərinin bütün beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozularaq Ermənistan tərəfindən işğal altında saxlanıldığını diqqətə çatdırıb.

Dövlət başçısı qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə, ATƏT və digər təşkilatların bu cür qərar və qətnamələrinə baxmayaraq, 25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir.

İşğal nəticəsində bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, torpaqlarımızın zəbt edildiyini, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və demoqrafik vəziyyətin dəyişdirilməsi siyasətinin həyata keçirildiyini deyən dövlət başçısı Azərbaycanın bu münaqişənin tezliklə sülh yolu ilə həllində ən maraqlı tərəf olduğunu bildirib.

Danışıqlar prosesində müəyyən dinamikanın müşahidə olunduğunu, xarici işlər nazirləri səviyyəsində dörd dəfə görüşün keçirildiyini və Azərbaycan prezidenti ilə Ermənistanın baş naziri arasında üç dəfə söhbətin aparıldığını qeyd edən prezident İlham Əliyev Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını və Ermənistanın danışıqlar prosesini pozmağa çalışdığını bildirib.

Prezident İlham Əliyev münaqişənin həllində irəliləyişlərin əldə olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının təmin edilməsi üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini qeyd edib.

İlham Əliyev martın 5-də ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldinin başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib.

# Daha 492 şəhid vərəsəsinə birdəfəlik ödəmələr veriləcək

**Prezident İlham Əliyevin müvafiq fərmanının icrası ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən Komissiyanın növbəti iclasında daha 310 nəfərin 492 vərəsəsinə birdəfəlik ödəmə (11 min manat) verilməsi barədə qərar qəbul edilib.**

Nazirlikdən virtualaz.org-a verilən məlumata görə, onların siyahısı birdəfəlik ödəmənin həyata keçirilməsi üçün aidiyyəti quruma göndərilib. Yaxın günlərdə müvafiq vəsaitlərin həmin vərəsələrin bank hesablarına köçürülməsi təmin olunacaq. Vəsait köçürüldükdən sonra bu barədə onların sənədlərini təqdim edərkən qeyd etdikləri telefon nömrələrinə elektron qaydada ismarışla rəsmi bildiriş göndəriləcək.

Ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən olunub. Bu günədək artıq 4291 şəhidin 5966 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub və onlardan 3981 şəhid üzrə 5474 vərəsəyə ödəniş edilib.




# FHN bayramla əlaqədar əhaliyə müraciət etdi

**Fövqəladə Hallar Nazirliyi (FHN) Novruz bayramı ilə əlaqədar yanğın təhlükəsizliyinə dair əhaliyə müraciət edib. Bununla bağlı FHN-in mətbuat xidməti məlumat yayıb.**

Müraciətdə Novruz bayramı ilə əlaqədar keçirilən müxtəlif mərasimlərdə yanğın təhlükəsi ilə üzləşməmək üçün bir sıra təhlükəsizlik qaydalarını bilməyin vacibliyi qeyd olunub.

"Bayram tonqalının ətrafına yığışan azyaşlılar mütləq böyüklərin nəzarətində olmalıdır. Tonqal elektrik naqili, ağac, avtomobil, ev və digər yanar materiallardan kənarda yandırılmalı və tam sönənədək nəzarətdə saxlanılmalıdır.

Tonqal üzərindən atılarkən ehtiyatsızlıq geyimin alışmasına, bədənin xəsarət almasına səbəb ola bilər. Yandırılan şamlar nəzarətsiz qalmamalıdır. Təhlükə zamanı 112-yə zəng edin!", - deyə müraciətdə bildirilib.

# Lukaşenko KTMT-də yaranmış vəziyyət barədə nə dedi?

**Belarus prezidenti Aleksandr Lukaşenko Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ətrafında, o cümlədən bu quruma baş katib təyinatı ilə bağlı yaranmış qeyri-sağlam ab-havadan narahatlığını ifadə edib.**

TASS xəbər verir ki, dövlət başçısı inteqrasiya qurumlarında iştirak etmək və Avropa qurumları ilə əməkdaşlıq məsələlərinə həsr olunan müşavirədə sözügedən mövzuya toxunub.

O deyib: "Dünyada hərbi-siyasi cərəyanlar nəzərə alınsa, bu qurumun zəruriliyi şübhə doğurmur. Amma hazırda KTMT ətrafında qeyri-sağlam vəziyyət yaranıb. Elə təkcə baş katibin təyinatı məsələsini xatırlayın".

Belarus prezidenti diqqətə çatdırıb ki, dünyadakı ümumi hərbi-siyasi cərəyanlar nəzərə alınsa, əsas səylər göstəriləcək ən mühüm istiqamət KTMT çərçivəsində hərbi-siyasi əməkdaşlıqdır".

# AzTV-nin iki vəzifəli şəxsi işdən qovuldu

**"Azərbaycan Televiziya və Radio Verilişləri" (AzTV) Qapalı Səhmdar Cəmiyyətinin (QSC) nəzdindəki "İdman Azərbaycan" kanalının iki əməkdaşı nöqsanlara görə vəzifələrindən azad edilib.**

"Report"un məlumatına görə, Şahin İbrahimov və Tural Həmidzadə maliyyə pozuntularına yol verdiklərinə görə qurumun sədri vəzifəsini icra edən Rövşən Məmmədovun əmri ilə işdən kənarlaşdırılıblar.

Məlumata görə, bir müddət əvvəl İctimai Televiziyadan korrupsiya səbəbi ilə qovulan və yaxın qohumu, AzTV-nin keçmiş rəhbəri Arif Alışanov tərəfindən "İdman-Azərbaycan" telekanalına bərpa olunan Şahin İbrahimov müvəqqəti baş direktor gələnə kimi bütün çəkilişlərə nəzarət edib. Hətta qurumlardan gələn tədbir dəvətləri ilə bağlı faks aparatı da məhz onun otağında olub. A.Alışanovun təkidi ilə Xəbərlər departamentinin baş redaktorunun, prodüserinin görməli olduğu iş - çəkilişlərin müxbirlərə yazılması işi də ona həvalə olunub.

Bundan başqa, hazırda son iş yeri olaraq "İdman-Azərbaycan"dan da qovulan Ş. İbrahimov və T.Həmidzadə A.Alışanovun vaxtından birinci müavin olan, adı müxtəlif nöqsanlarda hallanaraq mediada mənfi imici ilə tanınan Elsevər Dünyamalıyevin yaxın adamları kimi tanınıblar.

Xatırladaq ki, R.Məmmədovun digər əmri ilə AzTV-nin mətbuat xidmətinin rəhbəri Xatirə Qasımova da vəzifəsindən azad olunaraq qurumun akademiyasına göndərilib.

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

# "Gələn dəfə onlar dəvət ediləcək"

## Mədəniyyət naziri prezidentlə görüşdə qaldırılan məsələlərin icrasından danışdı

**Martın 5-də M.F.Axundzadə adına Milli Kitabxanada mədəniyyət naziri Əbülfəs Qarayev dövlət başçısı ilə görüşdə müzakirə olunan məsələlərə həsr edilmiş mətbuat konfransı keçirib.**

Nazir bildirib ki, prezident İlham Əliyevin mədəniyyət xadimləri ilə son görüşündə səsləndirdiyi fikirlər mədəniyyət sahəsində islahatları sistemli şəkildə görmək istədiyinin bariz nümunəsi idi.

**Nazir bildirib ki, mədəniyyət sahəsində son illərdə islahatlar davam edir:** "Ölkə başçısı bu sistemin yeni formatda olmasını istəyir. Son iki ildə kifayət qədər eksperimental da olsa, vacib işlərin görülməsinə nail olunub. İslahatların məqsədi kiminsə işdən çıxarılması, iş yerlərinin sayının azaldılması ilə bağlı deyil. Kim bu düşüncədədirsə, yanlış düşünür".

**Ə.Qarayev qeyd edib ki, islahatlar bundan sonra da davam etdiriləcək. Nazir bildirib ki, elə kəndlər var ki, orada dağıdılmış vəziyyətdə müəssisə və ya işləməyən kitabxanalar var:** "Necə düşünə bilərik ki, onların hamısını bərpa edib, maddi-texniki baza ilə təmin etmək mümkün ola bilər? Odur ki, bütün bu işlər mərhələli şəkildə icra olunmalıdır. Əvvəllər kitabxanaların sayı az idisə, bu gün ölkədə 2600 kitabxana var. Kinematoqrafiya sahəsi ilə bağlı bir neçə layihə müzakirə olunur və kino sisteminin yeni formada idarə olunması üçün lazımi addımlar atılacaq. Həmçinin yeni teatr ideraetmə sisteminin formalaşdırılması üçün aparıcı teatrlara əlavə vəsait ayrılacaq. Yaradıcı proses dayanmamalı və işlər sistemli xarakter almalıdır. Bəzi qanunlara əsaslanan mövcud sistem daha müasir əsasda qurulmalıdır".




**Jurnalistlərin suallarını cavablandıran nazir bildirib ki, Cəfər Cabbarlının ev muzeyi dövlət balansında olmadığı üçün binanın taleyi ailə yaxınları ilə müzakirə edilib. O qeyd edib ki, C.Cabbarlının ev muzeyi 2006-cı ildən dövlətə məxsus deyil:** "Həmin ev Cabbarlının ailəsi tərəfindən özəlləşdirilib. Bu müddət ərzində binanın təmir-bərpa işləri üçün zəruri tədbirlər həyata keçirilmədiyindən bina yararsız hala düşüb. Lakin dövlət hesabına təmir üçün bina yalnız dövlətin balansında olmalıdır. 2012-ci ildə bina tam yararsız hala düşdüyü üçün binadakı əmlak teatr muzeyinə köçürülüb. Biz bu məsələni ailəsi ilə müzakirə etmişik. Ailə istəyir ki, o evin yerində yeni ev tikilsin və evin birinci mərtəbəsi Cabbarlının ev muzeyi olsun. Bu təcrübə mövcuddur. Əzim Əzimzadənin də ev muzeyinin hazırlanması bu şəkildə aparılıb. Biz özümüz də həmin binanın vəziyyətindən narahatıq. Çünki Mədəniyyət Nazirliyinin binanı tikmək və ya dağıtmaq səlahiyyəti yoxdur. Aidiyyəti orqanlar və mütəxəssislər araşdırma aparmalı və hansı istiqamətdə işlərin görüləcəyi ilə bağlı rəy verməlidir. Ümid edirəm ki, C.Cabbarlının ev muzeyində ən qısa zamanda bərpa işləri görüləcək".

**Nazir Tahir İmanov və "Parni iz Baku" kollektivinin fəaliyyəti ilə bağlı son zamanlar səslənən fikirlərə də münasibətini bildirib.**

**Konkret olaraq, qadağalardan bəhs edən nazir söyləyib ki, onların bütün fəaliyyəti Mədəniyyət Nazirliyinin nəzərindədir:** "Dövlət tərəfindən onlara heç bir məhdudiyyət qoyulmamışdı və Tahir İmanov da bunu nəzərdə tutmurdu. Özəl televiziyaların fəaliyyətinə gəlincə, onların işinə müdaxilə edə bilmərik. Onlara yalnız tövsiyə verə bilərik. Tahir İmanovun rəhbərlik etdiyi kollektivin konsertləri və ya proqramları mütəmadi şəkildə böyük mədəniyyət saraylarında nümayiş olunur. Onu da deyim ki, biz onların fəaliyyətini yüksək qiymətləndiririk. Onlar istedadlı və cəmiyyətə lazım olan gənclər kimi tanınırlar".

**Nazir mətbuat konfransında sosial şəbəkələrdə səslənən iradlara da münasibət bildirib. Xüsusilə də Rasim Balayevin prezidentlə görüşə çağırılmaması məsələsi barəsində Ə. Qarayev söyləyib ki, Rasim Balayev və digərləri prezident İlham Əliyevlə növbəti görüşlərə mütləq dəvət ediləcək:** "Rasim Balayev və bir neçə digər xalq artistinin görüşə dəvət edilməməsində xüsusi məqam yoxdur. Rasim Balayevlə bizim yaxşı dostluq münasibətlərimiz var. Sadəcə, bu gün 270 xalq artisti, ziyalılar və 1300-dən çox əməkdar incəsənət xadimi var. Biz onların hər birini dəvət etsəydik, Heydər Əliyev Sarayında onlara yer olmayacaqdı. Gələcəkdə bu görüşlərin sayı artırılacaq və dəvət edilməyən bütün ziyalılar dəvət ediləcək. Görüşdən kənarda qalan ictimai xadimlərdən, ziyalılarımızdan üzrxahlıq edirəm. Gələn dəfə onlar dəvət ediləcək".

**Nazir onu da qeyd edib ki, hazırda Cəlil Məmmədquluzadə və Hacı Zeynalabdin Tağıyevin heykəlinin ucaldılması məsələsi müzakirə edilir. Heykəllərin ucaldılması üçün memarlar müsabiqə yolu ilə seçiləcək:** "Cənab prezidentlə görüşdə 4 nəfərin heykəlinin ucaldılması məsələsi qaldırılmışdı. Bu yaxınlarda ilkin layihə üçün müsabiqə elan ediləcək. Həm memarlar, həm də heykəllərin hansı ərazilərdə ucaldılması ilə bağlı yekun qərar veriləcək. Bundan sonra ictimaiyyətə açıqlama verə biləcəyik".

❑ **Əli RAİS,**
**Foto: Elçin Əkbərov**
**"Yeni Müsavat"**

# Media kapitanlarının prezidentlə görüşü olacaqmı?





**Vüqar Səfərli:** "Əgər belə bir görüş yenidən məsləhət bilinərsə, biz də dəstəkləyərik"
**Müşfiq Ələsgərli:** "Belə bir ictimai sifariş olarsa, Mətbuat Şurası bu təşəbbüslə çıxış edə bilər"

**Məlum olduğu kimi, martın 1-də Azərbaycan prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüb. Azərbaycanda mədəniyyət sahəsində görülən işlər, mövcud vəziyyət və gələcək planların müzakirə olunduğu bu görüşdə dövlət başçısı ilə yanaşı, mədəniyyət xadimləri də çıxış ediblər. Qeyd edək ki, mətbuat işçiləri də dövlət başçısının media nümayəndələri ilə belə bir görüş keçirməsini arzuolunan hesab edirlər. Hazırda həm çap mətbuatının, həm də onlayn mətbuatın bir sıra problemləri olduğunu nəzərə alsaq, dövlət başçısının jurnalistlərlə, media kapitanları ilə görüşü, onların problemləri ilə bağlı operativ qərarlar verməsi bu sahənin inkişafına müsbət təsir edə bilər.**

Qeyd edək ki, hazırda çap mediasının inkişafı üçün qəzet kağızının ƏDV-dən azad edilməsi, ictimai yerlərdə, o cümlədən metroda qəzet satışının bərpa edilməsi, medianın reklam bazarının genişləndirilməsi, azad reklam bazarının olması, həmçinin onlayn mediaya maliyyə dəstəyinin verilməsi kimi məsələlər gündəmdədir.

**Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondunun icraçı direktoru Vüqar Səfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əvvəllər mətbuat nümayəndələrinin dövlət başçısı ilə görüşü olub:** "Həmçinin iki dəfə də jurnalistlər üçün tikilən binada mənzillərin paylanması zamanı prezident jurnalistlərlə bir araya gəlib. Mədəniyyət işçiləri ilə isə uzun illərdən bəri ilk dəfə görüş baş tuturdu. 2015-ci ildə media kapitanlarından ibarət böyük bir qrupla İlham Əliyevin görüşü oldu, orada mediaya aid məsələlər qaldırıldı, müzakirə olundu. Əgər belə bir görüş yenidən məsləhət bilinərsə, biz də dəstəkləyərik. Bu görüşlər adətən dəyirmi masa şəklində təşkil olunub, orada suallar verilib, ümumi müzakirələr aparılıb, media kapitanları fikirlərini səsləndiriblər. Görüş olsa, orada bir çox məsələlər qaldırıla bilər, elektron medianın maliyyələşməsi məsələsi, reklam bazarının formalaşması məsələsi, media nümayəndələrini maraqlandıran digər məsələlərə yer verilə bilər. Belə bir təşəbbüs olsa biz də dəstəkləyərik. Bildiyiniz kimi, gələn il medianın 145 illiyi olacaq, adətən belə yubiley illərində də görüş olur".

**Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli də qəzetimizə açıqlamasında bildirdi ki, zərurət olarsa, Mətbuat Şurası belə bir təşəbbüslə çıxış edə bilər:** "Media kapitanları ilə dövlət başçısının görüşü bir neçə dəfə, bir neçə formatda təşkil olunub. Zaman-zaman belə görüşlər baş tutub, mən də iştirak etmişəm. Mətbuat Şurasının təşkilatçılığı ilə media rəhbərlərinin dövlət başçısı ilə görüşü keçirilib. Bundan başqa, digər formatlarda, müəyyən toplantılarda da cənab prezident jurnalistlərlə görüşüb. Məsələn, mənzillərin paylanması zamanı dövlət başçısının geniş tərkibli jurnalist heyəti ilə görüşü baş tutdu. Belə bir təşəbbüs olduqda, hər zaman qarşı tərəfdən müsbət reaksiya verilir. Yenə də belə bir ictimai sifariş olarsa, yerlərdən müraciətlər olarsa, zərurət varsa, Mətbuat Şurası belə bir təşəbbüslə çıxış edə bilər. Praktikada belə hallar olub, düşünürəm ki, heç bir problem olmaz. Görüş üçün zərurət və format olmalıdır. Gündəmdə qəzet kağızının ƏDV-dən azad edilməsi, ictimai yerlərdə, o cümlədən metroda qəzet satışının bərpa edilməsi, medianın reklam bazarının genişləndirilməsi, azad reklam bazarının olması, həmçinin onlayn mediaya maliyyə dəstəyinin verilməsi kimi məsələlər var. Bunlar Mətbuat Şurasının təkliflər paketində də öz əksini tapıb. Mətbuat Şurasının İdarə Heyətinin toplantısında bu təkliflər paketi hazırlanıb, dövlət qurumlarına müraciət olunub. Ancaq elə bir mərhələ olsa və bu məsələlərə dövlət başçısının özünün birbaşa müdaxiləsi lazım gəlsə, Mətbuat Şurası belə bir təşəbbüslə çıxış edə bilər".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Vergi Məcəlləsində qəzet kağızı ƏDV-dən azaddır - bəs qanun niyə tətbiq edilmir?

**Azərbaycanda qəzet kağızı və hazır çap məhsulları əlavə dəyər vergisindən (ƏDV) azad oluna bilər.**

Modern.az-ın məlumatına görə, bu barədə Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyəti haqqında hesabatında bildirilib.

Sənədə görə, Milli Məclisin deputatları tərəfindən təklif edilib ki, ölkəyə gətirilən qəzet, kağız və hazır çap məhsulları üzərindən əlavə dəyər vergisi aradan qaldırılsın.

Nazirlər Kabinetinin həmin təklifə cavabında isə göstərilib ki, Vergi Məcəlləsinin 164.1.35-ci maddəsinin müddəalarına əsasən siyahısı Azərbaycan respublikasının Prezidenti tərəfindən müəyyən olunan xammalın və materialların idxalının ƏDV-dən azad edilməsi nəzərdə tutulub. Həmin siyahıya qəzet kağızı və hazır çap məhsulları daxil edildiyi halda qeyd olunan malların idxalı ƏDV-dən azad oluna bilər.

Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyəti haqqında hesabatı Milli Məclisin martın 15-də keçiriləcək iclasında müzakirə ediləcək.

Mətbuatın hazırkı durumunu nəzərə alsaq, bu məsələ qəzetçiliyin yaşamasında böyük rol oynaya bilər.

Diqqət çəkən əsas məqam isə odur ki, qəzetlərin, çap və poliqrafiya məhsullarının ƏDV-dən azad olunması Vergi Məcəlləsində öz əksini tapıb. Qanunun 164.1-ci maddəsində ƏDV-dən azad edilən məhsulların siyahısında kütləvi informasiya vasitələri məhsullarının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti də qeyd olunur. Yalnız reklam fəaliyyəti istisna təşkil edir. Lakin bu qanun mövcud olduğu halda, Nazirlər Kabinetinin 2015-ci ildən etibarən ləğv olunan 11 saylı qərarı əsas götürülür və onun ləğvi ilə qəzet kağızı ƏDV-yə cəlb olunur.



**Əkrəm Həsənov:** "Vergi Məcəlləsinə görə bütün ziddiyyətli məqamlar vergi ödəyicisinin xeyrinə şərh olunmalıdır"



**Rəşad Məcid:** "Arzu edərdik ki, qəzetlərin belə iqtisadi çətinlik yaşadığı dövrdə kağıza ƏDV tətbiq olunmasın"

**"Qaya" mətbuat yayımı firmasının sədri Xanhüseyn Əliyev məsələ ilə bağlı "Yeni Müsavat" a açıqlamasında bildirdi ki, qanunla azad edilməsinə baxmayaraq qəzet kağızına ƏDV tətbiq olunur:** "2005-ci ilə qədər qüvvədə olan Vergi Məcəlləsinə görə, idxal olunan kütləvi informasiya vasitələri ƏDV-dən azad idi. Qanunla kütləvi informasiya vasitələri dedikdə qəzet, jurnal və qəzet kağızı nəzərdə tutulurdu. 2005-ci ildə Nazirlər Kabineti 11 saylı qərar qəbul etdi. Vergi Məcəlləsi qüvvədə ola-ola həmin 11 saylı qərara kütləvi informasiya vasitələri və qəzet kağızını da saldı. Həmin ildən bu məsələ həm Vergi Məcəlləsi, həm də Nazirlər Kabinetinin qərarları ilə tənzimlənməyə başladı. Buna ehtiyac yox idi. 2015-ci ilin oktyabr ayında Nazirlər Kabinetinin 11 saylı qərarı ləğv edildi. Ancaq Vergi Məcəlləsi qüvvədə qaldı. Konstitusiyada da qeyd olunub ki, qanunların ardıcıllığı baxımından həmin qanun daha üstündür. Ancaq Gömrük Komitəsi qanun olduğu halda Nazirlər Kabinetinin qərarını üstün tutdu".

**X. Əliyev vurğuladı ki, qanun var və Gömrük Komitəsi qanuna üstünlük verməli idi:** "Problemlər də buradan başladı. 2000-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş və həmin ilin oktyabr ayında prezident fərmanı ilə təsdiq edilmiş qanun - Vergi Məcəlləsi qüvvədədir. Həmin qanunun 164.1-ci maddəsi ƏDV-dən azadolma maddəsidir. Orada konkret göstərilir ki, idxalın aşağıdakı növləri ƏDV-dən azaddır. Ondan sonra onun alt maddəsi olan 164.1.17 -ci maddəsində konkret olaraq qeyd olunur ki, KİV-lərin alqı-satqısı üzrə bütün dövriyyələr ƏDV-dən azaddır. Yəni respublikaya idxal olunan bütün kütləvi informasiya vasitələri, qəzet və jurnallar, qəzet kağızı ƏDV-dən azaddır. Gömrük Komitəsi isə ləğv edilmiş qərara üstünlük verir. Son olaraq, Gömrük Komitəsi irad bildirir ki, idxalı olunan KİV azaddır, ancaq onların alqışı azad deyil. Vergi Məcəlləsində isə yazılıb ki, alqı-satqı azaddır. Onlar isə alqı sözünə etiraz bildirirlər ki, Vergi Məcəlləsində alqı sözü səhvdir, onu əsas götürməyin. Ancaq qanun alqı-satqının, bütün dövriyyənin azad olduğunu qeyd edirsə, azad olmalıdır.

Prezidentin "Kütləvi informasiya vasitələri haqqında" fərmanı var və həmin fərmanda açıqlama verilir ki, buraya qəzet və jurnallar və qəzet kağızı daxildir".

**Hüquqşünas Əkrəm Həsənov da "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, Vergi Məcəlləsinə görə, bütün ziddiyyətli məqamlar vergi ödəyicisinin xeyrinə şərh olunmalıdır:** "Bu məsələdə həqiqətən qarışıqlıq var. Əsas problem isə bizim qanunların yazılmasındadır. Azərbaycanda qanunvericilik institutu olmalıdır və qanunların yazılmasındakı nöqsanları aradan qaldırmalıdırlar. Xüsusən də iqtisadiyyat sahəsində qanunvericiliyə elmi yanaşma olmalıdır, hüquq dili olmalıdır. Qəzet kağızına ƏDV tətbiqi ilə bağlı məsələdə qanunlar toqquşur. Onların öz məntiqləri var, ancaq praktikada müəyyən problem ortaya çıxır. Vergi Məcəlləsinin 164.1. maddəsinə baxsanız, orada qeyd olunur ki, malların ixracından başqa, malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növləri, habelə idxalın aşağıdakı növlərindən ƏDV tutulmur. Yəni aşağıdakı bəndlərdə söhbət təkcə idxaldan deyil, həm də xidmətlərin göstərilməsindən, malların təqdim edilməsindən gedir. Vergi Məcəlləsinə görə bütün ziddiyyətli məqamlar vergi ödəyicisinin xeyrinə şərh olunmalıdır".

**Hüquqşünas hesab edir ki, bu qanun qəzet kağızına, poliqrafiya məhsullarına da şamil edilməlidir:** "Bu qanuna əsasən qeyd olunan məhsullar ƏDV-dən azaddır. Ancaq mən bu məsələni araşdırdım və müəyyən etdim ki, Dövlət Gömrük Komitəsinin mövqeyi fərqlidir. Onlar da iqtisadi yanaşma sərgiləyirlər. Ancaq bu, hüquqi yanaşma deyil, sırf iqtisadçı yanaşmasıdır. Qanunlar hüquqi dildə yazılmalıdır. Bəzən deyirlər ki, qanunlar elə yazılmalıdır ki, onu hamı başa düşsün, lakin hüquqi dil var. Qanunu hüquqşünas yazmırsa, o zaman bu problemlər yaşanır. Vergi Məcəlləsi tamamilə yenidən yazılmalıdır. Məcəllənin 164.2-ci maddəsi 2015-ci ilə qədər qüvvədə olub və orada Nazirlər Kabinetinə səlahiyyət verilmişdi ki, hansı məhsul və xidmət növlərinin idxaldan azad edildiyini müəyyən etsin. 2015-ci ildə həmin maddə də ləğv olundu və qəzet kağızı, poliqrafiya məhsullarının ƏDV-dən azad edilməsi də onunla birgə ləğv olunmuş hesab edildi. İqtisadçılar artıq fikirləşdilər ki, artıq 164.2 yoxdursa, Nazirlər Kabineti müəyyən etmirsə, poliqrafiya məhsullarının ƏDV-dən azad edilməsi dövrü bitdi. Ancaq unutdular ki, 164.1.7. maddəsi hələ də qüvvədədir. Mən bu məhsulların ƏDV-dən azad olunması mövqeyindəyəm".

Media kapitanları da qəzet kağızının ƏDV-dən azad ediləcəyi günü səbirsizliklə gözləyirlər.

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid "Yeni Müsavat"a danışarkən vurğuladı ki, qəzetlərin də iqtisadi vəziyyəti ağırdır, bu, qəzetlər üçün bir iqtisadi yükdür:** "Qəzet kağızının ƏDV-dən azad edilməsi ilə bağlı uzun illərdir müzakirə aparılır. Belə bir variant irəli sürürlər ki, mətbuat orqanları qəzet kağızını ölkəyə özləri gətirəndə bu tətbiq olunmur. Ancaq hələ ki ƏDV tətbiq olunur, bu da kağızın bahalaşmasına gətirib çıxarır. İndi qəzetlərin də iqtisadi vəziyyəti ağırdır, bu qəzetlər üçün bir iqtisadi yükdür. Vaxtaşırı bu məsələlər qaldırılır, müzakirə edilir. Mən də hesab edirəm ki, bu məsələnin həlli vacibdir. Mətbuat Şurasının sədri Əflatun Amaşov da bu məsələni bir neçə dəfə Milli Məclisdəki çıxışında qaldırıb. Arzu edərdik ki, qəzetlərin belə iqtisadi çətinlik yaşadığı dövrdə kağıza ƏDV tətbiq olunmasın. Türkiyədə də kitab çapına tətbiq olunan ƏDV aşağı endirilib. Onsuz da dövlətin bundan əldə etdiyi vəsait elə böyük həcmdə deyil. Ona görə də yaxşı olar ki, hökumət belə bir qərar versin və bu məhsullara ƏDV tətbiq olunması ləğv edilsin".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Qarabağ Komitəsində gərginlik yaradacaq yeni açıqlamalar

## Tural Abbaslı: "Bu məsələdə kimsə fərqli mövqedə dura bilməz"

**Qarabağ Komitəsi (QK) daxilində yaşanan gərginlik tükənmir. Komitə ilə yolları ayrılmaq üzrə olan və bu səbəbdən qurumun son iki iclasında iştirak etməyən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağının "Yeni Müsavat"ın ötən sayına verdiyi açıqlamada səsləndirdiyi bəzi fikirlər gərginliyi bir qədər də artırıb.**

QAT sədri açıq şəkildə ötən il 29 sentyabra, yəni QK-nın həmin tarixdə keçirdiyi "Qarabağa azadlıq" mitinqinə qədər olan uğurlarını rəhbəri olduğu təşkilatın ayağına bağlayıb.

**Sitat:** "Mən bir sualın cavabını hələ də tapa bilmirəm ki, bu adamlar nə üçün QAT-ın 25 illik təcrübəsindən, bazasından istifadə etmək istəmədilər. Özləri də bilirlər ki, komitənin 29 sentyabr mitinqinə qədərki uğuru daha çox QAT-ın bazasına söykəndiyimizə görə idi".

**QK-nın təsisçilərindən olan, AĞ Partiya başqanı Tural Abbaslı QAT sədrinin dediklərinə bu cür mövqe sərgilədi:** "Sözün düzü, mənə tam aydın olmadı ki, Akif bəy "Mən bir sualın cavabını hələ də tapa bilmirəm ki, bu adamlar nə üçün QAT-ın 25 illik təcrübəsindən, bazasından istifadə etmək istəmədilər" dedikdə nəyi nəzərdə tuturdu. Çünki Qarabağ Komitəsi ilə QAT arasında hər hansı bir qarşıdurma olmayıb və bu gün də yoxdur. Biz komitə olaraq istər QAT-a, istərsə də burada cəmləşən digər partiyalara, təşkilatlara, qazilərə, ziyalılara Qarabağın azadlığa qovuşması naminə bir resurs, baza kimi yanaşmışıq və faydalanmışıq. Qarabağ Komitəsində elə bir mühit formalaşıb ki, burada artıq ayrı-ayrı şəxslər, partiyalar, təşkilatlar önə çıxmır, burada Qarabağ naminə fəaliyyət və fədakarlıq önə çıxır. Odur ki, komitənin fəaliyyətini onun tərkibindəki təşkilatlara pay şəklində bölməyi doğru hesab etmirəm. Konkret olaraq Qarabağ Komitəsinin təsis olunduğu gündən bu günə qədərki uğuru onun üzvlərinin hər birinin mübarizəsinin nəticəsidir. Bu məsələdə kimsə fərqli mövqedə dura bilməz və durmamalıdır da. QAT bu gün də komitənin üzvüdür və fəaliyyətini orada davam etdirir. Ola bilər ki, kimlərinsə komitədə QAT-a deyil, Akif Nağının şəxsinə iradları olsun. Bunu da zaman-zaman onlar səsləndirib və hətta son iclaslardan birində bəziləri bu münasibətə görə istefa verib getdilər. Ancaq Akif bəy bu iradları qətiyyən QAT-a ünvanlanan iradlar kimi təqdim etməməlidir. Mən bilən QAT-ın idarəçiliyində demokratik prinsiplər hakimdir və buna söykənərək oradakı bəzi üzvlər belə Akif bəylə nələrdəsə razı da olmurlar. Yəni demək istəyirəm ki, Qarabağ Komitəsi QAT başda olmaqla, heç kimi və heç bir təşkilatı günahlandırmır və onun resurslarından Qarabağın azadlığı naminə yararlanmağa çalışır. Qarabağ Komitəsi əksinə, sıralarını genişləndirərək qarşısına qoyduğu hədəfə yetişmək üçün tam gücü ilə fəaliyyət göstərir".



❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019


Fəxrəddin Abbasov

# "Fəxrəddin Abbasovun həbsi bütün xainlərə dərs olacaq"

## İlham İsmayıl: "Bu adamlara qanunların dili ilə bir dərs vermək vacib idi və veriləcək də"



**Azərbaycana qarşı xəyanətkar fəaliyyəti ilə əlaqədar barəsində cinayət işi başlanan və ötən ilin sentyabrında Rusiyada həbs edilən Fəxrəddin Abbasov (özünü Aboszodə kimi təqdim edir-red.) bu il fevralın 28-də Rusiyada müvəqqəti yaşamaq müddəti bitdiyi üçün deport edildi. O, müvafiq qaydada saxlanıldığı həbsxanadan vətəndaşı olduğu Azərbaycana fevralın 28-də deport edildi və DTX onu Bakıda hava limanında qandalladı.**

O, uzun illər ərzində faktiki olaraq Ermənistanın agenti kimi çalışıb. Dəfələrlə torpaqlarımızı işğal etmiş Ermənistanın paytaxtına səfərlər edib oradan açıq şəkildə düşmənlərimizi dəstəklədiyini bildirirdi. Fəxrəddin Abbasov təkbaşına fəaliyyət göstərməyib, Azərbaycandan çıxan, Azərbaycan dövlətçiliyi əleyhinə çıxışlar edən şəxsləri təşkil etməyə və birləşdirməyə çalışıb. Tanınmamış "Dağlıq Qarabağ Respublikası"nın işğalçı rejiminin nümayəndələri ilə yanaşı əyləşib ölkəmiz əleyhinə illərlə təbliğat aparıb. Erməni xüsusi xidmət orqanlarının kuratorları ona maddi kömək edib, "Rusiya ermənilər ittifaqı" dəstək verib.

**Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl Fəxrəddin Abbasovun həbsi və Azərbaycana ekstradisiyasını müsbət qiymətləndirdiyini deyib. "Yeni Müsavat"a açıqlamasında o qeyd edib ki, F.Abbasov və onunkimilər Azərbaycanın ərazi bütövlüyü əleyhinə tam xəyanətkar mövqedən çıxış ediblər:** "Faktiki olaraq heç bir diskriminasiyanın olmadığı bir yerdə, etnik münasibətlərin tarixən normal olduğu, əsrlərlə birgə yaşadığımız torpaqlarda separatçılığı təbliğ ediblər. Fəxrəddin Abbasov, İsmayıl Şabanov kimiləri elektron saytlardan, xüsusilə ermənilərin və rusların maliyyəsi ilə açılmış "Talışstan" televiziyasından əleyhimizə çalışıblar, təhqiredici tonda çıxışlar edib, dövlət adamlarından tutmuş dövlət atributlarımıza qədər həmişə aşağılayıcı mövqedən çıxış ediblər. Bizim düşmənlərimizlə, ermənilərlə əlaqəyə girərək "Talışstan" televiziyasının İrəvandan yayımlanmasına nail olublar. Dəfələrlə İrəvanda səfərdə olublar, aylarla orada qalıblar, Moskvada xüsusi himayə altında yaşayıb bu işləri görüblər. Bu təkcə əməliyyat işi deyil, siyasi məsələdir. Bu siyasi məsələnin bu cür yekunlaşması bizim üçün uğurdur. Azərbaycan diplomatik və xüsusi xidmət orqanlarının uğurudur. Bu məsələ ilə dövlətə xəyanət edənlərə dərs verilmiş oldu.

Fəxrəddin Abbasov Rusiyada çoxdan tutulmuşdu. Amma Azərbaycana ekstradisiyası ləngidilirdi. Onun enində-sonunda Bakıya göndərilməsi bizim ikinci uğurumuzdur. Yeni separatçılar, xainlər bilməlidirlər, anlamalıdırlar ki, harada məskən salmalarından və kimlərin himayəsində olmalarından asılı olmayaraq həbs ediləcək və gec-tez etdiklərinə görə Azərbaycan məhkəməsi qarşısında cavab verəcəklər. Bu mənada məsələ uğurlu profilaktikadır.

Söhbət Fəxrəddin Abbasovun kimliyindən, tutulmağından getmir. Onun kimiləri yalnız başqa dövlətlərin alətlərindən başqa bir şey deyillər. Bu adamlara qanunların dili ilə bir dərs vermək vacib idi və veriləcək də".

**İlham İsmayıl deyir ki, cənub bölgəsi İran və Rusiya tərəfindən həmişə separatçılıq meyllərinin qızışdırıldığı bir bölgədir:** "Dini, etnik, separatçılıq zəminində bu işləri görüblər. Ona görə də Fəxrəddin Abbasov, İsmayıl Şabanov və bu kimi insanlar bilməlidirlər ki, dövlət əleyhinə fəaliyyətə görə qanun qarşısında cavab verməli olacaqlar. Bu əməliyyat Dövlət Təhlükəsizlik Xidmətinin ciddi uğurudur".

**İlham İsmayıl deyir ki, Fəxrəddin Abbasovun işi üzrə məhkəmə çox şəffaf şəkildə keçirilməlidir:** "Açıq məhkəmə keçirilməldir. Sözün həqiqi mənasında separatçılara heç bir imkan verilməməlidir ki, Fəxrəddin Abbasovu qəhrəmana çevirsinlər, Novruzəli Məmmədov kimiləri vətənpərvər olmaya-olmaya vətənpərvər adlandırsınlar. Bu adamlar vətənpərvər deyillər, əgər talış xalqının mənafeyini fikirləşsəydi, bu hərəkətləri etməzdi. Fəxrəddin Abbasov və onun adamları istəyirlər ki, ölkəmizin ərazi bütövlüyü təzədən parçalansın".

Qeyd edək ki, Azərbaycan vətəndaşı olan Fəxrəddin Abbasov barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (milli, irqi nifrət və düşmənçiliyin salınması, milli ləyaqətin alçaldılması) maddələri üzrə cinayət işi başlanmış və o, beynəlxalq axtarışa verilmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Ayaz Mütəllibov devrilib, yoxsa özü istefa verib?

## Eks-prezident yenə AXC-ni ittiham etdi,İsgəndər Həmidovdan sərt reaksiya gəldi

**Bugün Ayaz Mütəllibovun Azərbaycan prezidenti vəzifəsindən istefa verməsindən 27 il ötür.**



1992-ci il martın 6-sı Azərbaycanın siyasi tarixində prezident Ayaz Mütəllibovun hakimiyyətdən getməsi ilə yadda qalıb. Bu gediş sıradan gediş deyildi. Ölkənin ilk prezidentinin tutduğu yüksək postdan kənarlaşdırılmasına səbəb olan hadisə cəmi bir həftə qabaq baş vermiş, Xocalıda soyqırım törədilmiş və bunun ardınca hakimiyyətə qarşı xalq etirazları baş qaldrmışdı. Ayaz Mütəllibovu hakimiyyətdən uzaqlaşdırmaq istəyən siyasi qüvvələr də təbii ki, bu etirazlardan, yaranmış situasiyadan istifadə edirdilər.

Ayaz Mütəllibov hər ilin bu günlərində hakimiyyətdən getməsi barədə medianın suallarını cavablandırır. Hər dəfə də Azərbaycan Xalq Cəbhəsinin onu güc yolu ilə devirdiyini və cəbhəçilərin bu hərəkətinin Azərbaycanın başına bəlalar gətirən tarixi səhv adlandırır. Dünən də Real.TV-yə müsahibəsində Ayaz Mütəllibov bildirib ki, 20 Yanvar hadisələrini araşdıran istintaq komissiyasının üzvü olan SSRİ KQB-sinin sədr müavini ona AXC-ni bağlamağı məsləhət görüb. Lakin mənfi cavab alıb: "Mən ona dedim ki, Azərbaycanda demokratiya qururuq, Qarabağda müharibə gedir, AXC-ni bağlamağı düşünmürəm. AXC isə 1992-ci ilin 6 martında dövlət çevrilişi etdi".

**Bundan əvvəl də eks-prezident müsahibələrində deyib ki, 1992-ci il martın 5-6-da və həmin il mayın 15-də qanuni hakimiyyətə qarşı AXC-nin etdiyi sui-qəsdin xalqın iradəsinin təzahürü olmadığına hüquqi baxımdan şübhə qalmayıb. Bu, ilk mərhələdə küçə təzyiqləri altında parlament çevrilişi, ikincisi, hakimiyyətin silah gücünə işğalıdır, yəni hərbi çevrilişdir:** "Xocalıda baş verən faciəli hadisələri və onun təsiri altında yaranmış güclü psixoloji durum hakimiyyət uğrunda öz məqsədi üçün istifadə edən AXC-yə imkan verdi ki, küçədə toplaşan kütlənin təzyiqi altında respublika parlamentini məni istefaya göndərməyə məcbur etsin. Təəssüf ki, opponentlərimi inandıra bilmədim ki, onların hərəkətləri respublikaya fəlakətlər gətirir, torpaqlarımızın müdafiəsini çətinləşdirir, ardıcıl çevrilişlər və siyasi kataklizmlər dalğasının yaranmasına səbəb olur. AXC-nin keçmiş funksionerləri cəsarətli olub öz səhvlərini etiraf etməlidirlər".

**AXC-nin liderlərindən olmuş sabiq daxili işlər naziri İsgəndər Həmidov isə "Yeni Müsavat"a açıqlamasında o bildirdi ki, A.Mütəllibov özü könüllü olaraq prezident vəzifəsindən istefa ərizəsini yazıb. Onu AXC-dən heç kim istefa ərizəsi yazmağa məcbur etməyib:** "Ayaz Mütəllibov Xocalı faciəsindən sonra hakimiyyətdə qala bilməzdi. Xalq ona qarşı idi. Bunu Mütəllibov yaxşı görürdü. Xocalıda ermənilər tərəfindən azərbaycanlılara qarşı misli görünməmiş vəhşilik, soyqırım aktı törədilmişdi, 600-dən yuxarı dinc sakin qətlə yetirilmişdi, 1000-dən yuxarı sakin əsir götürülmüşdü. Sabahısı gün Ayaz Mütəllibovun prezident olaraq nəzarətində olan "AzərTAc" Dövlət Agentliyinin Azərbaycan Dövlət Televiziyasında Xocalı barədə xəbəri yayıldı. Xəbərdə Xocalıda insident nəticəsində 3 nəfər Xocalı sakininin həlak olduğu bildirilirdi. Bu cür informasiya Ayaz Mütəllibovun icazəsi olmadan yayıla bilməzdi. Təsəvvür edirsinizmi, ölkənin bir bölgəsində böyük miqyaslı qırğın törədilib, prezident bunu xalqdan gizlədir. Bu, Xocalını müdafiə etməmək qədər xəyanətə bərabər hərəkət idi. Bu hərəkətə indi cəsarətdən, vətənpərvərlikdən dəm vuran Mütəllibov yol vermişdi. Belə bir şəxsin prezident və ali baş komandan kimi qalması qeyri-mümkün idi, xalq bunu qəbul etmirdi. Ayaz Mütəllibov da bu vəziyyəti görüb istefa ərizəsini yazdı. Ərizəsində səhhətinə görə istefa verdiyini yazmışdı.

İstefa ərizəsini Allahşükür Paşazadəyə təqdim etmişdi. Yəni Mütəllibovu AXC-dən heç kim məcbur etməmişdi ki, istefa ərizəsi yazsın. Prezidentin parlamentdə impiçment məsələsi qoyulmuşdu. Ancaq biz parlamentdə cəmi 15 nəfər idik. İstəsək də onu istefa ərizəsi yazmağa məcbur edə bilməzdik. Onun getməyini xalq istəyirdi, ona görə də getdi".

**İ.Həmidov onu da bildirdi ki, Mütəllibov əslində istəyirdi ki, AXC-ni bağlasın. Sadəcə olaraq, Azərbaycan xalqının sərt reaksiyasından çəkindiyi üçün bunu edə bilmirdi:** "Onun AXC-yə qarşı qərəzi, qəzəbi heç vaxt tükənmir. AXC hakimiyyət uğrunda mübarizə aparmırdı, müstəqillik və torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparırdı. Mütəllibov özü istefa verdi getdi, may ayında konstitusiyanı pozaraq güc yolu ilə geri qayıtdı. Lakin cəmi bir gündən sonra yenə qaçdı. Onun bizi cəsarəti olmamaqda suçlaması isə gülüncdür. Cəsarətsiz adamlar SSRİ imperiyasına qarşı vuruşmazdı, Mütəllibov kimi imperiyaya sitayiş edərdi. Ayaz Mütəllibovun o zamankı davranışları qorxaqlıq, ölkəsini Rusiyaya satmaq idi. İndi də Rusiyanın əleyhinə qorxusundan bir kəlmə danışmır. Bir dəfə də olsun dilinə gətirmir ki, mən hakimiyyətdə ola-ola Rusiyanın 366-cı alayı erməni quldurları ilə birlikdə Xocalıda dinc azərbaycanlılara qarşı soyqırım törədib. Rusiyaya mütilik onu həmişə o vəziyyətə gətirib ki, hələ də elə düşünür ki, hakimiyyətdən getməsəydi rayonlarımız işğal olunmayacaqdı, guya Rusiya ermənilərə bizim torpaqlarımızı işğal etməyə imkan verməyəcəkdi. Bu adam fərqində deyil ki, Qarabağ müharibəsinin ən dəhşətli hadisəsi Xocalı soyqırımı məhz onun prezidentliyi zamanı həyata keçirilib. Rusiya Ayaz Mütəllibova görə ermənilərə "Azərbaycan torpaqlarını işğal etməyin" xəbərdarlığın edən və işğalın qarşısını alan idisə Xocalıda görünməmiş qırğın törədilməzdi. Ayaz Mütəllibov danışanda heç olmasa azacıq məntiqlə danışsın".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019



# "İstərdik prezidentlə görüşək"-QHT sədri

## Ekspertlər siyasi islahat paketi və əfv gözləntisindən danışdılar

**Azərbaycan hökumətinin "fevral inqilabı" kimi xarakterizə edilən son sosial dəyişikliklərin davamı olaraq siyasi hərəkətlənmə də gözlənilir. Müşahidəçilərin fikrincə, iqtidarın sosial-iqtisadi açılımı siyasi müstəvidə öz əksini tapa bilər. Xüsusən Novruz bayramı ərəfəsində gözlənilən böyük əfv fərmanına bir çox siyasi məhbus elan edilmiş dustaqların düşməsi istisna edilmir.**

Çünki hakimiyyətin son davranışlarının və prezidentin verdiyi fərmanların, qərarların məntiqi davamı olaraq siyasi fazada da ciddi yumşalmalar, dəyişikliklər olmalıdır. İddia olunur ki, siyasi reformaların başlanğıcı olaraq sabiq səhiyyə naziri Əli İnsanov əfv edilə bilər.

14 ildir ki, həbs həyatı yaşayan eks-nazirlə bərabər vicdan məhbusları kimi tanınan digər dustaqlar da azad oluna bilərlər.

Hazırda Əfv Komissiyası işləyir, hüquq müdafiəçiləri öz siyahılarını təqdim ediblər, nəzərlər prezidentdədir və bayramqabağı əfv fərmanına kimlərin düşəcəyi intizarla gözlənilir.

**Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu "Yeni Müsavat"a bildirdi ki, məhkəmə-hüquq sistemində ciddi islahatlar başlanıb:** "Bu islahatlar davam edəcək, prezident də məhkəmə sistemində dəyişikliklər olacağının anonsunu verdi. Biz də dəstəkləyirik və davamı olaraq, əfv fərmanı verilərsə çox sevinərik. Cəmiyyətin əsas gözləntisi əfvdir".

**N.Cəfəroğlu qanunlarda boşluqlar olduğunu və əsaslı düzəlişlərə ehtiyac yarandığını qeyd etdi:** "Biz əsasən qadınların hüquqlarının müdafiəsi ilə məşğuluq və əksər məhkəmə işlərini uduruq. Amma bir sıra işlər var ki, onları qaldıracağıq. Əsas qanunlarda olan boşluqlardır, onlar dəyişməlidir. İslahatlar aparmaq üçün o boşluqlara düzəliş edilməlidir ki, məhkəmələr də ədalətli qərar versinlər. Çünki hər iki tərəf bundan istifadə edir. Məsələn, ata varlıdırsa, uşaq onda qalmalıdır. Axı uşağı anadan təcrid etmək olmaz. Başqa misal deyim, 13 il yaşayırlar, 3 uşaq var, boşanıb. Qanuna düzəliş olunmalıdır və boşanmış ər həmin uşaqlarla bərabər qadına da baxmalıdır. Bütün dünya bunu edir".

**Hüquq müdafiəçisi prezidentlə görüşmək istədiklərini də vurğuladı:** "Biz QHT rəhbərləri istərdik ki, prezidentlə görüşək. Çünki QHT-lərin əli ilə dövlətçiliyi qorumaq üçün müəyyən işlər görülməlidir. Axı hökumətin əli çatmadığı işi biz görürük. Kənddə insanlar islahatların mahiyyətini bilmirlər. Elə adamlar var ki, pensiyaya necə çıxırlar xəbərləri yoxdur. Bunları izah etmək vacibdir.

Milli Demokratiya İnstitutu varıydı, onlardan çox şey öyrəndik. Yeni institutlar yaradılmalıdır. Özümüzün olan. Kənardan gəlməyən İnsan Haqları Evi yaratmaq lazımdır, normal və vətənpərvər adamlar işə cəlb edilməlidir. Bu islahatlar mütləqdir".

**"Turan" informasiya agentliyinin direktoru, siyasi ekspert Mehman Əliyevin fikrincə, iqtisadi islahatlar konseptual və sistemli olmalıdır. O hesab edir ki, siyasi məhbusların azadlığa buraxılması ilə müəyyən dərəcədə gərginlik azala bilər:** "Amma kordinal dəyişikliklərə ehtiyac var. Hamısı həllini gözləyir və onsuz da bu islahatları edəcəklər. Hakimiyyət bunu görür, dəyişikliklər getdikcə genişlənəcək, çünki cəmiyyət oyanıb".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

**Martın 5-də Bakıda "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" adlı beynəlxalq konfrans keçirilib.**

# "Ölkəni qorumaq onu avtomatla qorumaq deyil ki?" - Şeyx

## Bakıda "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" adlı beynəlxalq konfrans keçirilib; **QMİ sədri:** "Vəhhabi dostlarım da var"



Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışında deyib ki, ölkədə dini-mənəvi irsə ehtiram, müxtəlif mədəniyyətlərin dialoqu, tolerantlıq ənənələri olduqca yüksək səviyyədədir: "Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. Bu bizim qürur mənbəyimizdir. Təbii ki, burada siyasi iradə böyük önəm daşıyır".

**A.Paşazadə vurğulayıb ki, prezident İlham Əliyevin qlobal miqyasda dəyər kəsb edən təşəbbüsləri bəşəriyyətin ümumi inkişafına, sülh və dinc birgəyaşayış amallarına xidmət edir.** "Təəssüf ki, hazırda dünyada humanitar fəlakətlər, insan qırğını, miqrant böhranı kimi hallar gündəmdədir. 20 faiz torpağı erməni ekstremistləri tərəfindən işğal olunmuş, bir milyondan artıq soydaşı qaçqın-məcburi köçkün taleyi yaşamağa məcbur olan, Xocalı soyqırımına məruz qalmış Azərbaycan xalqı ən ağrılı problemimiz olan Qarabağ münaqişəsinin müharibə yolu ilə deyil, beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə ədalətli həllinin tərəfdarıdır. Bu gün bütün problemlərin fövqündə duran sülhün qorunması probleminin həllində, habelə terrorizm, islamofobiya, antisemitizm, ekstremizm və radikalizmin önlənməsində dövlət rəhbərlərinin, ictimai və dini qurum liderlərinin birgə əməkdaşlığı vacibdir. Konfessiyalararası anlaşma, dinlərarası dialoq, müxtəlif din xadimlərinin əməkdaşlığı - milyonlarla insan üçün ən gözəl örnəkdir. Məzhəbindən asılı olmayaraq bölgə müsəlmanlarının tarixi dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsi dinlərarası dialoq sahəsində malik olduğu təcrübəni məhz bu istiqamətdə davam və inkişaf etdirir. Azərbaycanda din-dövlət münasibətlərinin yüksək səviyyəsi bütün bu uğurlarımıza rəvac verən məqamlardandır", - Şeyxülislam bildirib.

Şeyxülislam bildirib ki, bu il noyabrın 14-15-də dünyanın dini liderlərinin Azərbaycanda toplanması nəzərdə tutulur.

**Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov deyib ki, Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin edilməsi ölkəmizin daxili siyasətinin tərkib hissələrindədir:** "Azərbaycan dövləti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşır. Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin edilməsi ölkə qanunvericiliyində öz əksini tapıb".

**E.Nəcəfov bildirib ki, Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasına nümunə kimi milli etiqad azadlığı ilə yanaşı, bütün din və məzhəblərin qanun qarşısında bərabər olması qeyd edilməlidir:** "Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Buna baxmayaraq, dövlət dinlər arasında heç bir ayrı-seçkiliyə yol vermir. Dövlət-din münasibətlərinə dair daha bir nailiyyət ondan ibarətdir ki, dövlət bütün dini qurumların hər birinə lazımi kömək, o cümlədən maliyyə dəstəyi göstərir. Son dövrlərdə Bakıda və regionda çoxsaylı rus pravoslav, gürcü pravoslav, alban-udin kilsə və məbədləri, yəhudi sinaqoqları əsaslı təmir edilib".

Şöbə müdiri əlavə edib ki, Azərbaycanda dini azadlığın yüksək səviyyədə təmin edilməsi, bütün dini məzhəblərin qanun qarşısında bərabər olması, dini qurumlara dövlət dəstəyinin göstərilməsi öz məntiqi nəticəsi kimi ölkə daxilində dinlərarası münasibətlərin qarşılıqlı hörmət əsasında qurulmasına səbəb olub. (Trend)

**"Azərbaycan mədəniyyətlər, dinlərarası münasibətlərin həyata keçirilməsində mühüm rol oynayır". Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı beynəlxalq konfransda belə deyib.**

**Onun sözlərinə görə, Azərbaycan özünəməxsus dövlət-din modelinə malikdir:** "Azərbaycan dinlərin, mədəniyyətlərin qovşağı olan dövlət kimi dünyaya öz modelini göstərib. Bakı bu müzakirələrdə mərkəz şəhər kimi çıxış edir".

**M.Qurbanlı xatırladıb ki, bu gün Azərbaycanda 909 dini icma qeydiyyatdan keçib:** "Onlardan 32-si xristian dini icmalarıdır, yəni qeyri-müsəlman dini icmalardır. Azərbaycan əhalisinin 96 faizi müsəlmandır, yerdə qalan 4 faiz müxtəlif dini konfessiyaları özündə əks etdirir və onların ölkədə hərtərəfli fəaliyyəti üçün hər şərait yaradıb" (*yazıda "Report", "Trend" və strateq.az-ın xəbərlərindən istifadə olunub*).

**Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycan dini etiqad, vicdan azadlığı baxımından dünyada nümunə göstərilə biləcək ölkələr sırasındadır, bəlkə də bu ölkələrdən birincisidir:** "Azərbaycan müxtəlif dinlərin, sivilizasiyaların qovşağında yerləşən ölkədir. Bu xüsusiyyətimiz xalqımızın xarakterinə, tarixində əksini tapıb".

"Mənim xristianlarla da, müsəlmanlarla da dost münasibətim var. Sünnilər, şiələr arasında dostlarım çoxdur. Hətta vəhhabi dostlarım da var".

Bakupost.az-ın məlumatına görə, bu sözləri QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə deyib. O, konfransdan sonra keçirdiyi mətbuat konfransında amerikalı jurnalistin sualına cavabında belə deyib.

**Allahşükür Paşazadə deyib ki, xaricdə bəzi insanlar Azərbaycana zərbə vurmaq, onu baltalamaq istəyir. Şeyxülislam bildirib ki, haqqı eşidib onu müdafiə etməmək özü də bir günahdır:** "Bu gün biz dövlətimizi necə qoruyuruq? Ölkəni qorumaq onu avtomatla qorumaq deyil ki? Dövləti müdafiə etmək həm də dövlət rəhbərinin fikirlərini müdafiə etmək, onun dediklərini yerinə yetirməkdir. Bunun əksini edənlər dövlətçiliyimizi bilməyənlərdir. Bunu arxasında dayanan bəzi qüvvələr var".

**QMİ sədri prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşünə də toxunub:** "Prezident mədəniyyət işçiləri görüşdü, ona çoxlu suallar verildi. Bəs soruşum görüm bu dövləti, onun rəhbərini qorumaq, onun dediklərini yerinə yetirmək üçün siz ictimaiyyət, ziyalılar nə edirsiniz, atdığınız addımlar nələrdən ibarətdir? Biz bunu gözləyirik. Mən də bunu gözləyirəm".

❑ **Musavat.com**

# "Mənim tələbim o deyildi ki, həbsxanada kabab versinlər"

## Mehman Hüseynov: "Prezidentə müraciəti özüm yazıb və imzalamışam"

**İki illik həbs müddətini başa vuran bloger Mehman Hüseynov martın 5-də evində mətbuat konfransı keçirib.**

O bildirib ki, həbsxanada olduğu müddətdə mübarizəsini davam etdirib: "Bu mübarizə mənə ağır başa gəlib. İlk növbədə bu müddətdə anamı itirdim. Bilirsiniz ki, qardaşlarımın biri xaricdədir, biri də Naxçıvanda əsgərdə. Düşünürdüm ki, anamı itirdikdən sonra çökəcəyəm. Lakin gördüm ki, çox güclüyəm və itkilərə baxmayaraq, mübarizəni davam etdirdim. İlk öncə azadlıqda olmağımın səbəbkarlarına təşəkkür edirəm. Bu, ilk növbədə Azərbaycan xalqıdır. Xalq mən aclıq edən, mübarizə aparan zaman yanımda olub. Bundan əlavə, Avropa Parlamentinin deputatları, Amerika senatorları, beynəlxalq və yerli qurumlar aclıq keçirən zaman mənə dəstək oldular. Mənimlə birlikdə digər dostlarımız da aclıq aksiyası keçirirdilər ki, onlara da təşəkkür edirəm. Siyasi partiyalara, Milli Şuraya təşəkkür edirəm ki, mitinq təşkil ediblər. Həbsdən çıxan zaman jurnalistlər məni burada üç-dörd saat gözləyib. Bunu dəyərləndirməliyəm. Ancaq jurnalistlər də başa düşməlidirlər ki, mən iki il ərazində əziyyət çəkirdim. Azad mətbuata çıxışım yox idi, telefon çətinliyim vardı. Bilmirdim ki, çöldə nə baş verir. Ona görə də azadlığa çıxan zaman jurnalistlərə bildirdim ki, icazə verin iki gün məlumatları araşdırım. Bu iki gün ərzində araşdırma edib, mitinqdə baş verənlər, bütün yaşananlar haqqında məlumat topladım. Mənim üçün mübarizə aparanlara təşəkkür edirəm".

**O, barəsində açılan və sonra xitam verilən cinayət işi haqda da danışıb:** "Heç bir ağılı başında olan insan həbsinin başa çatmasına iki ay qalmış təxribata uymazdı. Hadisə ilə bağlı bildirim ki, belə bir hadisə, ümumiyyətlə, baş verməyib. Əvvəllər də siyasi məhbuslara qarşı cəzanın sonuna yaxınlaşanda təxribatlar olub. Düşünürəm ki, təxribatla üzləşən insanlar bəlkə vaxtında düzgün addım atmayıblar deyə, mənim də başıma belə işlər gəlib. Cinayət işinin açılması ilə bağlı xəbər aldığımda bildirdim ki, cəzama iki ay qalıb və 2 mart tarixi mənim üçün çox önəmli olacaq". **M.Hüseynov deyib ki, bu səbəbdən aclıq aksiyası keçirib, sudan belə imtina edib:** "Bunları həbsdən qorxduğum üçün etmirdim. Həbsdən qorxan insan mənim kimi fəaliyyət göstərməzdi. Bu hadisə mənim üçün prinsipial məsələ idi. Aclıq aksiyası zamanı huşumu da itirdim. Aclıq aksiyası keçirənlər aclığın nə olduğunu yaxşı bilirlər. Bu, çox çətin proses idi. Qərar vermişdim ki, haqsızlıq aradan götürülənə qədər davam edəcəyəm. Aclıq aksiyasına dekabrın 26-da başlamışdım. Dekabrın 30-da vəziyyətim pisləşib, huşumu itirmək üzrəydim. Həkimlər bildiriblər ki, aclıq aksiyasını dayandırmasam, sistem vasitəsilə yemək yedirdib, çəkib ictimaiyyətə göstərəcəyik. Proseslərdə irəliləyiş olduğu üçün sonradan mən yoqurt, süd də qəbul etdim. Bəziləri deyirlər ki, Mehman yemək də yeyib. Bu, doğru deyil. Prezidentə müraciətimə gəlincə isə hamı indi düşünür ki, Mehman bunu boynundan atacaq. Xeyr, açıq şəkildə deyirəm ki, müraciəti özüm yazıb və imzalamışam. Müraciətdə bildirmişəm ki, mən Əli Abdalovu vurmamışam. Bu, mənə qarşı haqsızlıqdır və aradan götürülməlidir. Mübarizənin sonunda saxta cinayət işinə xitam verildi". **M. Hüseynov bildirib ki, müraciətində qardaşı ilə bağlı qeyd olunanları özü yazıb:** "Başa düşmürdüm ki, şərləmə prosesi niyə baş verib. Əgər Emin Hüseynovun hərəkətlərinə görə məndən qısas alırlarsa, onun məsuliyyətini mən daşımıram. Biz bir-birimizi müdafiə edə bilərik, ancaq hərəkətlərimizə cavabdeh ola bilmərik".




**M.Hüseynov onunla görüşən hüquq müdafiəçiləri barəsində də danışıb:** "Onlar çıxıb bildiriblər ki, Mehmanin şəraiti yaxşıdır. Mənim tələbim o deyildi ki, həbsxanaya PlayStation gətirsinlər, kabab versinlər. Tələbim o idi ki, mənə qarşı olan haqsızlıq aradan götürülsün".

**O, Əli Abdalovla barışması barədə bunları deyib:** "Məsələ odur ki, Əli Abdalov çox kiçik fiqur idi. Həmin insan mənə qarşı şərəfsizlik edibsə, görün necə tərbiyə, mədəniyyət almışamsa, onu Azərbaycan xalqının övladı kimi dəyərləndirib, bağışladım. Düşündüm ki, onun da ailəsi var. Onun ailəsinin, valideynlərinin, balaca uşağının heç bir günahı yoxdur. Biz görüşəndə dedilər ki, gizli video çəkəcəyik. Mən dedim ki, bunu açıq edin. Camaat görsün ki, Mehman necə insandır ki, ona qarşı bu cür hərəkət edəni bağışladı. O adamla mənim heç bir problemim olmayıb".

❑ **Əli RAİS,**
**Fotolar: Elçin Əkbərov**

# Azərbaycanla bağlı çirkli pullar müzakirəsi AŞ PA-nın gündəliyindən çıxarıldı

## Səməd Seyidov: "Bunun AŞ PA-nın ikili standartlardan can qurtarmasına yardımçı olacağına ümid edirəm"

**Bəzi təşkilatlarda, eləcə də AŞ PA-da bir qrup insan anti-Azərbaycan mövqeyi tutaraq, qeyri-obyektiv münasibətləri ilə ölkəmizin imicinə xələl gətirmək istəyirlər. AŞ PA-nın hüquq məsələləri və insan hüquqları komitəsində çirkli pulların yuyulmasına dair mövzu gündəlikdə əks olunsa da, icraata qəbul edilməyib və yekdilliklə gündəlikdən çıxarılıb.**



AzərTAc bildirir ki, bu fikirləri AŞPA-nın komitə iclasında iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

**O bildirib ki, Azərbaycan nümayəndə heyətinin apardığı iş nəticəsində martın 4-də Parisdə AŞ PA-nın komitə iclasında yuxarıda adıçəkilən məsələ gündəlikdən çıxarılıb.** "AŞ PA-nın üzv ölkələrində problemlərin araşdırılması və onların həll olunmasında hər hansı bir ölkənin hədəf seçilməsi qəbulolunmazdır. Bütün məsələlər ümumi kontekstdə müzakirə edilməlidir", - deyə S.Seyidov diqqətə çatdırıb.

**Nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, AŞ-PA-nın əsas problemlərindən biri daxilində ikili standartları müəyyən edib aradan qaldırmaq istiqamətində səylər göstərməməsidir:** "Bu gün ölkəmizə qarşı bu qərəzli məruzənin gündəlikdən çıxarılmasının həm qlobal problemlərin həllinə, həm də AŞ PA-nın ikili standartlardan can qurtarmasına yardımçı olacağına ümid edirəm".

# Sədcədə vəcdə gələnlər...



**Samir SARI**

**Dünən dostlardan biri sosial şəbəkədə Stalinin əzəmətli büstünün önünə yığışaraq, 66-cı ölüm günündə onun xatirəsini ananların şəklini paylaşmışdı.**

Şəkildə ön planda 22-23 yaşlı bir qırxıqbaş gədə görünür, dizinin birini yerə atıb, başını asfalta dəyəcək qədər əyib, Stalinin büstünə səcdə edir.

Adam nəinki 70-90 il əvvəllər yaşayan, milyonlara rəhbərlik edən Stalini, heç tərifli sovet dövrünü də görməyib, hətta heç Qorbaçovun yumşaq hakimiyyəti illərində də yaşamayıb, amma 50-60 milyon insanı məhv edən müstəbidin qarşısında baş əyir.

Stalin dövrünün məşəqqətlərindən, iztirablarından bu qədər yazıblar, təkzibedilməz faktlarla dolu yüzlərlə kitablar, məqalələr var, bu oğlan onların heç birini oxumayıbmı?

Görünür ki, bu gəncin ya Stalin haqqında informasiyası sıfırdır, ya da o, hər şeyi bilir və deyir, lap yaxşı eləyib.

İkinci variantın olması ehtimalı böyükdür. Çünki indiki gənclər bir adam haqqında informasiya toplamaq üçün basa-basa kitabxanalara-filana getmir, saatlarla kartotekalarda eşələnmirlər, mobil telefonlarını götürür, displeydə klaviaturanı açır, axtarış verirlər. Tutaq ki, "STA" yazan kimi, Stalin haqqında beş-altı milyon mənbədən informasiya çıxır. İkisini oxusa, bəsidir.

Ona qalsa, dünyanın çox yerində Hitlerin manyaklığı, qaniçənliyi haqda hamı məlumatlıdır, amma ona rəğbət bəsləyən, onun da şəkilinin qabağında eynilə o cür, dizini yerə qoyaraq səcdə edən, vəcdə gələn var.

Dünya tarixində Çingiz xandan çox ölkə istila edən, adam öldürən, miylonları əsir edən, qadın zorlayan "fateh" olmayıb, amma onu da müqəddəs sayan milyonlarla adam var. Çindən Macarıstana qədər yüz minlərlə Çingiz adlı adam taparsan. Monqol gəncləri isə il on iki ay Çingiz xanın Monqolustandakı türbəsinin başına fırlanırlar.

Adam bu kimi mənzərələrə baxır və düşünür ki, heç nə yox, kaş zaman maşını olaydı və bu adamları arzu etdikləri, həsrətini çəkdikləri dövrə, sevdikləri rəhbərlərinin hakimiyyəti altına qaytarmaq mümkün olaydı.

Əmin edirəm ki, Stalinin büstünün qabağında ikiqat bükülən o qırxıbaş gədə məhz saçının o almansayağı düzümünə görə gecəylə evindən götürülər, it sürütməsi edilər, ertəsi gün onu dəri gödəkçəli müstəntiqin qabağında məhz o cür vəziyyətə salardılar - dizi yerdə, başıaşağı. Deyərdilər, sən mənfur Qərb gəncini təqlid edərək sovet gəncinin əxlaqını pozursan, satqın antipod... Və gənci basardılar Kolıma, Maqadana, Solovkiyə. Gedib orada konvoyların qabağında bu cür durardı. Adi oğrulan, quldurların daha hörmətli olduğu "zon"larda it gününə qoyulardı, maddəsini nəzərə alaraq "üzdəniraq"a çevirərdilər, onda ağlı başına gələrdi.

Bu, havayı söhbətlər deyil, 1920-ci ildən 1953-cü ilə qədər milyonlarla onun kimi heç nə üstündə tutulmuş gəncləri sınıq-salxaq eşelonlara doldurub Brestdən Xabarovska qədər, yol boyunca həbs düşərgələrinə paylaya-paylaya həftələrlə etap ediblər. Bu saat da tayqanın meşələrində torpağı bir metr qazanda eyzən insan sür-sümüyü çıxır.

Əlbəttə, 70-80 il insanların kütləvi şəkildə çəkdiyi əzab-əziyyəti saat yarımlıq filmlərdə izləmək çox asandır. Oturursan isti evdə, yumşaq divanda, çay, qəhvə içə-içə, ağzına popkorn ata-ata televizorda və ya kompüter monitorunda baxırsan, 1,5 saata bütün məşəqqətlər sona çatır. Bir də var, 25 yaşında həbs düşərgəsinə salınmış gənc oradan 50 yaşında çıxsın (o vaxt insanlara 25 illik cəzalar kəsmək çox yayğın olub). Gənclik bitib, həyat gedib, get, 3-4 əyyaşlıq elə, ölümə hazırlaş. On milyonlarla gəncin nəsibi bu olub.

Ona görə də hansısa təbliğata qapılan və bir müstəbidin abidəsi önündə baş əyən gənc görəndə adamın acığı tutur.

Bu baxımdan fransız gənclər daha ağıllıdır. Nə Napoleon Bonopartın abidəsi önündə əldən gedirlər, nə Şarl de Qolldan ötrü ağlaylb-sızlayırlar. Fransız gənclər anlayırlar ki, əgər Napoleon sağ olsaydı, yenə onları kütləvi şəkildə dəhmərləyib Rusiyanın qarlı çöllərinə aparar, orada qırdırıb geri qayıdardı.

Budur, fransızlar heç demokrat Makrona belə təhəmmül etmirlər, geriyə baxmırlar, yalnız irəli getmək istəyir, daha yaxşı yaşamağa çalışırlar, ona görə də sarı jiletlərini geyib tökülüşüblər meydanlara.

Rus gəncləri isə "dünyanın ən nəhəng ölkəsinin şanlı keçmişi"ndən yapışıblar, elə bilirlər, Stalinin, Xruşovun, Brejnevin dövründə dədə-babaları çox ağ gün görüb.

# Akademik köşə



Zamin HACI
zaminhaci@gmail.com

"Teatr bir millətin yüksəlişini və ya çöküşünü göstərən barometrdir"

*(Fransisko Lorka, məşhur şairin qardaşı)*

**Prezidentin mədəniyyət zəhmətkeşləri ilə görüşünün ilkin nəticələri, meyvələri yetişməkdədir. Örnək üçün, teatrlara 1 milyon 800 min pul ayrıldı, bundan hər birinə 200 min manat olmaqla 6 teatr, hər biri 100 min almaqla yenə 6 teatr (əyalətdəkilər) yararlanacaqdır. Əlbəttə, teatr və dövlət bütün dünyada qarşılıqlı əlaqəsi olan sahələrdir, tarixən belə olmuşdur, hətta Molyerin zamanında kral Lüdovik tamaşalara sponsorluq etməsinin əvəzində bəzi səhnələrdə rol almışdı. Xüsusən indiki elmi-texniki tərəqqi dövründə teatra dövlət qayğısı əslində vacibdir, çünki teatrı özbaşına, bazar iqtisadiyyatının ümidinə qoysan yaşaması çətindir. Yenə qeyd edirəm: bütün dünyada özü özünü maliyyələşdirən, anşlaq yığan, biletləri tapılmayan, nə bilim, iki-üç il qabaqcadan növbəyə yazılıb baxılan teatrlar çox azdır, bizim regionda deyəsən Gürcüstandakı bir-iki teatrı çıxmaqla (Robert Sturua və Rezo Qabriadzenin teatrları) heç yoxdur.**

Ancaq teatrların binaları təmir olunub gözəlləşdikcə, dövlət büdcəsindən yardımlar artdıqca və az qala bütün aktyorlar və aktrisalar təqaüd, fəxri ad, medalla ödülləndikcə səhnəmizin keyfiyyəti aşağı düşür. Fakt budur ki, indi bizdə anşlaq cəhənnəmə, heç bir sünnət toyunun kontingentini yığacaq qədər tamaşaçısı olan teatr, səhnə əsəri yoxdur. Özü özünə "korifey, azman, ustad", nə bilim, "görkəmli sənətkar" yarlıkı yapışdıran aktyorlar var, lakin xalqın sevib tamaşasına son qəpiyini verməyə hazır olduğu sənətkar yoxdur. 1980-ci illərin axırları, 1990-cı illərdə maddi imkanları bundan qat-qat aşağı olan teatr xadimlərimiz xalqın sevimlisi idilər, ortaya bənzərsiz əsərlər qoyurdular. Ad çəkmirəm, ancaq o dövrün teatr tamaşalarından sitatlar indiyədək dillərdə əzbərdir. Hacıbaba Bağırovun o dövrdəki unudulmaz personajlarından birindən sitat vermək istəyirsən: "Nöş belə oldu, Çibuş?" Bizim teatrlar, necə deyərlər, nə yedilər ki, bu kökə düşdülər?

"Azadlıq olmayanda sənət də iflasa uğrayır", yaxud "elə dövlət inhisarı üzündən mədəniyyətimiz çökmüşdür yazmaq istəməzdim". Bu, çox sadə izahat olardı. Mədəniyyət böhranımızın min dənə səbəbi var, kompleks yanaşmalıyıq. Dostumuz, iqtisadçı Natiq Cəfərlinin sevimli ritorikası ilə yazsam, bizimkisi sistem problemidir.

Bu arada iki teatra - Dövlət Musiqili Teatrı və Dövlət Rus Dram Teatrına da öz xahişləri ilə "akademik" adı verildi. Zəhmətkeşlərimiz bilmək istəyir bununla nə dəyişəcək? Bəlkə tamaşaların keyfiyyəti artacaq, yaxud salon dolub daşacaq? Yox. Ortada Akademik Milli Teatrın acı təcrübəsi var. Son illər bu teatr gündəmə tamaşaları ilə yox, səhnə arxası ilə daha çox gəlmişdir. Rejissor aktyoru söydü, aktyor xalq artistini döydü, nə bilim, daha nələr... Ümumiyyətlə, bu "akademik" nə deməkdir? Adına belə söz əlavə edildəndə teatr mexaniki şəkildə Platonun yaratdığı məktəb kimi bir zad olur yoxsa? Dünyada bu mənasız teatr yarlıkı keçmiş SSRİ-nin, bolşeviklərin "kəşfi" kimi qalmaqdadır və yalnız elə keçmiş SSRİ məkanında. Rusiyada, Tacikistanda, Azərbaycanda və bu kimi müttəfiq respublikalarda. Başqa heç yerdə yoxdur. Milli Elmlər Akademiyamızda çobanlar oturub nərd oynayır, akademik ali məktəblərimizdə tələbələr laqqırtı vurur, akademik teatrlarımızda da aktyorlar Keçəl, Kosa, Şaxta baba və Qar qız obrazları qayırıb millətin səviyyəsini artıracaqdır. Vəssalam, şüttəmam. Kor nə istər, iki göz. Şəmi var, Şöşü var, Nadir oxuyur, Zaur göstərir - daha uca millətə nə lazımdır? Bəsimizdir. Teatr yox idi, sabah açılmırdı? Özümüz gül kimi şəbeh çıxardırdıq - məhərrəmlikdə.

Özü də bunun kökünü Axundov o zaman yanlış qoyubdur. Təsəvvür elə, teatrı olmayan millət üçün pyes yazırsan. Nə qədər bekar adam olubdur. Özü də Tiflis kimi gözəl yerdə. A kişi, get çaxırdan iç, "matişkələrlə" əylən də bə.

Hərçənd deyilənə görə, o pyesləri də çar hökuməti sifariş veribmiş, yoxsa yazmazmış. Bax, görürsən, yenə dövlət siyasətidir...

# Qərb pul verməyəcək - İrəvan "iki daş" arasında

## Erməni baş nazirin Brüssel blefi, "dəvəquşu siyasəti"; Paşinyan avropalıların "saqqızını" oğurlaya bilmir; Nikol yenə Avropaya pul üçün yalvardı...



**Tehran səfəri fiasko olan, İranla ciddi heç bir anlaşmaya nail olmayan Nikol Paşinyan indi də Brüsseldə səfərdədir. Bu dəfə o, Avropaya Qarabağ nağılları danışır, Qərblə dostluq nəğmələri oxuyur, işğalçı ölkədə "vüsət alan islahatlar"dan, "demokratik Ermənistan"ın xristian Avropası üçün vazkeçilməz önəmindən dəm vuraraq, ondan pul qoparacağına ümid edir.**

Amma gələn xəbərlərdən hasil olan qənaət belədir ki, Nikol Paşinyan Avropadan yenə "əli ətəyindən uzun" qayıdacaq. Ona nə Qarabağ məsələsində gözlədiyi siyasi dəstək veriləcək, nə də avropalılardan umduğu maliyyə, pul. Səbəb təkdir: Paşinyan "iki stulda oturmaq" siyasəti aparır, istəyir ki, onun bir əlindən Rusiya, o birindən Qərb tutsun, biri silah, hərbi-təhlükəsizlik dəstəyi versin, digəri - Qərb isə maliyyə və siyasi köməyi göstərsin. Bu fonda da xristian dünyasının ərköyün "balası" Dağlıq Qarabağın ilhaqını rəsmiləşdirəcəyinə ümid bəsləyir.

Bunu Paşinyanın Brüsseldəki açıqlamaları, bir yanda Rusiya və İran, o biri yanda isə ABŞ-Avropa Birliyi cütlüyü olmaqla onların arasında manevr eləmək cəhdi bir daha sübut edir. Məsələn, Paşinyan Avropa Parlamentinin Xarici İşlər Komitəsinin iclasında çıxışı zamanı rəsmi Bakıdan giley-güzar edərək deyib ki, Azərbaycan Qarabağ konfliktinin həlli ilə bağlı danışıqlar çərçivəsində ümidləri doğrultmayıb.

"Qarabağa gəlincə, qeyd edim ki, konfliktin hərbi həlli ola bilməz. Biz gərək sülhlə həll üçün atmosfer yaradaq. Bizim hakimiyyət bunun üzərində çalışır. Sentyabrda mən bizim parlamentdə görünməmiş bəyanat səsləndirib dedim ki, istənilən qərar Dağlıq Qarabağın erməni əhalisi və Azərbaycan əhalisi üçün qəbul edilən olmalıdır", - deyə o bildirib. Paşinyan bu bəyanatından sonra Azərbaycan tərəfindən oxşar açıqlama gözlədiyini söyləyib: "Təəssüf ki, ümidlərim gerçəkləşmədi. Əksinə, biz Azərbaycandan konflikti Dağlıq Qarabağ əhalisinin maraqlarını nəzərə almadan hərbi yolla həll etməklə bağlı daimi təhdidlər eşidirik. Biz Azərbaycanı dialoq qurmağa məcbur etməliyik".

*****

Paşinyan əlbəttə ki, növbəti dəfə blef edib. Qarabağ danışıqlarındakı durğunluğa, artan müharibə riskinə görə haqsız yerə Azərbaycanı günahlandırıb. Halbuki Avropa Birliyi, ABŞ konfliktin nizamlanmasında ilk növbədə Paşinyan hökumətindən real addım gözləyir. Qərb rəsmiləri bir neçə dəfə bəyan ediblər ki, işğal altındakı ərazilərin heç olmasa, bir qismi boşaldılmayınca, yeni müharibə riski tam aradan qalxmayınca, Ermənistan qonşu Azərbaycan və Türkiyə ilə əlaqələri qaydaya salmayınca, problemin həllində irəliləyiş mümkün deyil. Demək, münaqişə zonasına, Ermənistana böyük investisiya yatırımlarını da gözləməyə dəyməz.

"Ermənistan rəhbərliyi Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın heç vaxt tam müstəqil olmayacağını anlamalıdır". Bunu isə Azərbaycan XİN-in sözçüsü Leyla Abdullayeva Paşinyanın Brüsseldə Qarabağ bəyanatına münasibət bildirərkən deyib.

"Demokratik yolla seçildiyini bəyan edən Ermənistan rəhbərliyi ən azından özü və xalqı qarşısında vicdanlı davranmalı və Azərbaycan ərazilərinin işğalından və əhalinin etnik təmizlənməsindən Ermənistanın və erməni xalqının nə qazandığı sualına cavab verməlidir. Bu çox sadə cavabı mən səsləndirməyəcəm, onu Ermənistan rəhbərliyindən eşitmək istərdim", - deyə o əlavə edib.

*****

**Ermənistanın yeni rəhbərliyi isə deyəsən, sələflərindən də güclü eyforiya içindədir və güman edir ki, onun "dəvəquşu siyasəti", Qarabağ və suverenlik nağılları bu dəfə Brüsseldə ciddiyə alınacaq. Misal üçün, "Yeni Müsavat"ın məlumatına görə, Paşinyan çıxışında deyib:** "Avropa Birliyi bizim qarşımızda geosiyasi oriyentasiya məsələsini qoymur. Şübhə yox ki, bizim Rusiya ilə əməkdaşlığımız çox mühümdür, nədən ki, strateji tərəfdaşlar olaraq qalırıq. Ermənistanın Rusiya və Avropa Birliyi ilə əlaqələrində ziddiyyət yoxdur və ola bilməz. Bu əlaqələr şəffafdır. Bunu da qeyd eləməyi vacib bilirəm ki, bizim AB ilə yaxınlaşmağımız Rusiyaya qarşı qəsdi nəzərdə tutmur, eyni qaydada Rusiya ilə əməkdaşlığımız AB-yə qarşı qəsd demək deyil. Energetika sahəsində biz əməkdaşlığı mühüm sayırıq və bu sahədə Rusiya və İranla əlaqələri inkişaf etdirmək əzmindəyik".

O da diqqətçəkicidir ki, Paşinyan Ermənistanın AB ilə imzaladığı assosiasiya sənədinin tələbinə zidd olaraq, qəza vəziyyətində olan Metsamor AES-i bağlamayacağını bildirib. Yəni faktiki, Brüsselin iradəsi əleyhinə gedərək, Rusiyaya daha bir reverans edib. Bu da anlaşılandır. Çünki "Moskvaya alternativ axtarışı İrəvana baha başa gələ bilər". Bunu iqtisadçı ekspert Natiq Cəfərli axar.az-a deyib.

**Yada salaq ki, Tehran səfəri zamanı Paşinyan İrandan qaz tədarükünü artırmağın mümkünlüyündən danışmışdı. N.Cəfərli isə hesab edir ki, Ermənistanın İranla qaz danışıqları Rusiyanın qazın qiyməti ilə bağlı kəskin artıma getməsinin qarşısını almaq məqsədi güdür. Ekspert sözügedən danışıqları Rusiyanın İrəvana satdığı qazın qiymətinin artırılmasına əks addım kimi qiymətləndirib:** "İranla qaz danışıqları İrəvanın alternativlərin mövcudluğu ilə bağlı Moskvaya mesajıdır və Rusiyanın qazın qiyməti ilə bağlı kəskin artıma getməsinin qarşısını almaq məqsədi daşıyır".

**İqtisadçı bildirib ki, rus qazının Ermənistan bazarından tamamilə kənarlaşdırılması indiki halda mümkünsüzdür:** "Rusiyanın əlində Ermənistana təzyiq etmək üçün böyük imkanları var. Çünki Rusiya təkcə Ermənistana qaz satmır, həm də qazpaylayıcı şirkətdə də böyük paya sahibdir. "Qazprom" Ermənistanda ən böyük payçılardan biridir. Ona görə də Rusiyanın təkcə ölkəyə yox, əhaliyə də qaz satmaq imkanları var. Bu mənada Rusiya nəinki Ermənistana təzyiqləri artıra, həm də qaz müqavilələri ilə bağlı İrəvanın reaksiyanı da neytrallaşdıra bilər. Moskvanın bundan hansı səviyyəyə qədər istifadə edəcəyini indidən söyləmək çətin olsa da, qaz məsələsi Rusiya ilə Ermənistan arasında kompleks danışıqların tərkib hissəsi kimi yenidən gündəmə gələcək".

*****

**Beləcə, Ermənistan, onun inqilabçı baş naziri Rusiya, İran və Qərb arasında vurnuxur. Faktiki, "iki daş" arasındadır. Paralel olaraq, o, daxildəki "islahatları" geridönməz eləmək üçün Qərbin maliyyəsinə ümid edir, onun "saqqızını" oğurlamağa çalışır.**

"Biz yeni iqtisadi fəaliyyət üçün meydan, mikrobiznes yaratmağa çalışırıq. Elə meydan ki, orada insanlar vergidən azad olacaqlar. Biz həmçinin investisiya mühitini yaxşılaşdırmaq üçün qanunverici düzəlişlərə hazırlaşırıq. Buna paralel infrastrukturları inkişaf etdirəcəyik. Bundan ötrü isə bizə Avropa Birliyinin texniki və maliyyə köməyi lazımdır". "Yeni Müsavat"ın məlumatına görə, bunu da Nikol Paşinyan Avropa Parlamentindəki çıxışı zamanı bildirib.

Ancaq belə bir kömək olmayacaq, gözlənilmir. Qərb (ABŞ və Avropa Birliyi) "məxməri inqilab"dan sonra da Rusiyanın ağuşunda qalmaqda, onun regionda yeganə hərbi qalası missiyasını can-başla yerinə yetirməkdə davam edən Ermənistana böyük sərmayələr verməyəcək. Verə bilməz. Bu, Qərbə inteqrasiyanın fəlsəfəsinə zidd olardı. Ən əsası, Qərbdə bunu dönə-dönə Paşinyanın özünə də anladıblar. O isə hələ də nağıllara inanır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Xalqlar sülhə necə hazırlanır - Azərbaycan və erməni müxalifətinin oxşar ittihamı

## Nəzakət Məmmədova: "Müharibənin nəticələri aradan qalxmamış sülhdən danışmaq mənasızdır"

**ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən səsləndirilən son bəyanatda xalqların sülhə hazırlanmasından söz açılması Azərbaycan və Ermənistanda gündəmin əsas mövzusuna çevrilib. Hər iki xalqın necə sülhə hazırlanacağı, bu planın tərkib hissəsinin nədən ibarət olduğu geniş suallar doğurub.**

Təsadüfi deyil ki, hər iki ölkənin müxalifəti bundan hakimiyyətə qarşı istifadə edirlər. Azərbaycan müxalifəti bununla iqtidarın Qarabağı güzəştə gedə biləcəyini deyir. Eyni ilə düşmən ölkədə hazırda müxalifətin həbsdəki sədri, sabiq prezident Robert Köçəryan rəqibi, baş nazir Nikol Paşinyanın Dağlıq Qarabağı Azərbaycana qaytarmaq istədiyini, lakin buna imkan verməyəcəyini deyir.

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a öncəliklə dünya praktikasında xalqları necə sülhə hazırlamaqla bağlı təcrübələrdən söz açdı: "Xalqları sülhə hazırlamaq dedikdə ağlımıza ilk gələn fikir odur ki, xalqların beynindəki düşmən obrazı silinməyə çalışılsın, ədavət aradan qaldırılsın, yenidən əvvəlki dövrlərdə olduğu kimi dinc yanaşı yaşamanın mümkünlüyü təlqin olunsun və s. Çünki 30 il davam edən münaqişə azərbaycanlılar və ermənilər arasında dərin ziddiyyətlər yaradıb, nifaq, ədavət yaradıb və onun aradan qaldırılması belə asanlıqla mümkün olmayacaq. Rusiya imperiyasının himayəsi ilə ermənilərin Qafqaza kütləvi köçürülməsi burada 1905, 1918-ci illərdə müsəlman qırğınına səbəb olmuşdu. Lakin ruslar iki xalq arasındakı düşmən obrazını unutdurdular. Sovet zamanı Azərbaycan-Ermənistan qardaşlığı təlqin olundu. Sual olunur ki, bəs bundan sonra necə olacaq?! Sovet vaxtı burada tək söz sahibi, ideologiyanı müəyyən edən ruslar idisə, indi prosesə çox oyunçular qoşulub. ABŞ, Avropa, İran və s. Oradakı erməni diasporası da qızışdırıcı rol oynayır. Belə mürəkkəb bir şəraitdə sülh baş tuta bilərmi, tutsa da bunun, nə qədər müddət davam edəcəyi sual altındadır. Fikrimcə, Azərbaycan xalqı bunu belə tezliklə qəbul etməz. Əvvəla, müharibənin nəticələri aradan qalxmamış sülhdən danışmaq mənasızdır. İnsanlar müharibənin ağrı-acısını hələ öz üzərlərində, gündəlik həyatlarında hiss edirsə, hansı sülhdən danışmaq olar? Səmərəli sülhdən o vaxt danışmaq olar ki, müharibə tam başa çatsın, təcavüzkar tərəf layiqli cəzasını alsın, hərbi canilər tribunalda mühakimə olunsun, əsir və girovlar bir nəfərə kimi azad edilsin, Ermənistan Azərbaycana dəymiş mənəvi zərərə görə üzr istəsin, maddi ziyana görə təzminat ödəsin və s. İşğalın bütün nəticələri aradan qaldırılsın. O zaman sülhə hazırlıqdan danışmaq olar. İndiki şəraitdə isə bu, mənasızdır. Ermənistan səhvini etiraf etməli, bir daha Azərbaycana qarşı ərazi iddiası irəli sürməyəcəyinə dair öhdəlik götürməlidir. Bütün müharibələr o zaman başa çatıb və sülh o zaman dayanıqlı olub ki, işğalçı layiqli cəzasını alsın. Sülhə hazırlama ATƏT-in Minsk Qrupundan gəlir. Onlar hamısı böyük müharibələr keçmiş ölkələrdir. Sual olunur, almanlar SSRİ ərazisini işğaldan azad etməmiş, SSRİ ilə Almaniya anlaşdımı ki, rus və alman xalqını sülhə hazırlayaq? Fransa işğal altında olan zaman fransızlarla almanlar xalqları sülhə hazırlayırdımı? Doğrudur, digər həmsədr ABŞ ərazisi coğrafi baxımdan əlçatan olmadığı üçün işğal oluna bilməmişdi, amma ABŞ da müharibədə iştirak edirdi. Nəticə nə oldu? Almaniya özü dörd işğal zonasına bölündü, daha sonra iki yerə parçalandı, bir daha müharibə etməmək öhdəliyi götürdü və s. İşğalçı cəzalanmasa, heç vaxt heç bir beynəlxalq təşkilat təcavüzə məruz qalan xalqın yaddaşından işğalçını silib, onun simasında dost obrazı yarada bilməz. Xatırlayırıq ki, Azərbaycan-Ermənistan düşmənçiliyini aradan qaldırmaq üçün bir neçə dəfə kommunikasiyaların bərpası, ticarət əlaqələrinin qurulması yolu ilə azərbaycanlılarla ermənilər arasında yaxınlaşma təklifləri səslənib, bunun üçün beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən işlər görülüb. Həm də təkcə Ermənistan və Azərbaycan arasında yox, Türkiyə və Ermənistan arasında da Qarsda ortaq mətbəx nümunələri və s. Yaxud "Sarı gəlin" mahnısının bölgə xalqlarının ortaq nəğməsi olması kimi cəfəng ideya təbliğ olunurdu. Etiraf edək ki, dörd bir tərəfimizdə milyonlarla azərbaycanlı olmasına baxmayaraq, biz lazımi dəstəyi görmürük. Nəinki görmürük, hətta sirr deyil ki, İranda yaşayan azərbaycanlılardan Qarabağda və Ermənistanda ticarətlə məşğul olanlar az deyil, Gürcüstan azərbaycanlıları uzun illər Sadaxlı bazarında ermənilərlə alver edirdi. Hətta Tomas de Val kitabında bunu xalqların sülhə yaxınlaşmasına ümid kimi göstərmişdi. Yaxud Xankəndində ermənilərin Azərbaycan musiqiləri dinləməsini.



Ərazisinin beşdə bir hissəsi işğalda olan, on minlərlə şəhid vermiş, qaçqın düşmüş xalq erməniləri özünə dost bilə bilərmi?!

Üstəlik, erməni xalqı, ümumiyyətlə, sülh barədə düşünmür. Sülh ikitərəfli, qarşılıqlı olmalıdır. Lap tutalım ki, biz sülh əlimizi uzatdıq, ermənilərin o əli tutacağına inanmaq sadəlövhlük olardı. Onlar fikirləşir ki, müharibə ilə alınan torpaq sülhlə qaytarıla bilməz. Bunu onların sosial şəbəkələrdə, mətbuatda olan yanaşmasından müşahidə edirik. Eyni zamanda rəy sorğuları, jurnalist araşdırmaları, sosioloji sorğular əksər ermənilərin sülh istəmədiyini qeyd edir. Hətta ABŞ-ın İrəvandakı keçmis səfirinin də təəccübü xatirimizdədir.

Xüsusi vurğulamaq istərdim ki, ədalətli sülh şərtləri olmasa, o müharibə bitmiş sayılmaz və yenidən alovlanması ehtimalı yüz faizdir. Heç sülh müqaviləsinin şərtləri belə açıqlanmadan, xalqları sülhə hazırlamadan söhbət gedirsə, sual ortaya çıxır: hansı sülhə?! Birdən-birə bir azərbaycanlı gecə yatıb, səhər yuxudan oyanıb deyə bilərmi ki, mən artıq sülhpərvərəm, müharibə istəmirəm, erməni bizim dostumuzdur?! Sülh, barış arzusu xalqın beynində təkamül yolu ilə formalaşmalıdır. İnsan gördüyünə inanır. İngilislərin bir atalar sözü var: görmək, inanmaqdır. Azərbaycanlılar görsə ki, ermənilər öz əməllərindən peşman olub, bəlkə o zaman sülh barədə düşünə bilərlər. Hətta bu halda belə bu, birdən-birə mümkün deyil, illər lazımdır. Sülhə hazırlanmalı olan bir xalq var, o da ermənilərdir. Torpaq iddiasını onlar irəli sürüb, müharibəyə başlayıblarsa, onlar da geri çəkilməli, sülh çağırışlarına məhəl qoymalıdırlar. Azərbaycan dövləti hər zaman sülh istəyib, burada müharibə ritorikası ilə çıxış edən Ermənistandır, öz xalqını da sülhə o hazırlamalıdır. Ən böyük məsuliyyət Ermənistanın üzərinə düşür".

**Politoloq müxalifətin hökumətə yönəlik ittihamlarına da toxundu:** "Doğrusu, hakimiyyətin Qarabağın Azərbaycandan qoparılıb Ermənistana verilməsinə razılıq verməsi inandırıcı deyil. İlham Əliyev bunu etsəydi, niyə bu qədər uzun illərdə danışıqlar aparır, beynəlxalq təzyiqlərə müqavimət göstərirdi? İstənilən hakimiyyət bunu etsə, xalqın etimadını itirə bilər. Qarabağ Azərbaycan xalqı üçün ölüm-qalım məsələsidir. Ona görə də hakimiyyətin bu məsələdə güzəştə gedəcəyinə inanmıram. Ehtimal ki, güzəşt Ermənistandan tələb olunur, lakin təkcə erməniləri sülhə hazırlamaq çağırışı səslənsə, bu, böyük səs-can ən böyük güzəşti edib Qarabağa ən yüksək muxtariyyət təklif edir, ondan böyük güzəşt təslimçilik, Qarabağın Ermənistana verilməsidir ki, nə Azərbaycan xalqı, nə ölkə hakimiyyəti heç vaxt bununla razılaşmaz. Müxalifət bu məsələyə münasibətini ehtimallar əsasında irəli sürür, çünki danışıqlar açıq getmir və ortada konkret fakt yoxdur. Ehtimal əsasında hakimiyyəti ittiham etmək, məncə, doğru deyil, əgər deyilsəydi Qarabağı güzəştə gedirik, o zaman bu narahatlıq başadüşülən olardı. Lakin indi fərziyyələr əsasında mülahizə yürütmək əsassızdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Vidadi İsgəndərlinin "Fransa üçün vuruşmağa hazır olmasına" müxalifətdən sərt reaksiya

## "Siyasi mübarizədə heç kəs, yaxud tərəf əxlaqa və qanuna zidd vasitələrdən istifadə etməməlidir"

**Fransada yaşayan Vidadi İsgəndərli videoçıxışında deyib ki, mən bu gün Fransa ordusunun əsgəri olub Fransanı qorumağa hazıram, amma sabah İlham Əliyev Qarabağ müharibəsi elan etsə, mən əlimdə avtomat Qarabağa yox, İlham Əliyevin üzərinə gedəcəyəm.**

Vidadi İsgəndərlinin bu fikirləri Azərbaycan cəmiyyətində narazılıqla qarşılanıb. Sosial şəbəkədə onu hətta vətən xaini adlandıranlar da var. Hakimiyyətə qarşı müxalifətdə olan siyasi qüvvələr belə, bildirirlər ki, Vidadi İsgəndərli hakimiyyəti özünə siyasi düşmən saysa belə, əldə silah torpaqlarımızı işğal edən milli düşmənə-erməniyə qarşı döyüşmək lazımdır, siyasi düşmən etdiyin qüvvəyə qarşı isə silahla mübarizə aparılmamalıdır, mübarizə sivil siyasi mübarizə olmalıdır.

**VİP sədri Əli Əliyev bu barədə "Yeni Müsavat"a bildirdi ki, Vidadi İsgəndərlinin mövqeyini bölüşmür, düzgün saymır:** "Onun fikirlərini şərh etmək istəmirəm. Hesab edirəm ki, siyasi mübarizədə heç kəs, yaxud tərəf əxlaqa və qanuna zidd vasitələrdən istifadə etməməlidir. Silah isə torpağımızı işğal edənlərə qarşı çevrilməlidir. Bu mənim mövqeyimdir".

**AĞ Partiyanın sədri Tural Abbaslı da bildirdi ki, Vidadi İsgəndərli və ya Avropadakı başqa hər hansı bir şəxsin fikirlərini geniş şərh etmək istəmir. Silahı millətimizə düşmən kəsilən işğalçı ermənilərə yönəltmək lazımdır:** "Vidadi İsgəndərli güman edirəm ki, nə dediyini bilir və dediklərinin yaratdığı mənəvi və hüquqi məsuliyyətdən xəbərdardır. Mənim bir siyasətçi, partiya rəhbəri və nəhayət, sadə vətəndaş kimi bu məsələdə mövqeyim birmənalı olaraq birdir. Bu da ondan ibarətdir ki, Qarabağ məsələsində mənim üçün heç bir partiya, iqtidar, müxalifət, siyasi, iqtisadi maraq yoxdur. Məncə, hər bir Azərbaycan vətəndaşı üçün də belə olmalıdır. Mənim üçün və AĞ Partiya üçün Qarabağın azadlığı uğrunda Azərbaycan xalqı və işğalçı düşmən var. Mən kimin hakimiyyətdə olmasından asılı olmayaraq əlində silah sıravi əsgər kimi torpaqlarımızın azadlığı uğrunda ölməyə və öldürməyə hazıram.



Bizim bugünkü iqtidara qarşı mübarizə metodumuz isə aydındır. Biz istənilən silahlı və qanundankənar metodlarla hakimiyyətə qarşı mübarizənin əleyhinəyik. Biz Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunları çərçivəsində öz müxalifçilik fəaliyyətimizi davam etdiririk və bu sona qədər də belə olacaq. AĞ Partiya hakimiyyət uğrunda sona qədər mübarizə aparacaq, ancaq bu o demək deyil ki, biz hakimiyyətə gəlmək üçün hər yolu məqbul hesab edirik. Bizim üçün ilk növbədə dövlətimizin və xalqımızın milli maraqları öndə gəlir. Zatən AĞ Partiya hakimiyyəti xalqa və millətə xidmət etmək üçün bir vasitə gördüyü üçün bu uğurda siyasi mübarizə aparır. Yoxsa ki, biz bəziləri kimi şəxsi maraqlarımız naminə mübarizə aparmamışıq və bundan sonra da aparmayacağıq".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc bildirdi ki, silahlı mübarizəni hər kəs torpaqlarımızı işğal edən Ermənistana, ermənilərə qarşı aparmalıdır. Çünki bu məsələ milli məsələdir:** "Xalq bütünlüklə, eləcə də hər bir fərd öz hakimiyyəti ilə birlikdə ərazisini işğal etmiş, 10 minlərlə övladını qətlə yetirmiş, 10 minləri şikəst etmiş, yüz minləri öz yurd-yuvasından didərgin salmış, malını-mülkünü talamış, yandırmış, dağıtmış, 20 faiz ərazisini işğal etmiş düşmənə qarşı döyüşməlidir. Bu müharibəni, döyüşü hakimiyyət komadası xalqla birlikdə aparmalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

# Qafqazın Tovuzdakı "Ayaks"ı geri dönür

## Vidadi Əhmədov: "Futbolla əlaqədar bütün inqilablar Tovuzda olub"

**Tovuzda futbol akademiyası yaradılacaq. Bununla bağlı AFFA İcraiyyə Komitəsinin martın 4-də keçirilən yığıncağında qərar qəbul edilib. Bu barədə mətbuata AFFA-nın baş katibi Elxan Məmmədov məlumat verib. O, may ayına qədər layihənin hazır ola biləcəyini vurğulayıb.**

*Yerli futbolçular yetişdirmək baxımından Qafqazın "Ayaks"ı adlandırılan Tovuzun "Turan" klubunun qurucusu, fəxri prezidenti Vidadi Əhmədovla Azərbaycan futbolu ilə bağlı bu və ya digər məsələləri dəyərləndirdik.*

***- Vidadi bəy, AFFA-nın bu qərarı ilə bağlı nə deyə bilərsiniz? Niyə məhz Tovuz?***

- Bu qərarı çox müsbət qiymətləndirirəm. Hesab edirəm ki, bu qərar Tovuz futbol məktəbinin və ümumilikdə Azərbaycan futbolunun inkişafına çox fayda verəcək. Yəqin ki, AFFA rəhbərliyi bunları düşünərək futbol akademiyasının Tovuzda yaradılmasına qərar verib. Tovuzda yüz illərlə futbol olub. Tovuz futbol ictimaiyyəti adından AFFA rəhbərliyinə bu qərarla əlaqədar öz dərin təşəkkürümü çatdırmaq istəyirəm.

***- Tovuz futbol məktəbi bundan sonra Azərbaycan futboluna nələr verəcək?***

- Bunu zaman göstərəcək. Düşünürəm ki, ciddi faydalar verə biləcəyik. Hazırda kənardan seyrçiyəm. Amma yeri gələndə Tovuzun futbolu ilə əlaqədar müxtəlif xahişləri ayrı-ayrı şəxslərə çatdırmışam, fikirlərimi söyləmişəm. Bəzi şəxslərin bu futbol məktəbinə cəlb olunmalarında, köməklik göstərmələrində əlimizdən gələni etmişik.

***- İki il öncə "Turan" Azərbaycan Premyer Liqasına geri döndü. Lakin maliyyə ucbatından əsas liqada oynaya bilmədi. Həmin vaxt klubu heçmi xilas etmək mümkün deyildi?***

- Yüksək liqada iştirak üçün müxtəlif tələblər lazımdır. "Turan" isə həmin ərəfədə o tələbləri yerinə yetirmək iqtidarında deyildi. Düşünürəm ki, AFFA həmin vaxt çox düzgün qərar qəbul edib, "Turan"ın əsas liqada iştirakını təmin etmədi. Çünki klub iştirak edib sonradan çıxışını davam etdirməyə də bilərdi. O zaman "Turan"ın gücü birinci liqaya yüksəlməyə yetdi. Əsas maliyyə səbəbindən iştirak edə bilmədik. Maliyyə olsaydı tələbləri yerinə yetirmək çətin olmazdı.

***- Tovuz futbol məktəbinin ənənələri barədə də oxucularımızı tanış edərdiniz...***

- Tovuzda futbol hələ Çar Rusiyası dövründə belə olub. Hər zaman Tovuz Azərbaycan futbolunda öndə gedib. Futbolla əlaqədar bütün inqilablar Tovuzda olub. Ötən əsrin 20-ci illərində başqa ölkədən hakim gəlib və burada oyun idarə edib. 40-50-ci illərdə "Neftçi"də Tovuzdan olan futbolçular da iştirak edib. Sonradan "Turan" klubu yaradıldı və Azərbaycanı ilk dəfə UEFA-da təmsil etdi. Ölkəmizdə ilk peşəkar klub da "Turan"dır. Çox sağ olsun ki, AFFA rəhbərliyi belə bir qərar qəbul edib. Tovuzda hər zaman futbol məktəbi olub, hər zaman futbolçu yetişdirilib. Hazırda maliyyə sıxıntısı olsa belə baxırsan ki, Tovuzdan futbolçular yetişir. Hazırda ölkənin bir sıra klublarında Tovuzdan olan oyunçular iştirak edirlər. Bu gün Avropada azərbaycanlı futbolçular yox dərəcəsindədir. İnşallah, bundan sonra Avropaya da qapılar açılar, Tovuzun yetirmələri xarici klublarda iştirak edərlər.



**"Müharibə vaxtı ən çox "Turan"ı onun üçün yaratdıq ki, insanlar rayonun yaşadığını görsünlər"**

***- Qafqazın "Ayaks"ı bundan sonra yerli futbolçulara, yoxsa legionerlərə üstünlük verəcək?***

- Əslində legionerlər lazımdır. Hələ mən "Turan"ın prezidenti olanda ilk dəfə xaricdən məşqçi, legioner gətirdik. Legionerlər elə olmalıdırlar ki, bizimkilərdən üstün olsunlar. Öz futbolçularımızın onlardan nələrsə öyrənmələri baxımından da bu vacibdir. Ona görə legionerlər də vacibdir. Amma hesab edirəm ki, legionerlər klubda 2 və ya 3-dən artıq olmamalıdır. Lakin o da bir reallıqdır ki, maliyyə yüksək olanda klub qarşısına daha çox hədəflər qoyur və bunu reallaşdırmaq üçün kluba futbolçular gətirir. Bu zaman yerli və ya xarici oyunçulara o qədər ciddi önəm vermir. Bu günləri "Turan"ın o maliyyəsi yoxdur ki, legionerlər gətirsin. Əsas liqaya qayıtdıqdan sonra bəlkə nələrsə ola bilər. Klub rəhbərliyindən çox şey asılıdır.

***- "Turan" əsas liqada oynamaq üçün rəsmi müraciət edib. Növbəti sezonda klubu Premyer Liqada görə biləcəyik?***

- Bunu zaman göstərəcək. Tələblər yerinə yetirilsə, düşünürəm ki, AFFA iştirakımızı təmin edə bilər. O tələbləri yerinə yetirə bilməsək, demək, hələ gözləməli olacağıq.

***- "Turan"ın tarixi barədə məlumat versəniz maraqlı olardı...***

- Klub 1992-ci ildə təsis olunub. O zaman müharibə gedirdi. Hər kəs Tovuzun müdafiəsi barədə düşünürdü. Bir rayonu ki, insanlar tərk etdilər, o rayon işğal təhlükəsi ilə üz-üzə qalır. Sona qədər rayonumuzu müdafiə etməyi qarşımıza məqsəd qoymuşduq. Müharibə vaxtı ən çox "Turan"ı onun üçün yaratdıq ki, insanlar rayonun yaşadığını görsünlər. Bu, sərhədlərimizin müdafiəsinə çox müsbət təsir göstərdi. "Turan" yarandığı illərdən yüksək yerlər uğrunda mübarizə aparıb. 1993-94-cü ildə ölkə çempionu olub. Həmin vaxt ölkəmizi ilk dəfə Avropada təmsil etdi.

***- Səhv etmirəmsə, "Turan" artıq 8 ildir əsas liqada mübarizə aparmır. Bu illər ərzində Azərbaycan futbolu və komanda nələr itirdi?***

- Uşaq futbolunun inkişafı klubun yüksək liqada iştirakına çox müsbət təsir edir. "Turan" klubu yarandığı zamandan onun nəzdində futbol məktəbi də var idi. Bunun kluba çox böyük təsiri var idi. Bildiyim qədəri ilə hazırda "Turan"ın futbol məktəbinin uşaqları çox zəif iştirak edirlər. Başqa klublar "Turan" futbol məktəbinin uşaqlarını aparırlar. Komanda güclülər dəstəsində oynayanda, azyaşlı futbolçu düşünür ki, gələcəkdə öz klubunda oynayacaq. Ona görə də kənara getmir. Amma bir halda görəndə ki, klub güclülər dəstəsində deyil, o zaman uşağın valideyni övladının gələcəyini düşünüb onu başqa kluba dəyişir.

***- Azərbaycan futbolunun bugünkü durumu barədə nə deyə bilərsiniz?***

- Hazırda Azərbaycan futbolundan tamam kənardayam. Amma eşitdiyim qədər uşaq futbol məktəblərinə ciddi önəm verilməyə başlanıb. Bunlar davam edərsə, gələcəkdə müəyyən müsbət nəticələr əldə etmək olar. 2007-ci ildən etibarən Azərbaycan futbolundan tamam kənardayam. Belə müsbət addımların atıldığını görəndə ümidlənməyə dəyər.

***- Azərbaycan milli komandası barədə nə deyə bilərsiniz?***

- Futbol komanda oyunudur. Millinin çıxışına hər bir amilin təsiri olur. Yığma komandada oyunçu yetişdirilmir, sadəcə olaraq taktiki göstərişlər verilir. Milli ilə əlaqədar nəsə fikirlər söyləmək mənim üçün çətindir. Amma oyunlara baxanda görürəm ki, futbolçularımız bəzi hallarda əzmkar oynayıb yaxşı təsir bağışlayırlar, bəzən də zəif çıxış edirlər. Bunun nə ilə əlaqədar olduğunu deyə bilmərəm. Yəqin ki, komandadaxili baş verənlər bu cür vəziyyət yaradır. Hesab edirəm ki, komanda bəzi hallarda gücündən çox aşağı səviyyədə çıxış edir. Mətbəxin içərisində olmadığım üçün futbolumuzda hansı problemlərin olduğunu deyə bilmərəm.

***- Əvvəllər klublarımızın maliyyəsi az idi, amma çempionatda sayca daha çox komanda çıxış edirdi. Lakin son zamanlar maliyyə yüksək olmasına baxmayaraq, əsas liqada iştirak edən klublar azdır. Səbəb nədir?***

- Maliyyə az olan vaxt klublar qarşısında bugünkü tələblər yox idi. UEFA tərəfindən ciddi tələblər qoyulub. Qoyulan tələbləri yerinə yetirmədikləri üçün klublar çempionatda azdır. Burada AFFA rəhbərliyini günahlandırmaq olmaz. AFFA istəyir ki, futbol daha da inkişaf etsin. Klublar tələbləri yerinə yetirə bilməyəndən sonra AFFA nə etsin?

***- 8 klubun mübarizə apardığı çempionat acınacaqlı deyilmi?***

- Elə ölkələr var ki, daxili çempionatları belə yoxdur. Lakin həmin ölkələrin milli komandaları olur. Elə dövlətlər də var ki, 1-2 klubları var. Belə ölkələrin millilərinin bəzən güclü çıxışlarının şahidi oluruq. Doğrudur, klubların sayının çoxluğu ancaq müsbət təsirlər edir. Təsəvvür edin ki, Azərbaycanda demək olar əksər klublar Bakıdadır. Meydanlara azarkeş axını yoxdur. Amma rayonlarda belə deyildi. Oyunlar olan zaman stadionlar daim dolu olurdu. Azarkeş 12-ci oyunçudur. Futbol kralı Pele deyib ki, futbolu 12 adam oynayır. Bakıda 12-ci oyunçu olmasa da, rayonlarda var. Çalışmaq lazımdır ki, rayonlarda komandalar olsun. Diqqətləri bölgələrə yönləndirmək lazımdır.

***- Təsəvvür edin ki, çempionatımızda iştirak edən 8 klubdan yalnız "Qəbələ" əyalət təmsilçisidir. Buna çempionat demək olarmı?***

- 8 komandanı yığıb Bakıya gətirmək nəyə lazımdır? Qəbələlilər məndən inciməsinlər. Hər bir ölkənin xüsusi bir ənənəsi var. Tarix boyu Qəbələdə demək olar futbol olmayıb. Futbol hər zaman Tovuzda, Gəncədə, Zaqatalada, Qubada, Lənkəranda, Mingəçevirdə olub. Qəbələdəki azarkeş axını bu rayonlardakı qədər ola bilməz.

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

## "Şəfiqə kimiləri özünə kabinet axtarır, Zeynəb isə..."

**Rasim Balayev:** "Mən də getsəydim, kinomuzun problemlərini dilə gətirəcəkdim"



**"Deyirlər ki, prezident İlham Əliyevlə görüşün siyahısını Mədəniyyət Nazirliyi hazırlayıb. Adımın siyahıda olmama səbəbini bilmirəm, bu haqda düşünmürəm. Heç kim mənə zəng edib, demədi ki, niyə dəvət olunmamışam?"**

Bu sözləri musavat.com saytına açıqlamasında xalq artisti Rasim Balayev deyib.

O bildirib ki, tədbirə dəvət olunsaydı, Azərbaycan kinosunun vəziyyəti barədə danışardı: "Dəvət olunsaydım, mənim də deyəcəyim sözlər vardı. Mehriban Zəkinin Allah canını sağ eləsin. Mənim ürəyimdəkiləri dedi. Mən də getsəydim, kinomuzun problemlərini dilə gətirəcəkdim.

Kimisi kino üçün çalışır, Şəfiqə kimilər də özünə kabinet axtarır. Şəfiqə Məmmədova deyir ki, Kino İttifaqının binası yoxdur. Ay Şəfiqə, birinci kino olmalıdır, sonra onun ittifaqına bina axtarılmalıdır.

Zeynəb Xanlarova da deyir ki, şikayət etməyin. Camaatın ildə bir dəfə prezidenti görüb, fikirlərini deməsi normaldır. Sənət adamlarının problemləri deyilməlidir".

## Məzahir Pənahovdan qəzəbli reaksiya: "Nə istəyirsiz, əl çəkin məndən"



**Ötən həftə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun sürücüsünün qayda pozması haqda xəbər yayılmışdı. Yayılan xəbərdə paytaxtın "Azadlıq" prospektində sürücünün yolun əks istiqaməti ilə hərəkət etməsini təsdiq edən görüntülər var.**

Həmin görüntülərlə bağlı qurumdan heç bir açıqlama verilməmişdi.

Bizimyol.info sürücüsünün qayda pozduğu görüntülərlə bağlı MSK rəhbəri Məzahir Pənahova zəng edib. Onun məsələ ilə bağlı sayta açıqlaması maraqlı olub. "Nə istəyirsiz siz məndən? Əl çəkin, mən bu barədə heç nə danışmayacam. Mətbuat şöbəsinə bildirmişəm, açıqlama versinlər. Hazırda uyğun yerdə deyiləm" - deyə MSK rəhbəri bildirib.

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

**Martın 5-də Milli Məclisin yaz sessiyasının növbəti iclası keçirildi. İclasın gündəliyinə 18 məsələ daxil edilmişdi.**



# Parlament ombudsmanın illik məruzəsini qəbul etdi

## Deputatlar Elmira Süleymanovanı xarici ölkələrdə söyüş söyənlərə qarşı mübarizəyə, təzyiqlərə məruz qalan jurnalistləri və Gürcüstan azərbaycanlılarını müdafiəyə çağırdılar

**Birinci vitse-spiker Ziyafət Əsgərov** gündəlikdəki məsələlərin təsdiqindən sonra ilk olaraq İnsan hüquqları üzrə müvəkkilin (Ombudsman) 2018-ci ilin illik məruzəsini təqdim etmək üçün sözü Elmira Süleymanovaya verdi. Xanım ombudsman bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edildiyi 2018-ci il tarixi əhəmiyyətli hadisələrlə zəngin olub: "Ən mühüm hadisə cənab İlham Əliyevin bir daha böyük səs çoxluğu ilə Azərbaycan prezidenti seçilməsi olmuşdur. Seçki günü əməkdaşlarımla birgə Bakı və ölkənin 53 şəhər və rayonunda 103 seçki dairəsində, məcburi köçkünlərin məskunlaşdığı qəsəbələrdə, o cümlədən Cocuq Mərcanlıda, hərbi hissələrdə, cəzaçəkmə müəssisələrində səsverməni müşahidə etmişik. Bu seçkilər yüksək fəallıqla, demokratik, azad, şəffaf, ədalətli, qanunvericiliyə və beynəlxalq standartlara uyğun nizam-intizamla keçirilmiş, ölkəmizin hüquqi, demokratik dövlət quruculuğu və milli dövlətçilik ənənələrinin möhkəmləndirilməsini, xalqımızın prezidentimizə yüksək etimadını və dəstəyini bir daha təsdiqləmişdir".

**E.Süleymanova uğurlarla yanaşı, nöqsanlardan da bəhs etdi:** "Mənzil hüququ ilə bağlı müraciətlərdə, əsasən, yerli icra hakimiyyəti orqanları tərəfindən fərdi mənzil tikintisi ilə bağlı süründürməçiliyə yol verilməsi, çoxmərtəbəli binalardan alınmış mənzillərin qeydiyyata alınmaması kimi hallar öz əksini tapmışdır". **Ombudsman dedi ki, tikintidə, xüsusilə çoxmərtəbəli binaların inşası zamanı istifadə edilən, xaricdən gətirilən materialların yararlığının yoxlanılması təmin edilməli, standartlara uyğun olmayan materiallar satışdan və istifadədən çıxarılmalı, müvafiq tədbirlər görülməlidir:** "Tikinti zonası ətrafında təhlükəsizliyin təmin olunmasına nəzarət də gücləndirilməlidir. Tikinti şirkətlərinin qanunsuz məskunlaşmaya yaratdığı şərait nəticəsində yüzlərlə mənzil sahibi müxtəlif problemlərlə üzləşirlər. Bu baxımdan, ölkə prezidentinin 2019-cu il 19 fevral tarixli fərmanı çoxmənzilli yaşayış binalarının istismarına icazə prosedurunun sadələşdirilməsi, sakinlərin sənədləşmə məsələlərinin həllində böyük əhəmiyyəti olmuşdur".

Müvəkkil bildirdi ki, yeni ildən bütün ölkədə icbari tibbi sığortanın tətbiqi əhali üçün geniş imkanlar yaradacaq.

**Təhsil hüququ ilə bağlı qeyd etdi ki, ehtiyaclar nəzərə alınmaqla tələbə yataqxanalarının bərpa və ya inşa edilməsinin, eyni zamanda belə yataqxanalarda məskunlaşmış məcburi köçkünlərin onlar üçün tikilmiş və ya başqa yeni mənzillərə köçürülməsinin sürətləndirilməsi zəruridir.** "İşçilərin ixtisarı zamanı pensiya yaşının çatmasına azı 10 il qalmış qadınların və 7 il qalmış kişilərin əmək müqaviləsinin ləğv edilməsinin qadağan olunması ilə bağlı Əmək Məcəlləsinin 79-cu maddəsinə müvafiq əlavənin edilməsi təklif olunur" - ombudsman əlavə etdi.

E.Süleymanova dedi ki, ötən il vətəndaşların haqlı narazılığını doğuran pozuntulara görə 14 hakimin fəaliyyəti qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilib, 4 məhkəmə sədri aşağı işə keçirilib, 6 hakim intizam məsuliyyətinə cəlb edilib, 2 nəfər tutduğu vəzifədən azad edilib, 1 nəfərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib. Məhkəmə qərarlarının icrasına gəlincə, borc, xüsusilə alimentin ödənilməsi ilə bağlı müraciətlər çoxluq təşkil edir.

2018-ci ildə fəaliyyətində kobud nöqsanlara yol verən 33 icra məmuru barəsində intizam tənbehi verilib. 2018-ci ildə aparılmış xidməti yoxlamaların nəticəsi üzrə müxtəlif nöqsan və çatışmazlıqlara yol verdiklərinə görə 31 prokurorluq işçisi, 399 daxili işlər orqanları əməkdaşı intizam məsuliyyətinə cəlb edilib.

Müvəkkil və onun Milli Preventiv Qrupu ölkə ərazisində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 240-dək müəssisəyə, o cümlədən müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, təhsil, səhiyyə, sosial, miqrasiya və dövlət uşaq müəssisələrinə əvvəlcədən xəbərdarlıq edilmədən ümumilikdə 343, o cümlədən plan üzrə 220, plandankənar 123 başçəkmə keçirib. Saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, qidalanma, tibbi xidmətin vəziyyəti öyrənilmiş, konfidensiallıq təmin olunmaqla ümumilikdə 3.114 saxlanılan şəxslə görüşlər keçirilmiş, müraciətlər yerində araşdırılmış, tədbirlər görülmüş, tövsiyələr verilmişdir. Araşdırmaların nəticələri ilə bağlı səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, mətbuata operativ açıqlamalar verilmiş, internet səhifəmizdə yerləşdirilib.

Ombudsman dedi ki, fəaliyyəti dövründə müntəzəm olaraq verdiyi çoxsaylı təkliflər əsasında ümumilikdə 638 şəxs, 2018-ci ildə isə 72 məhkum əfv edilib.

Milli Məclisin sədr müavini Bahar Muradova dedi ki, İnsan haqları komitəsində məruzə geniş müzakirə olunub. Vitse-spiker məruzənin yüksək səviyyədə hazırlandığını vurğuladı və deputatlara xitabən məruzəni qiymətləndirməyə çağırdı.

Deputat Tahir Kərimli Ağsu şəhərinin və Şamaxı şəhərinin qədim tarixinə və mədəniyyət abidələrinə, ənənələrinə diqqət çəkərək bu şəhərlərin ərazisini qoruq elan etməyə çağırdı. Daha sonra isə dedi ki, Qəbələ şəhərinin 2500 illiyi qeyd olunmalıdır, bunun üçün kifayət qədər faktlar var. T.Kərimli prezidentin ziyalılarla görüşdə səsləndirilən təklifləri dəstəkləməklə yanaşı, bəzi tarixi qəhrəmanlarımıza - Cavanşirə, İbrahimə, Hacı Çələbi və digərlərinə heykəllər qoymağa çağırdı.

**Komitə sədri Siyavuş Novruzov bildirdi ki, keçmişdə parlamentdə ombudsman qarşısında qaldırılan məsələlərin böyük əksəriyyəti prezidentin qərarları ilə həllini tapdı. Komitə sədri bu mənada şəhid ailələri ilə bağlı həllini tapan problemdən tutmuş, problemli kreditlərə kimi bir sıra həll olunmuş məsələləri xatırlatdı. Daha sonra S.Novruzov ombudsmana müraciət etdi:** "Cənab prezident bütün Azərbaycan xalqının hüquqları ilə bağlı addımlar atır. Həmçinin beynəlxalq səviyyədə Türk dünyası, İslam aləmi ilə bağlı fikirlərini ifadə edir. Ancaq bu gün xaricdə bir qrup insan var ki, nə qanuna baxır, nə dəyərlərə qiymət verir. Elmira xanımdan xahiş edərdim ki, həmin ölkələrin ombudsmanlarına müraciət etsin və bu məsələləri diqqətə çatdırsın. Azərbaycan prezidentinin hüquqları qanunla qorunduğu kimi, bu məsələyə ombudsman tərəfindən də diqqət göstərilməlidir və həmin ölkələrə müraciət edilməlidir".

**Deputat Fazil Mustafa** jurnalist Mətin Yaşaroğlunun işdən çıxarılmasından və Moskvada azərbaycanlıları müdafiə edən Fuad Abbasovun təzyiqlərə məruz qalmasından danışdı. O, ombudsmana müraciətlə ondan jurnalistlərin məsələlərini nəzarətə götürüb onları müdafiə etməyi xahiş etdi.

Daha sonra F.Mustafa vətəndaşların pozulan hüquqlarından danışdı. Bildirdi ki, insanların ən çox hüquqlarının pozulması xidmət sektoru ilə əlaqədardır. Çünki bu sektor bazar günü fəaliyyət göstərmir. Deputat xidmət sektorlarının bazar günü də fəaliyyət göstərməli olduğunu vurğuladı.

**Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov** da jurnalistlərlə bağlı məsələyə reaksiya verdi. Bildirdi ki, cəmiyyətdə adıçəkilən jurnalistlərlə bağlı təfsilatlı məsələ yoxdur. Ona görə də Ə.Amaşov ombudsmanı həmin jurnalistlərin məsələsini araşdırıb münasibət bildirməyə çağırdı.

**Deputat Qənirə Paşayeva** da ombudsmandan təzyiqlə üzləşən jurnalistlərin məsələsini nəzarətə götürməyi, Rusiya ombudsmanı ilə bu faktları müzakirə etməyi xahiş etdi.

Q.Paşayeva Gürcüstan azərbaycanlılarının problemləri ilə bağlı məsələləri Gürcüstan ombudsmanı ilə müzakirə etməyə çağırdı və deputat həmkarı Fərəc Quliyevin səsləndirdiyi təklifi dəstəklədi. Qeyd edək ki, F.Quliyev iclasda E.Süleymanovanı Gürcüstanın ombudsmanı ilə də əlaqə yaratmağa səslədi.

**Deputat Qüdrət Həsənquliyev Rusiyada saxlanılan, Azərbaycana xəyanət edən Fəxrəddin Abbasovun bu günlərdə həbs edilməsindən danışdı:** "Mən onun həbs olunmasında xidmətləri olan Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşlarına öz dərin minnətdarlığımı bildirirəm. Amma mən çox istərdim, elə xalqımız da istərdi ki, onun qolu qandallı və boynu əyilmiş şəkildə həbsxanaya aparılmasını görsün. Təəssüf ki, hələlik bu kadrlar ictimaiyyət üçün açılmayıb. Amma əminəm ki, o, Azərbaycan dövlətinə qarşı etdiyi xəyanətə görə layiqli cəzasını alacaq və bu, başqaları üçün dərs olacaq. Eyni zamanda son vaxtlar DTX tərəfindən Azərbaycan dövləti əleyhinə işləyən casus şəbəkəsi ifşa olundu, çoxlu sayda həbslər həyata keçirildi. Amma yenə də çox təəssüf ki, həmin casusluğa cəlb olunmuş şəxslərin hansı dövlətlərə işləməsi barədə ictimaiyyətə açıqlama verilmədi. Əlbəttə, məntiq onu deyir ki, Azərbaycan hökuməti qonşu dövlətlərlə münasibətlərin korlanmaması üçün bu adları açıqlamır. Amma dünya təcrübəsi göstərir ki, belə casuslar ifşa olunanda onların hansı dövlətə casusluq etdiyi barədə ictimaiyyətə məlumat verilir. Ki, həmin ölkənin vətəndaşları daha ehtiyatlı olsunlar, istər biznes münasibətləri quranda, istər şəxsi əlaqələr yaradanda".

**Q.Həsənquliyev Siyavuş Novruzovun fikirlərini dəstəklədi:** "Ombudsman xarici ölkələrdəki söyüş söyənlərlə bağlı həmin ölkələrin ombudsmanlarına müraciət edə bilər. Heç bir namuslu kişi söyüş söyməz. Çünki bilir ki, söyüşün on qat artığı ona qaytarılır. Beləbləri çox təəssüf ki, ləyaqətlərini satdıqları üçün başqa yolları yoxdur, belə əxlaqsız və ləyaqətsiz işlə məşğul olurlar".

Ombudsmanın hesabatı qəbul edildi və digər məsələlərin müzakirəsinə keçildi.

"Gənclər siyasəti haqqında" qanuna dəyişiklik layihəsini Gənclər komitəsinin sədri Ülvi Quliyev təqdim etdi. Qeyd edək ki, qanuna edilən dəyişikliklə gənclər təşkilatlarının üzvlərinə yaş məhdudiyyəti tətbiq edilib. Gənclər təşkilatlarının üzvlərinin həmin təşkilatlarda üzvlüyünə onların 35 yaşı tamam olduğu andan xitam verilir.

**Deputat Vahid Əhmədov çıxışı zamanı təklif etdi ki, gənclər təşkilatlarının üzvlərinin həmin təşkilatlarda üzvlüyünə onların 45 yaşı tamam olduğu andan xitam verilməlidir:** "Bununla əlaqədar müraciətlər çoxdur, sosial şəbəkələrdə də müzakirələr aparılıb".

Spiker Oqtay Əsədov isə V.Əhmədova cavab olaraq bildirdi ki, dünyanın hər yerində yaş həddi qoyulur: "Elə ölkələr var 28, elə ölkələr də var 35 yaş müəyyən edir".

**Müzakirələrdən sonra dəyişikliklər təsdiqləndi.**

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019




# Paşinyanın səfəri Güney Azərbaycanda milli hərəkatı oyadıb

## Azərbaycan telekanalları niyə güneyli soydaşlarımızın dəstəyini görməməzlikdən gəlir?

**Ötən həftə İrana səfər edən Ermənistanın baş naziri Nikol Paşinyanın Tehranda erməni diasporunun nümayəndələri ilə görüşü zamanı "Qarabağ Ermənistanındır" şüarının qaldırılması İranda yaşayan azərbaycanlıların narazılığına səbəb olub.**

Təbriz sakinləri "Ararat" klubunun ofisinin divarlarına "Qarabağ Azərbaycanın ayrılmaz parçasıdır" şüarını yazıblar. Bunun ardınca Təbrizin "Traktorsazi" futbol komandasının "Sepahan" komandası ilə oyunu zamanı azərbaycanlı azarkeşlər milli birlik sərgiləyiblər. Təbriz stadionunda 100 min nəfər "Qarabağ bizimdir, bizim olacaq" şüarı səsləndirməyə başlayıb. Daha sonra Təbriz ziyalıları isə İran xarici işlər nazirinə etiraz məktubu yazıblar.

Bir sıra siyasi analitiklər hesab edir ki, Nikol Paşinyanın ötən həftə İrana səfəri Güney Azərbaycandakı soydaşlarımızın hərəkətlənməsi, "Azərbaycan-Qarabağ" şüarlarının İranı bürüməsinə səbəb oldu. Bu baxımdan erməni baş nazirin səfərini dolayısı ilə bizim xeyrimizə işləyən səfər də adlandırmaq olarmı?

**Siyasi ekspert Əli Orucov bildirdi ki, erməni baş naziri Nikol Paşinyanın İrana səfəri və onun təxribat xarakterli addımlarından sonra Güneydə gedən prosesləri rəsmi Tehran da heç gözləmirdi:** "Yüksək rütbəli erməni rəsmilərinin İrana bundan əvvəl də işgüzar səfərləri olub. Lakin indiyədək Paşinyan kimi açıq-aşkar həyasızlıq edilməyib. Onun İrandan meydan oxuması güneyli soydaşlarımızın sərt təpkisini çəkməliydi və çəkdi də. 2006-cı ildən Güney Azərbaycan Milli Oyanış Hərəkatının növbəti dalğası başlayıb. Paşinyanın məlum səfərindən sonra bu dalğa yeni təkan götürüb. Bir qığılcım, bir bəhanə lazım idi ki, proses bütün Güney Azərbaycanı bürüsün. Paşinyanın da səfəri bu fürsəti verdi. Gördüyünüz kimi, Paşinyana deyil, etirazlar İran hakimiyyətinə yönəldi. Gedişat da onu göstərir ki, "Qarabağ Azərbaycanındır" şüarları yaxın zamanlarda istiqlal və azadlıq şüarları ilə əvəzlənə bilər. Güneydə milli oyanışın qarşısını almaq artıq İran rejimi üçün də çətinləşməkdədir. On illərlə aparılan diskriminasiya və assimliyasiya siyasəti, repressiyalar və təzyiqlər soydaşlarımızın milli ruhunu və əzmini öldürə, mübarizədən çəkindirə bilməyib. Bu gün Abbas Lisani kimi milli ictimai-siyasi fəallar həbsxanalarda çürüdülür, minlərlə soydaşımıza mənəvi-fiziki işgəncələr verilir. "Traxtursazi" futbol komandası güneyli soydaşlarımızın azadlıq və ilham simgəsinə çevrilib. Bu komandanın hər qarşılaşması bir aksiya, bir göstəridir. Paşinyan bilsəydi ki, onun təxribatları Güneydə böyük rezonans verəcək, belə etməzdi. Çünki Güneydə oyanış Ermənistanın məhvi deməkdir. Təəssüflər olsun ki, Azərbaycan telekanalları güneyli soydaşlarımızın son günlər nümayiş etdirdiyi qəhrəmanlığı görməməzlikdən gəlir. Bu da hakimiyyətin heç vaxt Güneyə bu və ya digər şəkildə dəstəyini ifadə etməməsindən irəli gəlir".

**Politoloq Məhəmməd Əsədullazadə isə qeyd etdi ki, İranın işğalçı Ermənistana dəstəyi Güney azərbaycanlıları narahat edir. Bu narahatlıq Qarabağ məsələsində şimallı-cənublu Azərbaycanın bir olmasını, azərbaycanlıların Təbrizdə böyük kütləvi etirazlarını ortaya çıxardı. Artıq Tehranda ciddi təşviş yaranıb. Rəsmi Tehran XİN səviyyəsində açıqlama verməyə məcbur oldu:** ""Traxtursazi" klubunun azarkeşlərinin mövqeyi, bunun İran azərbaycanlıları səviyyəsinə qalxması artıq Tehranın Ermənistanla əlaqələrində bundan sonra Azərbaycanla bağlı siyasətində ehtiyatlı davranmasına gətirəcək. Tehran rejimi gördü ki, Azərbaycan əleyhinə hər hansı bir demarş Cənubi Azərbaycanı ayağa qaldıra bilər. Artıq biz gördük ki, Təbriz də Qarabağ həsrətindədir. Cənubi Azərbaycanlılar ümummilli məsələdə bizimlə həmrəy oldular. Bu artıq milli oyanışdır və düşmənlərimizə xəbərdarlıqdır. İran hakimiyyəti Azərbaycanla siyasətində diqqətli olmalı, işğalçı Ermənistanla əlaqələrinə yenidən baxmalıdır. Hesab edirəm ki, xarici işlər naziri Elmar Məmmədyarov Təbrizdə yerləşən konsulluğumuza gedib, orada azərbaycanlılarla görüş keçirsə yaxşı olar.

**Təbrizdə və digər şəhərlərdə, xüsusilə "Traxtursazi" azarkeşlərinin Qarabağ şüarlarının, etirazlarının ölkəmizdə televiziyalarda verilməməsi isə Bakının Tehranla münasibətlərinə görədir:** "Əgər İran rəsmi səviyyədə ölkəmizə qarşı təxribatçılara imkan tanıyırsa, özəl televiziyalar niyə "Traxtursazi" azarkeşlərinin Qarabağ şüarını vermir?! Televiziyaların bu siyasəti kökündən yanlışdır. Müxtəlif səviyyələrdə sosial şəbəkə, internet saytları və çap mətbuatı ilə "Traxtursazi" azarkeşlərini dəstəklədik, həmrəyliyimizi qeyd etdik. Amma xalqın güzgüsü olan tv-lər bundan çəkindi. Televiziyalar ümummilli məsələlərdə mövqe ortaya qoymalıdır. Təəssüf ki, bayağı bir hala gələn televiziyalarımız məhz buna görə Azərbaycan tamaşaçısının marağında deyil. Nəzərə almaq lazımdır ki, Cənubi Azərbaycanda soydaşlarımız bizim yerli kanalları izləmək imkanına malikdir və izləyirlər. Ona görə də tv-lər diqqətli olmalıdır".

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Venesuelada müxalifət lideri ölkəyə qayıtdı

## Quaydo 6 avropalı səfirin "çətiri altında" meydana döndü; Tramp Maduronun məmurlarının vizasını ləğv etdi; **Elxan Şahinoğlu:** "Burada Rusiya və Amerikanın maraqları kəsişir, ordu müxalifətə keçsə..."

**Venesuelanın müxalifət lideri, ABŞ tərəfindən müvəqqəti prezident kimi tanınan Xuan Quaydo Karakasa qayıdıb. Qayıdışı barədə twitter-də məlumat yayan Quaydo immiqrasiya yoxlanışından keçdiyini yazıb.**

Latın Amerikası müttəfiqləri ilə görüşündən sonra Quaydo venesuelalıları onu dəstəkləməyə çağırıb.

O, Maduronun istefası üçün təzyiqləri artırmaq məqsədilə Latın Amerikası ölkələrinə səfərinin bir hissəsi olaraq şənbə günü Ekvadorda olub.

Keçən həftə Xuan Quaydo ABŞ-ın vitse-prezidenti Mayk Pens və digər regional liderlərlə görüşdükdən sonra Braziliya və Paraqvaya səfər edib.

"Infobae" portalının yazdığına görə, onu Fransa, Almaniya, Rumıniya, Niderland, Argentina və Braziliya səfirləri müşayiət ediblər.

Birləşmiş Ştatlar isə Venesuelaya təzyiqləri daha da artıraraq, yüksək səviyyəli altı rəsmiyə qarşı sanksiyalar tətbiq edib və onlarla yüksək səviyyəli Venesuela rəsmisinin vizalarını ləğv edib.

Tramp administrasiyası bildirib ki, sanksiyalar keçən həftə müxalifət tərəfindən dəstəklənən ərzaq yardımının gətirilməsi səylərinin qarşısını alan Venesuela hərbi rəsmilərinin hərəkətlərinə cavab olaraq tətbiq edilib.

Sərhəddəki bir məntəqədə yük maşınlarında yanğın baş verib və bir neçə insan həyatını itirib. Faktiki olaraq, ABŞ açıq şəkildə hazırkı prezident Nikolas Maduronu devirmək üçün bütün təzyiq rıçaqlarını səfərbər edib.



Quaydo da çevrilişə dəstək almaq üçün xarici və qonşu ölkələrə səfər etməkdədir. Yəni ortada iki qütb var - həm Maduro, həm Quaydo tərəfdarlarının kifayət qədər olması prosesi uzadır. Əks halda, hakimiyyət çoxdan devrilmişdi.

Maduro çəkinmədən meydana çıxır, tərəfdarları ilə rəqs edir, rəqibinin ölkəyə qayıdışına embarqo tətbiq eləmir.

Təsəvvür edin ki, rəqib lider ABŞ-dan Braziliyaya, Paraqvaydan Ekvadora qədər gəzib-dolaşır, açıq dəstək alır, sonra əlini-qolunu sallayıb vətəninə rahat şəkildə qayıdır, sərhəddə problemlə üzləşmir, ardınca tərəfdarlarının qarşısına çıxaraq etirazları davam etdirir.

Üstəlik, prezident parlamentin spikeri olan Quaydonu növbədənkənar parlament seçkiləri elan etməyə çağırıb. Amma müxalif lider seçkiyə getmir, iqtidar rəhbərinin istefasını tələb edir.

Odur ki, bəzi analitiklər Quyadonu Trampın "kukla namizədi" adlandırırlar. Buna baxmayaraq, Maduronun bundan sonra iqtidarda qalacağı ehtimalı azdır. Vaşinqton Venesuelada öz neft şirkətlərinin fəaliyyətini bərpa edənə qədər Maduronu sıxmağa davam edəcək.

Keçmiş prezident, martın 5-də vəfat edən Uqo Çavesin davamçısı olan Maduro ideyaca sosialistdir və ölkədən Qərbin enerji şirkətləri çıxarılıb.

Elə sanksiyalar və bəlalar da bundan sonra başlayıb. Əgər Maduro ABŞ-a qarşı bu siyasəti yürütməsəydi, indi Quaydo spiker kimi işini görəcəkdi.

Yeri gəlmişkən, yanacaq cəmi 6 həftəyə bəs edəcək, aprelin ortalarında yanacaq anbarları boşalacaq. Hazırda Venesuela sahillərində 500 milyon dollara olan 8.4 milyon barel neftlə yüklü 16 tanker dayanıb, ölkədə neft hasilatı gündə 1.49 milyon barelə qədərə azalıb.

Venesuelanın dövlət neft şirkəti sanksiyalara görə nefti sata bilmir, ölkənin özünün neft emalı zavodlarının gücü isə neftin hamısını emal etməyə bəs etmir. İki iri neftayırma zavodu fəaliyyətini dayandırıb.

Daha bir neftayırma zavodu - "Paraquana" isə 940 min barel istehsal gücünə malik olsa da cəmi 70 min barel yanacaq istehsal edə bilir.

Maduro problemi Hindistanın hesabına həll etməyə çalışır. Hindistan ABŞ-ın embarqolarından sonra Venesueladan neft almağa icazəsi olan yeganə ölkədir.

Bütün bu ağır şəraitə, başqılara baxmayaraq Maduro iqtidarının hələ də devrilməməsinin iki mühüm səbəbi var: xalq kütlələrindən dəstək ala bilməsi və ordunun tam müxalifət tərəfə keçməməsi.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Venesuelada çox maraqlı proses gedir:** "Oxşar hadisələr başqa dövlətlərdə də yaşanıb. Amma bu qədər uzanmayıb. Söhbət ondan gedir ki, Venesuelada başqa dövlətlərin maraqları toqquşur. Nəzərə alınmalıdır ki, Venesuela əsas neft alverçisidir. Rusiya və Amerikanın bu səbəbdən regionda maraqları kəsişir".

**Analitikin fikrincə, ABŞ Venesuelanı "arxa bağça"sı hesab edir:** "Əgər Amerika Maduronu Quaydo ilə əvəzləsə, yeni prezident Rusiya ilə müqavilələri donduracaq. Məhz ona görə Maduronu aradan qaldırmaq istəyir. Rusiya və Çin isə Maduronun dəstəkçisidir. İki qrup dövlət arasında mübarizə gedir. Amma getdikcə Maduronun şansları azalır. Orduda istefaların sayı artır. Əgər ordu müdaxilə etməsə belə, açıq şəkildə Maduronu dəstəkləmədiyini açıqlasa, artıq Quaydo qalib gələcək".

**❑ Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Erməni baş nazirin puç olan Qarabağ arzuları

## Nikol Paşinyanın sülhü deyil, müharibəni yaxınlaşdıran bəyanatlarının pərdəarxası; **Bakıdan reaksiya gecikmədi:** "Heç kim beynəlxalq prinsipləri güc yolu ilə poza bilməz..."



**ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçak dünən Bakıya gəlib. O, səfər çərçivəsində Azərbaycan prezidenti İlham Əliyevlə görüşüb. ATƏT sədri az öncə verdiyi müsahibədə Bakıda Azərbaycanla ATƏT-in əməkdaşlığının inkişafı, həmçinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələlərini müzakirə etmək niyyətində olduğunu bildirmişdi.**



ATƏT-in icraçı sədri onu da qeyd eləmişdi ki, problemin həlli yönündə müəyyən ümidlər yaransa da, "uzun müddət davam edən bu münaqişənin nizamlanması regional kontekstdə sabitlik, aktiv dialoq və cəmiyyətin irəliyə doğru addım atmağa hazır olmasını tələb edən çətin məsələdir".

*****

Məsələ də elə ərazisinin 20%-i işğala məruz qalan Azərbaycanla işğalçı Ermənistan arasında dialoqdadır. Söhbət ondan gedir ki, Ermənistanın təzə iqtidarı da belə bir dialoqa faktiki şəkildə Azərbaycanın tam və sözsüz kapitulyasiyası vasitəsi kimi baxır, nəinki beynəlxalq hüququn, BMT TŞ-nin Dağlıq Qarabağ dair 4 məlum qətnaməsinin icrası zərurətinin diktəsi kimi. Düşmən ölkədə sadəlövhcəsinə hesab edirlər ki, Azərbaycan Qarabağ müharibəsini uduzub və o, İrəvanın şərtlərini qəbul eləməlidir. Əsas şərt isə Dağlıq Qarabağa ya tam müstəqillik verilməsi ya da onun Ermənistana birləşdirilməsidir.

İrəvanın belə absurd, sülh danışıqlarını mənasız edib müharibəni tətikləyən mövqeyi işğalçı ölkənin baş naziri N.Paşinyanın İran səfəri zamanı özünü qabarıq şəkildə büruzə verdi. Paşinyan Tehranda erməni icması ilə görüşdə bəyan elədi ki, o, yalnız Ermənistanın adından danışa bilər, "Dağlıq Qarabağın isə öz hökuməti var".

Bu azmış kimi, o, konflikti nə vaxtsa güc yolu ilə həll etmək istəyən Azərbaycanı hədələməkdən də çəkinmədi. Görüşdə erməni dilində qaldırılan "Qarabağ Ermənistana məxsusdur və son" şüarı də düşmən tərəfin dinc danışıqlara münasibətini aydın şəkildə ortaya qoyur.

**Yeri gəlmişkən, həmin təxribatçı şüarla bağlı rəsmi Tehran özünü sığortalamağa çalışaraq bəyan edib ki, guya bundan xəbəri olmayıb. Politoloq Elxan Şahinoğlu isə bunu qətiyyən inandırıcı saymır:** "İranlı rəsmilər Nikol Paşinyanın Tehranda ermənilərlə görüşü zamanı asılan bayraqdan və şüardan xəbərləri olmadıqlarını bildirdilər. Onu da dedilər ki, həmin yazılar erməni dilində olub, nə yazıldığını guya bilməyiblər. Ancaq bunun təxribat mahiyyəti daşıdığını etiraf edirlər. Onda sual olunur: Niyə İran polisi Tehranda "Qarabağ Ermənistanındır" şüarını zalın mərkəzində asan təxribatçıları həbs etmir, Təbriz stadionundan çıxarkən "Qarabağ Azərbaycanındır" deyən 29 soydaşımızı həbs edir? Məgər Tehran Qarabağın Azərbaycanın bir parçası olduğunu qəbul etmir? Edirsə, o zaman nədən təxribatçı erməniləri yox, rəsmi Tehranın Azərbaycanın ərazi bütövlüyünü tanıdığına dəstək verən azərbaycanlıları həbs edir? Axı soydaşlarımız "Qarabağ Azərbaycanındır" deməklə rəsmi Tehranın siyasətinə tərs düşən heç nə deməyiblər".

Suallar təbii ki, ritorikdir. Çünki hamı bilir ki, işğalçı Ermənistan, xaricdəki ermənilər həm də İranın Dağlıq Qarabağ məsələsində məlum anti-Azərbaycan, antiislam mövqeyindən cəsarətlənərək belə həyasızlıqlar edirlər. Kəsəsi, ermənilər Qarabağ ixtilafı başlayandan onlar üçün "əsas nəfəslik" rolu oynayan fars rejiminə arxayındırlar. Paşinyanın Tehran çıxışı da ən əvvəl bu arxayınlıqdan qaynaqlanırdı...

*****

Öz havadarlarına arxalanan rəsmi İrəvanın Qarabağla bağlı maksimalist ritorikası azmış kimi, Ermənistan rəhbərliyi indi də sülh danışıqlarında heç bir irəliləyişin olmamasının günahını həyasızcasına Azərbaycanın üzərinə yıxmağa çalışır. Görünür, bununla o, öz mövqeyi ilə müharibəni qaçılmaz etdiyi barədə artıq dünyada formalaşmaqda olan rəyi dəyişməyə ümid edir.

"Azərbaycan tərəfi Qarabağ konfliktinin həlli ilə bağlı danışıqlar çərçivəsində ümidləri doğrultmadı". Bunu baş naziri Nikol Paşinyan Avropa Parlamentinin Xarici İşlər Komitəsinin iclasında çıxışı zamanı deyib (axar.az).

"Qarabağa gəlincə isə onu qeyd etmək vacibdir ki, konfliktin hərbi həlli ola bilməz. Biz gərək sülhlə həll üçün atmosfer yaradaq. Bizim hakimiyyət bunun üzərində çalışır. Sentyabrda mən bizim parlamentdə görünməmiş bəyanat səsləndirib dedim ki, istənilən qərar Dağlıq Qarabağın erməni əhalisi və Azərbaycan əhalisi üçün qəbul edilən olmalıdır", - deyə o bildirib.

**Paşinyan həmçinin bu bəyanatından sonra Azərbaycan tərəfindən oxşar açıqlama gözlədiyini söyləyib:** "Təəssüf edirəm ki, bu ümidlərim gerçəkləşmədi. Əksinə, biz Azərbaycandan konflikti Dağlıq Qarabağ əhalisinin maraqlarını nəzərə almadan hərbi yolla həll etməklə bağlı daimi təhdidlər eşidirik. Biz Azərbaycanı dialoq qurmağa məcbur etməliyik".

Beləcə, Paşinyan Qarabağ məsələsində sülh prosesini dalana dirəyən təzadlı yanaşmasını davam etdirir, "yaş dəsmalı ağrıyan başdan ağrımayan başa qoymağa" səy edir. Bir çox analitiklərə görə, bununla o, ən əvvəl vaxt udmağa və daxildəki siyasi, sosial-iqtisadi problemləri müəyyən qədər yoluna qoymağa çalışır.

Lakin Azərbaycan atəşkəs rejiminə uzun müddət dözüm göstərə bilməz. Bakı məhz buna görə Ermənistanda xunta rejiminin hakimiyyətdən devrilməsinə Dağlıq Qarabağ məsələsinin ədalətli həlli üçün unikal şans kimi baxırdı. Əfsuslar olsun ki, məhz Paşinyan iqtidarı bu ümidləri doğrultmur.

Söhbət həm də erməni xalqının köklü maraqlarından gedir. Çünki Dağlıq Qarabağ konflikti uzandıqca ilk növbədə ermənilərin iztirabları uzanacaq və çoxalacaq. Hələ ki öz xalqının ciddi mandatına sahib olan Nikol Paşinyan, onun komanda üzvləri bu barədə düşünmək, bu yöndə real addım atmaq və işğalçı ölkəni ağır blokadadan çıxarmaq üçün tədbirlər tökmək əvəzinə, Azərbaycana qarşı absurd tələblər irəli sürürlər. Bilə-bilə ki, Azərbaycan tərəfi heç vaxt bu tələbləri qəbul etməyəcək və... müharibə qaçılmaz olacaq.

*****

"Bizim hüquqi əsaslarımız var ki, məsələnin həllində iddialı olaq. 1993-cü ildə Nyu-Yorkdakı müzakirələrdə ermənilərin Azərbaycan torpaqlarından çıxması tələb olunurdu. Ancaq hazırda qarşı tərəf müxtəlif vasitələrdən istifadə edərək, əhalini həmin ərazilərə köçürür. 2000-dən çox qaçqın Suriyadan Ermənistana gəlib və onların bir qismi işğal altında olan Azərbaycan torpaqlarında yerləşdirilir. Bu, beynəlxalq hüquqa ziddir".

Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakı Biznes Mərkəzində keçirilən "Hərbi işğal altında olan ərazilərdə iqtisadi və digər fəaliyyətlərin qeyri-qanuniliyi, üçüncü tərəflərin öhdəlikləri və münaqişənin həllinə təsirləri"nə dair beynəlxalq konfransda deyib.

"Ermənistan Cenevrə konvensiyasına qoşulmasına baxmayaraq, şərtləri pozur. Biz işğal olunmuş ərazilərdə müxtəlif şirkətlərin fəaliyyət göstərdiyini aşkar etmişik. Biz siyahını da hazırlaya bilərik. Məşhur "Frenk Müller" saat şirkəti həmin ərazilərdə qeyri-qanuni fəaliyyət göstərir. Biz İsveçrə ilə bununla bağlı danışıqlar aparırıq. Bəzi hökumətlər deyir ki, özəl şirkətlərin fəaliyyətinə müdaxilə etmirik. Amma etməlidir, artıq bəzi şirkətlər orada fəaliyyətini dayandırıb. Burada öhdəlik hökumətlərin üzərinə düşür. Hökumətlər öz şirkətlərinə qeyri-qanuni fəaliyyət göstərməyə icazə verməməlidir. Bu məsələnin bir qismi məxfi şəkildə həll olunmalıdır. Düşünürəm ki, bu konfrans böyük əks-səda doğuracaq. Heç kim İkinci Dünya müharibəsindən sonra dünya dövlətləri tərəfindən qəbul olunmuş prinsipləri güc yolu ilə poza bilməz", - deyə nazir bildirib.

Bu bəyanatı, bütövlükdə Qarabağ konfransını Nikol Paşinyan və komandasının son günlər Qarabağla bağlı sərgilədikləri radikal və təxribatçı bəyanatlara cavab da saymaq olar.

Qeyd edək ki, Bakıda öz işinə başlayan beynəlxalq konfransda Elmar Məmmədyarov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, YUNESKO-nun Dünya İrs Mərkəzinin direktoru Metşild Rosler, eləcə də bir sıra xarici ekspertlər iştirak edirlər.

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

**Yaz fəslinin başlanması ilə kənd təsərrüfatında əkin işləri də start götürür. Ölkənin hər yerində bu ərəfədə xüsusi canlanma müşahidə olunur: əkin texnikasını sazlayan kim, əkin yerlərini şumlayan kim...**

# Yaz qapıda: nə əkərsən, onu da biçərsən...

## Aqrar istehsalçılar texnika və damazlıq heyvan almaq üçün dövlətin güzəştli kreditlərini 11 bankdan əldə edə bilər

Bu ərəfədə həm də Azərbaycanda hansı bitkilərin əkiləcəyi, nə qədər məhsul götürülməsinin planlaşdırıldığı maraq doğurur. Qeyd edək ki, ötən ilin aprelindən Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyinə yeni komanda gətirilib. Nazir İnam Kərimovun başçılıq etdiyi komanda qarşısına çox ambisiyalı vəzifələr qoyub. Bu, kənd təsərrüfatı istehsalının intensiv üsulla artırılmasına nail olunmasıdır. Komanda buna aqrar sektora elmi yanaşma, müasir texnologiya və metodlardan istifadə sayəsində nail olmağı nəzərdə tutur. Bu məqsədlə uzun illərdən bəridir Azərbaycanda ciddi problemlərdən birinə çevrilmiş kənd təsərrüfatında məhsuldarlıq məsələsinin həllinə yönəlik addımlar atılır. Eyni zamanda aqrar istehsalçılara dövlət dəstəyinin çatdırılması mexanizmində köklü dəyişiklik edilib, illər boyu korrupsiya və mənimsəmə mənbəyinə çevrilmiş "Aqrolizinq" ASC-nin əksər funksiyaları əlindən alınıb.



Belə ki, prezidentin ötən ilin dekabrın 19-da imzaladığı sərəncama əsasən, kənd təsərrüfatı texnikaları, texnoloji avadanlıqlar, suvarma sistemləri dəsti və avadanlıqları, damazlıq heyvanların aqrar istehsalçılara banklar, bank olmayan kredit və lizinq təşkilatları vasitəsilə verilməsinə başlanıb. Bu zaman texnikanın qiymətləndirmə nəticəsində müəyyən edilən satış dəyərinin 20 faizini ilkin ödəniş olaraq fermer, 40 faizini isə subsidiya (güzəşt) şəklində Aqrar Kredit və İnkişaf Agentliyi ödəyir. Qiymətin qalan hissəsi bankda maksimum 5 il müddətinə kredit şəklində rəsmiləşdirilir. Kredit faizlərini isə fermer deyil, dövlət ödəyir

"Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərmanın tətbiqi ilə əlaqədar texnika satışında subsidiyalar bütün təchizatçı şirkətlərdən alınan kənd təsərrüfatı texnikasına şamil olunur. Fevralın 15-dən etibarən artıq fermerlər müvafiq texnikanı güzəştli qiymətlərlə təkcə "Aqrolizinq"dən deyil, bütün təchizatçı şirkətlərdən ala bilirlər.

Kənd Təsərrüfatı Nazirliyindən "Yeni Müsavat"a verilən məlumata görə, bu şirkətlərlə bağlı bir sıra tələblər müəyyənləşdirilib. Onların satdıqları texnikaya xidmət göstərə biləcək servis nöqtələri və texniki xidmət şəbəkəsi olmalı, ehtiyat hissələrinin mövcudluğunu və satışını təmin etməli; alıcıları istehsal olunduğu tarixdən 2 ildən artıq müddət keçməmiş texnika ilə təmin edə bilməli; zəmanət müddətində avadanlıq və ya texnikanın təmirini və ya onlara texniki qulluğu həyata keçirmək üçün zəruri imkanlara malik olmalıdılar. Damazlıq heyvan təqdim edən təchizatçılar isə heyvanların qidalanma və saxlanma şəraitini həmin cins (növ) heyvan üçün zəruri olan formada təmin etməli; müvafiq cinsdən (növdən) heyvanın xəstəlikləri, habelə qidalanması üzrə ixtisaslaşmış zootexnik, baytar və mütəxəssislərə malik olmalı və ya əməkdaşlıq etməlidilər.

Texnika və damazlıq heyvan almaq üçün dövlətin güzəştli kreditlərini aqrar istehsalçılar 11 bankdan əldə edə bilərlər. Bunlar Access Bank ASC, Azərbaycan Beynəlxalq Bankı ASC, BTB Bank ASC, Express Bank ASC, Günay Bank ASC, Kapital Bank ASC, Muğan Bank ASC, NBC Bank ASC, Paşa Bank ASC, Rabitə Bank ASC, Turan Bank ASC-dir.

Bundan əlavə, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması və satışı üzrə layihələrdə; regionların aqrar inkişafı ilə bağlı innovativ layihələrdə; heyvandarlıq təsərrüfatlarının inkişafı sahəsində layihələrdə yeni yaradılmış Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə etmək olar. Hər bir müvəkkil kredit təşkilatı üçün müəyyən edilən kredit həcmi 5 milyon manat olacaq. Bu qaydalar nəticəsində daha istehsalçı dövlət orqanlarının qapısını gəzməyərək, rəsmi qaydada banka müraciət edir, 15 gün ərzində ona kredit və ya güzəştin verilməsi ilə bağlı rəsmi ya "hə", ya da "yox" cavabı verilməlidir. Bəyənilən layihələr növbəti 15 gün ərzində agentliklə razılaşdırılaraq maliyyələşdiriləcək:

- 5 000 manatadək - mikrokreditlər (2 ilədək);
- 5 001 manatdan 30 000 manatadək - kiçikhəcmli kreditlər (3 ilədək);
- 30 001 manatdan 100 000 manatadək - ortahəcmli kreditlər (3 ilədək);
- 100 001 manatdan 200 000 manatadək - irihəcmli kreditlər (5ilədək);
- 1 000 000 manatədək - kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün kreditlər (5 ilədək);

Kreditlər üzrə güzəşt müddəti aşağıdakı kimi müəyyən edilir:

- mikrokreditlər üçün - 12 ayadək;
- kiçik və ortahəcmli kreditlər üçün - 18 ayadək;
- irihəcmli kreditlər üçün - 24 ayadək.

Kredit müddəti güzəştli şərtlərlə alınan damazlıq heyvanlar üçün 3 il, digər kənd təsərrüfatı istehsal vasitələri üçün 5 ildir. Vəsait müvəkkil kredit təşkilatlarına illik 2 faiz tətbiq etməklə verilir, bank isə 7 faizlə istehsalçılara verir.

Bu ilin əkin planlarına gəlincə, nazirlikdən verilən məlumata görə, cari ildə 680 min hektar sahədə buğda əkilməsi və 2 milyon 140 min ton məhsul əldə olunması gözlənilir. Hər hektardan gözlənilən orta məhsuldarlığın 31,5 sentner təşkil etməsi gözlənilir.

Bu il həmçinin 334 min 100 hektar ərazidə arpa əkilərək 935 min ton məhsul və 28 sent / ha məhsuldarlığa nail olunması planlaşdırılır. 4900 hektar sahədə çəltik əkərək, 16 400 ton məhsul və 33,5 sent/ha məhsuldarlıq, 4 min hektar sahədə tütün əkərək 7400 ton məhsul, 9500 hektar sahədən 350 min ton şəkər çuğunduru, 60 min hektar sahədə 970 min ton kartof istehsalına nail olunması planlaşdırılır.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Biznes kreditlərinin kompensasiya olunması ədalətli yanaşmadır

## Eksperlər əsas diqqətin mikro və orta sahibkarlığa yönəldilməsini təklif edirlər

**Azərbaycan hökuməti fiziki şəxslərdən sonra devalvasiya nəticəsində zərərlə üzləşmiş hüquqi şəxslərə də dəstək mexanizmi hazırlayır. Bu barədə maliyyə naziri Samir Şərifov bu günlərdə mərkəzi televiziyaya müzahibəsi zamanı məlumat verib. Maliyyə nazirinin dediyindən aydın olub ki, hökumət hüquqi şəxslərin ödənilməyən borcları ilə bağlı da iş aparır: "Bəzi şirkətlər banklara olan borclarını vaxtında qaytarmırlar, ödənişlərdə çətinlik çəkirlər. Bu da istər-istəməz bankların fəaliyyətinə mənfi təsir göstərir. Dövlət qurumları bununla bağlı da işləyir. Prezidentin tapşırığı var. Bank sektorunun sağlamlaşdırılması ilə bağlı növbəti proqram hazırlanır, onun maliyyə tutumu müəyyən edilir, yəqin ki, yaxın zamanlarda bu proqram təqdim ediləcək".**



Onu da qeyd edək ki, bir çox ekspertlər problemli kreditlərin əsas hissəsinin fiziki şəxslərə deyil, məhz hüquqi şəxslərə məxsus olduğunu bildirirlər. Son illərdə kredit götürənlərlə bağlı statistikada müəyyən məhdudiyyətlər tətbiq olunduğu üçün bu gün Azərbaycanda nə qədər sahibkarlıq subyektinin problemli kreditinin olduğunu söyləmək mümkün deyil. Mərkəzləşdirilmiş Kredit Reyestri Xidmətinin 2015-ci il mayın 1-də yaydığı məlumatdan aydın olur ki, o zaman üçün ölkədə kredit təşkilatlarına borcu olan 2 milyon 414 min 122 nəfərin 2 milyon 381 min 592 nəfəri fiziki şəxs olub. Ondan sonra Reyestrin açıqladığı məlumatlarda kredit götürənlər arasında hüquqi və fiziki şəxslərin sayına dair bölgü əksini tapmayıb. Reyestrin kredit götürənlərin sayına dair son məlumatı 2016-cı ilin fevral ayının yekunlarını əks etdirir. Həmin məlumata görə, Azərbaycanda 2 milyon 555 min 645 nəfər borcalan qeydə alınıb.

**İqtisadçı-ekspert Samir Əliyevin fikrincə, devalvasiyadan zərərçəkən tərəflərdən biri də hüquqi şəxslərdir:** "Bu baxımdan, onların da üzləşdiyi zərərin heç olmasa bir qisminin kompensasiya olunması ədalətli yanaşmadır. Sadəcə, düşünürəm ki, hüquqi şəxslərin hamısının deyil, mikro, kiçik və orta sahibkarların mənafeyi önə çəkilməlidir. İri holdinqlərin borclarının dövlət büdcəsi hesabına kompensasiya olunmasına gedilməməlidir".

**S.Əliyev hesab edir ki, hüquqi şəxslərlə bağlı qərar verilərkən kompensasiya olunacaq məbləğ artırılmalıdır:** "Kredit qalığının azı 50 faizinin artan məzənnə xərcləri kompensasiya edilməlidir".

**İqtisadçı-ekspert Rəşad Həsənov da hesab edir ki, hüquqi şəxslərin devalvasiya nəticəsində üzləşdiyi maliyyə itkisinin qaytarılması düzgün addım olacaq:** "Əlbəttə, hüquqi şəxslər də devalvasiya qərarından təsirlənən qruplardandır. Bir gecədə onların maliyyə yükü kəskin şəkildə artıb. Bu baxımdan, onların zərərinin qarşılanması mütərəqqi bir addım olar. Nəzərə almaq lazımdır ki, hər hansı bir qərar hazırlayarkən mikro, kiçik və orta sahibkarlıq diqqət önünə gətirilməlidir. Onlar üçün dəymiş zərərin kompensasiyası, yaxud qismən ödənilməsi mexanizmi hazırlanmalıdır. Sonrakı mərhələdə isə iri sahibkarlıq subyektlərinin də devalvasiya nəticəsində üzləşdiyi zərərin qarşılanması məsələsinə baxılmalıdır. Burada differensial mexanizm tətbiq edilə bilər. Məsələn, bir hüquqi subyektə dəyən zərərin müəyyən faizinin - tutalım ki, 50 faizinin, yaxud 70 faizinin ödənməsi nəzərdə tutula bilər. Digər yanaşma, sahibkarlıq subyektlərinin bölgüsünə uyğun tətbiq oluna bilər. Məsələn, mikrosahibkarlıq subyektlərinin zərərinin 80 faizinin, orta sahibkara dəyən zərərin 70 faizinin, iri sahibkaların isə zərərin 40 faizinin ödənməsi mexanizmi tətbiq oluna bilər".

**Ekspert deyir ki, hüquqi şəxslərin devalvasiya nəticəsində dəyən zərərinin kompensasiya edilməsi bütövlükdə ölkə iqtisadiyyatında aktivliyi artıra biləcək addım ola bilər:** "Bu gün ölkədə maliyyə mənbələrinə çıxış çox məhduddur. Biz əgər iqtisadiyyatın diversifikasiya olunmasından, qeyri-neft iqtisadiyyatının inkişafından, dayanıqlı iqtisadiyyatın formalaşdırılmasından danışırıqsa, iqtisadiyyatın maliyyə resursları ilə təminatına, maliyyə mənbələrinin genişlənməsinə də diqqət yetirməliyik. O cümlədən biznesin maliyyəyə çıxış imkanlarının artırılmasına nail olmalıyıq. Mərkəzi Bankın qərarından yaranan zərərin ödənməsi müasir texnologiyaların, innovasiyaların tətbiqinə, dövriyyənin genişləndirilməsinə, bütövlükdə iqtisadiyyatda aktivliyin tətiklənməsinə gətirib çıxara bilər".

**R.Həsənovun fikrincə, fiziki şəxslərlə bağlı mexanizmdə də təkmilləşmə aparılmalıdır:** "Belə etmək olar ki, hər bir kredit götürənin 10 min dollara qədər olan kredit məbləği üzrə zərər kompensasiya olunsun. Bu, daha ədalətli bir yanaşma olar, hər kəs dövlətin dəstəyindən yararlana bilər".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

## Elan

**Abdullayev Əbdürəhman Musa oğlunun adına olan Xəzər rayonu Zirə bağ massivində yerləşən 64 T saylı texniki pasport (çıxarış) itdiyi üçün etibarsız sayılır.**

***

**Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Bayramov Nicat Aydın oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**Martın 31-də Türkiyədə bələdiyyə seçkiləri keçiriləcək. Hazırda seçki kampaniyasının ən qızğın dövrüdür və Türkiyə prezidenti (Konstitusiya dəyişikliyindən sonra artıq Türkiyə prezidenti həm də partiya sədri ola bilir - K.R.) də daxil olmaqla bütün siyasi qüvvələr seçki yarışındadır.**



# İstanbulun 31 mart "fəthi": qalib kim olacaq...

## Hasan Oktay: "AKP İstanbulda məğlub olarsa..."

Builki bələdiyyə seçkilərinin Türkiyə üçün daha bir önəmi ondan ibarətdir ki, bu seçkilər 2023-cü ilə, yəni Türkiyədə Respublikasının 100 illiyinə qədər keçiriləcək son seçkilərdir. Məhz bu səbəbdən hakim AKP 31 mart bələdiyyə seçkilərində xüsusən də iri şəhərlərə "ağır toplarını" göndərib. Və təbii ki, əsas yarış ölkənin meqakəndi hesab olunan İstanbul uğrunda olacaq.

Çünki İstanbul Türkiyə iqtisadiyyatının əsas hissəsinin cəmləşdiyi, böyük əhali kütləsinin yerləşdiyi mühüm turizm və maliyyə mərkəzidir. Bu mənada İstanbulda qələbə bütün siyasi qüvvələr üçün mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən də siyasi qüvvələr İstanbula ən şanslı nümayəndələrini göndərib.

Xatırladaq ki, AKP və MHP-nin birləşdiyi "Cumhur İttifaqı" koalisiyası tanınmış siyasi xadim Binali Yıldırımın namizədliyini irəli sürüb. Ana müxalifət partiyası CHP isə İstanbul bələdiyyə sədrliyinə nisbətən gənc və uğurlu karyerası olan, xüsusən də İstanbulda güclü olan mühafizəkar camiəyə yaxın şəxs hesab olunan Əkrəm İmamoğlunun namizədliyini irəli sürüb. Onun namizədliyini həm də müxalifətdə olan İYİ Partiya da dəstəkləyir.

**"Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin sədri, politoloq Hasan Oktay deyir ki, İstanbul AKP üçün mühüm əhəmiyyət kəsb edir, bir mənada hakimiyyəti qoruyub saxlamaq üçün əsas vasitədir. Bu səbəbdən də bu şəhərə hakim partiya ikinci əsas fiqurunu göndərib:** "AKP iqtidara İstanbul bələdiyyəsini qazandıqdan sonra gəlib. Yeni prezident Ərdoğan İstanbulun dəyərini bilir. Əgər AKP İstanbulda məğlub olarsa, o zaman hakimiyyəti də təftiş olunacaq. Digər tərəfdən, bu seçkilər, sadəcə, parlament seçkiləri deyil, eyni zamanda parlament idarəçilik sistemi də səsverməyə qoyulacaq. Dövlət Baxçalının "iqtidar 50 faizdən az səs qazanarsa, prezident üsul-idarəsi təftiş olunacaq" deməsi, bələdiyyə seçkilərini xüsusi olaraq önəmli hala gətirdi".

**H.Oktay istisna etmir ki, əgər hazırkı hakim partiya İstanbul və Ankarada bələdiyyə sədri postunu itirərsə, o zaman növbədənkənar parlament seçkilərinə gedilə bilər:** "Bu səbəbdən də Rəcəb Tayyib Ərdoğan İstanbula ikinci adamını göndərdi. Bununla yanaşı, özü də Türkiyənin bütün regionlarında mitinqlər keçirərək xalqı partiyasına səs verməyə çağırır".

Qeyd edək ki, AKP-nin İstanbul bələdiyyəsi sədrliyinə namizədi Binali Yıldırım 1955-ci il dekabrın 20-də Türkiyənin Ərzincan vilayətinin Refahiyə rayonunda anadan olub. İstanbul Texnik Universiteti Gəmi İnşaatı və Dəniz Elmləri Fakültəsində təhsil alıb. Daha sonra eyni ixtisas üzrə magistr dərəcəsi alıb. İngilis və fransız dillərini bilir. Türkiyə Gəmiçilik Sənayesi Baş İdarəsində çalışıb. İstanbul Bələdiyyəsi Dəniz Nəqliyyatı idarəsinə rəhbərlik edib. Türkiyənin AKP dövründə 58, 59 və 60-cı hökumətləri zamanında nəqliyyat naziri, daha sonra isə nəqliyyat, dənizçilik və rabitə naziri olub. 2016-cı ilin mayında Əhməd Davudoğlunun istefa verməsindən sonra baş nazir və AKP sədri seçilib. Binali Yıldırım həm də Türkiyə tarixinə sonuncu baş nazir kimi düşüb. 2017-ci ildə keçirilən referendumdan sonra Türkiyədə dövlət idarəçiliyi sistemi dəyişib və bununla da baş nazir postu ləğv olunub. Ötən il isə Binali Yıldırım Türkiyə parlamentinin sədri seçilib. Binali Yıldırım Semiha Yıldırım ilə evlidir, Əhməd, Büşra və Erkan adlı 3 övladı var.

31 mart seçkilərində müxalif CHP və İYİ Partiyanın namizədi Əkrəm İmamoğlu 1970-ci ildə Trabzonda dünyaya gəlib. İstanbul Universitetinin menecment ixtisası üzrə təhsil alıb. 1992-ci ildə əmək fəaliyyətinə ailəsinə məxsus şirkətdə inşaat mühəndisi kimi başlayıb. Tezliklə şirkətin rəhbərliyinə gətirilib.

İmamoğlu ənənəvi CHP elektoratından deyil, sağ mühafizəkar cinahdandır. Yeri gəlmişkən, Türkiyənin hazırkı prezidenti və hakimiyyətdə təmsil olunan bir sıra şəxslər məhz İmamoğlunun mənsub olduğu Qara dəniz bölgəsindədir. İmamoğlu siyasi fəaliyyətə Turqut Özalın Ana Vətən Partiyasında başlayıb. Ailəsi dindar mühafizəkar olsa da, İmamoğlu universitet illərində sosial-demokrat camiəyə yaxınlaşıb. 2008-ci ildə isə aktiv siyasətə gələndə CHP-ni seçib. 2009-cu ildə Beylikdüzü bələdiyyəsinə namizədliyini versə də, partiyadan namizədliyi qəbul olunmayıb. Ancaq bir neçə ay sonra CHP-nin Beylikdüzü təşkilatına sədr seçilir. 2014-cü il seçkilərində bələdiyyə seçkilərində Beylükdüzündən namizədi olub və 50,83 faiz səslə bələdiyyə sədri seçilib. Hazırda İmamoğlu Beylikdüzü bələdiyyəsinin sədridir. Ailəlidir, 3 övladı var.

Qeyd etmək lazımdır ki, hər iki namizəd kifayət qədər şanslı hesab olunur. Aydın məsələdir ki, hazırda Türkiyədə hakimiyyətin parlament və prezident seçkilərinin qalibi olan AKP iqtidarı İstanbul üçün əlindən gələni etməyə çalışır. Ancaq müxalifətin də namizədi o qədər zəif deyil.

Ərkəm İmamoğlu gənc olsa da, Beylükdüzündə bələdiyyə sədri kimi 5 illik təcrübəsi və iş nümunəsi var. Daha bir mühüm məqam İmamoğlunun ənənəvi CHP sol elektoratı deyil, Türkiyədə indi daha populyar olan sağ mühafizəkar, dindar kəsimdən olmasıdır. Yəni İmamoğlu CHP-nin ənənəvi elektoratı ilə yanaşı Qara dəniz bölgəsinin və İstanbulda çox güclü olan dindar mühafizəkar kəsimin səsini də qazana bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Netanyahu Azərbaycana "Əfqanıstan" dedi, ara qarışdı

## İsrailin baş naziri səhvinə izah verdi



**İsrailin baş naziri Benyamin Netanyahu ötən əsrin 80-ci illərinin əvvəllərində SSRİ rəhbəri Leonid Brejnevin Azərbaycanın adı ilə bağlı buraxdığı səhvi təkrarlayıb, Azərbaycan əvəzinə "Əfqanıstan" deyib.**

Virtualaz.org İsrail KİV-lərinə istinadən xəbər verir ki, ötən gün martın 4-də baş nazir Netanyahu başçılıq etdiyi "Likud" Partiyası üzrə tərəfdaşları qarşısında seçkiqabağı çıxışı zamanı hökumətə rəhbərlik etdiyi dövrdə İsrailin əldə etdiyi diplomatik uğurlardan danışıb. Və səfər etdiyi bir sıra ölkələrin və paytaxtların adlarını sıralayıb.

"Mən Pekində, Tokioda, Rio-de-Janeyroda və Nyu-Dehlidə dünya liderləri görüşəndə, Çadda, Omanda, Əfqanıstanda, Qazaxıstanda, Avstraliyada və Sinqapurda səfərdə olanda...Sizləri və bütün İsrail vətəndaşlarını təmsil etməkdən qürur duyuram"-Netanyahu deyib.

Lakin Netanyahunun Əfqanıstanın adını çəkməsi təəccübə səbəb olub, çünki İsraillə Əfqanıstan arasında diplomatik münasibətlər yoxdur. Və Netanyahu səhvə yol verdiyinin fərqinə varmayıb, Əfqanıstanın adını səhvən, yaxud bilərəkdən çəkdiyini dəqiqləşdirməyib.

Nəticədə bəzi informasiya agentlikləri dərhal Netanyahunun Əfqanıstanın adını çəkməklə dramatik məlumatı açıqladığını, ola bilsin bu ölkəyə məxfi səfər etdiyini yazıblar.

Netanyahu bundan əvvəl də ərəb və müsəlman dünyası ilə münasibətlər qurması barədə fəxrlə danışıb, Omana və Çada səfərlərini misal gətirib. Ancaq İsrailin qətiyyən populyar olmadığı Əfqanıstana səfər əsl fantastika olardı.

Və daha sonra məsələnin yanlış olduğu təsdiqlənib. Çıxışını yekunlaşdıran baş nazir twitter- izah edib: "Mən bayaq Azərbaycanı nəzərdə tuturdum, amma kim bilir? Ola bilsin növbəti müddətdə Əfqanıstana da səfər edə bildim".

Netanyahu birinci dəfə deyil ki, siyasi coğrafiya ilə bağlı səhvə yol verir. Ötən ilin dekabrında o, xanımının Nikaraquada dövlət səfərində olduğunu demişdi, əslində isə Netanyahunun xanımı Qvatemalada idi.



# Trampa impiçment təhlükəsi

## Ağ Ev rəhbərinin siyasət və biznes sahəsindəki fəaliyyətinin araşdırılmasına qərar verildi

**ABŞ Nümayəndələr Palatasında çoxluqda olan demokratlar ölkə prezidenti Donald Trampın impiçmenti yolunda ilk addımı atıb.**

CNN telekanalının bununla bağlı hazırladığı süjetdə aşağı palatanın məhkəmə işləri üzrə komitəsinin sədri Cerald Nadlerin Ağ Ev başçısının siyasət və biznes sahəsindəki fəaliyyətinin genişmiqyaslı araşdırılmasına başlanılması barədə sözlərinə diqqət çəkilib.

Bununla da demokratların uzunmüddətli, lakin məqsədyönlü şəkildə Trampın impiçmenti proseduruna start verdiyi vurğulanıb.

Qeyd olunur ki, Cerald Nadler əsas işi administrasiya tərəfindən ədalətin gerçəkləşməsinə mane olmaq cəhdlərinə, Donald Trampla intim əlaqədə olduğu iddia edilən 2 yüngül əxlaqlı qadına pul ödənilməsinə, ən əsası da 2016-cı il seçkilərində onun Rusiya ilə potensial əlbir olması məsələsinə, nəhayət, ABŞ konstitusiyasının mükafatlandırma ilə bağlı müddəalarının pozulmasına yönəldəcək.

CNN-in xəbərində təşəbbüsün məhz C. Nadler tərəfindən gəlməsi təsadüf hesab olunmayıb. Çünki impiçment barədə prosedur məhz Nadlerin rəhbərlik etdiyi məhkəmə komitəsindən keçməlidir.

Ağ Ev isə Demokrat Partiyasının Konqresdə prezidentə qarşı yeni araşdırmaya başlamasını "rəzalət" və "rüsvayçılıq" adlandırıb.

❑ **Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 52 (7222) 6 mart 2019



## Mismarlı yeşiklə türmədən qaçmaq istədi

**Amerikanın Nyu York ştatındakı Obern şəhərində ömürlük həbs cəzası almış məhkum qaçış planı barədə danışıb. Bu, haqda, Associated Press xəbər verib. Qordon Mauer adlı məhbus deyib ki, türmədəki mebel sexində o qədər də böyük olmayan taxta yeşikdə gizlənməyi planlaşdırıb. O, ümid edib ki, yeşiklərə nəzarət edən işçi onun içərisində nə olduğuna fikir vermədən onu maşına yükləyəcək və son nəticədə o da həbsdən qurtulmuş olacaq.**

Mauer qoruyucu eynək və maska tapandan sonra dostları ilə birgə qaçış planını hazırlayıb. Dediyinə görə, içi mismar dolu yeşikdə 50 dəfəyə yaxın gizlənməyə cəhd edib. Hərdən yeşik bu ağırlığa dayana bilmədiyindən qırılıb və məhbus da zədə alıb. Buna baxmayaraq, türmə işçiləri bu cəhdi fərq etməyiblər. Məhbus özü də türmə işçilərinin bu cəhdlərdən xəbər tutmamasına təəccüblənib və yaxalandıqdan sonra bunu açıq şəkildə deyib. Qaçış məhbuslardan birinin Mauerin planları barədə türmə rəhbərliyinə xəbər verməsindən sonra pozulub.

# Bu implant gözləri əvəzləyir

**ABŞ-ın Minnesota Universitetinin alimləri ilk dəfə olaraq, gözün üçölçülü strukturunun əldə edilməsinə nail olublar. "Trend"in məlumatına görə, struktur torlu qişanın işini təqlid edir və implantatla birlikdə işləyir - beyinə təsvir haqqında siqnalları ötürən torlu qişa hüceyrələri üçün görülən təsvir elektrik impulslarına çevrilir.**



Qeyd olunur ki, alimlər yarımkürə əsasla işləməyə başlayıblar. Onu üçölçülü printerdən istifadə edərək, tərkibində gümüş zərrəcikləri olan mürəkkəblərlə örtüblər. Onların üzərində yarımkeçirici polimer materiallardan yaradılmış və işığı elektrikə çevirən fotodiodlar yerləşdirilib. Bu metoddan istifadə etdikdə bütün strukturun çap olunması prosesinə təxminən 1 saat sərf olunur.

Gələcəkdə alimlər ötürülən informasiyanın keyfiyyətini yüksəltmək üçün işıq reseptorlarının sayını artırmağı planlaşdırırlar.

# Ürək gerçəkdən qırılır - elm sübut etdi



**Ürəyin birdən zəifləməsi və funksiyasını icra etməməsi mənasına gələn qırıq ürək sindromu bir yaxının itirilməsi anlamına gəlir. Bu, stresli və emosional bir vəziyyətin ardınca baş verir. Bu problemin niyə ortaya çıxdığı bilinmir. Amma "European Heart Journal"da yer alan araşdırmada beynin stressə verdiyi reaksiyanın rol oynadığı qeyd edilir.**

Bu narahatlığı yaşayan insanların ürəklərinin, eyni adı daşıyan bir yapon qabına bənzəyən şəkillərinə itħafən 'Takotsubo sindromu" adı verilən sınıq ürək sindromu yaşanan bir şokla ortaya çıxa bilir. Tıxanan ürək damarlarına görə yaranan infarktdan fərqli, təkcə nəfəs darlığı və ürək ağrısı daxil bənzər əlamətləri var. Tez-tez yaşanan üzücü bir hadisə onu tətikləyir, ancaq evlilik, yeni bir iş kimi böyük, həyəcanverici hadisələr də buna səbəb ola bilir.

Ürək əzələsinin günlər, həftələr, ya da aylar içində düzənləməsi ilə keçici ola bilir. Amma bəzilərində bu, ölümə yol aça bilir.

Bu, İngiltərədə hər il 2.500-ə yaxın insana təsir edir. Narahatlığa tam olaraq nəyin yol açdığı bilinmir. Amma mütəxəssislər buna adrenalin kimi stress altındaykən ifraz olunan hormonlardakı artımın səbəb ola biləcəyini istisna etmir. Zürix Universiteti Xəstəxanasından həkim Jelena Kadri sınıq ürək sindromundan təsirlənən 15 xəstənin beyinlərində nələr yaşandığını incələyib. Beyin araşdırmalarında nəzarət qrupu olan 39 sağlam xəstə ilə müqayisədə xeyli fərqlər üzə çıxıb. Beynin hissləri və ürək atışı kimi şüursuz və ya avtomatik bədən reaksiyalarına nəzarət edən hissələr arasında daha az əlaqə olduğu müəyyənləşdi.

Beynin bu hissələri stresə verdiyimiz reaksiyaya da nəzarət edən hissələrdəndir. Xəstəliyin necə yarandığını müəyyən etmək üçün xeyli araşdırma lazımdır. Qırıq ürək sindromu xəstələrinin xəstəlik başlamadan öncəki beyin araşdırmaları olmadığından, beyin bölgələri arasında azalan əlaqənin xəstəliyə yol açıb-açmadığı sözün böyük mənasında müəyyənləşdirilə bilmir.




**QOÇ - İmkan daxilində çalışın ki, təşəbbüskarlıq başqalarında olsun. Çünki bu gün istənilən riskiniz iflasa uğraya bilər. Daxili gücünüzü ənənəvi vəzifələrinizin icrasına yönəldin.**

**BUĞA - Ağlınız kəsməyən və ya keçmişi qaranlıq olan istənilən şəxslə işbirliyi qurmaqdan çəkinin, ağır fəsadları ola bilər. Əgər planınızda olsa, uzaq səfərə çıxın ki, daxili rahatlığınız bərpa olunsun.**

**ƏKİZLƏR - Maraqlı insanlarla rastlaşacağınızdan xəbər verən Göy qübbəsi bu təqvimdən razı qalacağınızı bəyan edir. Əgər daxili orqanlarınızı qoruya bilsəniz, hər hansı fəsad olmayacaq.**

**XƏRÇƏNG - Qarşınızda unikal bir tarix dayanıb. Demək olar ki, bütün proseslərdən mənfəət götürəcəksiniz, əlbəttə, əgər bütün planlarınız ədalət prinsiplərinə söykənərsə. Dilinizi duasız etməyin.**

**ŞİR - Ümumi gedişat maraqlı bir təqvim yaşayacağınızı bəyan edir. Hər şeyə yenidən başlayın. Əgər üç dəfədən çox cəhd etdiyiniz işlər boşa çıxırsa, onlardan imtina edin. Səfərə çıxa bilərsiniz.**

**QIZ - Boş dayanmağa lüzum yoxdur. Hər fürsətdən yararlanın: istirahət və əyləncələri arxa plana salın. Ola bilsin ki, axşama doğru sevincinizi artıran fəaliyyət sürprizləri yaşayasınız.**

**TƏRƏZİ - Kosmik fon uğursuz olduğu üçün bir çox məsələlərə ehtiyatla yanaşmalısınız. Maliyyə sahəsində isə bütün növ planlarınızı dondurmağınız məsləhətdir. Yalandan keçən işlərdən yayının.**

**ƏQRƏB - Səhər saatlarında müəyyən problemlərdən keçəcəksiniz. Təmkininizi qorumaqla bu gərginliyi minimal itki ilə başa vura bilərsiniz. Günün qalan vaxtı müsbət çalarlı olacaq.**

**OXATAN - Təxminən saat 15-ə qədər nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Hansısa problemin yaranacağını düşünməyin. Sonrakı müddətdə isə diqqətli olmalısınız.**

**OĞLAQ - Astronomik quruluşun o qədər də qənaətbəxş olmaması köhnə münaqişələri təzələməyinizin qorxulu olacağını göstərir. Bu səbəbdən bütün gücünüzlə neytrallığınızı qorumalısınız.**

**SUTÖKƏN - Düşərli bir gün yaşayacaqsınız. Ailə üzvlərinizlə, gündəlik ünsiyyətdə olduğunuz insanlarla mülayim davranın ki, bu hal davamlı olsun. Şəxsi büdcənizi bərk-bərk qoruyun.**

**BALIQLAR - Ötən günlərin gərginliyindən əsər-əlamət qalmayacaq. Üstəlik, gələcək həyatınızda önəmli rol oynaya biləcək şəxslərlə rastlaşmaq ehtimalınız da var. Həyatınızda müsbət rolu olanları unutmayın.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Həftədə 150 dəqiqə gəzmək lazımdır

**Dünyada 1 milyard 400 milyondan çox yetkin adam yetərincə idman etmədiyi üçün ölümcül xəstəliyə tutula bilər. Belə bir xəbərdarlıqla Ümumdünya Səhiyyə Təşkilatı çıxış edib. Qurum son 20 ilə yaxın müddətdə dünyada adamların hərəkətlilik səviyyəsində dəyişiklik olmadığını da vurğulayır. ÜST tövsiyə edir ki, hər bir yetkin şəxs həftədə azı 150 dəqiqə "orta gərginlikli" idman, məsələn, sürətli yürüş, üzgüçülük, yaxud velosiped sürməklə məşğul olsun. Yaxud bunu həftədə 75 dəqiqə "yüksək gərginlikli" fəaliyyətlə - qaçış, komanda idman növlərlə əvəzləmək olar.**

Araşdırma zamanı 2016-cı ildə dünyanın 168 ölkəsində 1,9 milyon nəfərin fəallığı öyrənilib. Tədqiqatçılar üzə çıxarıblar ki, 2001-ci ildən bəri dövlətin saysız səhiyyə təşəbbüslərinə baxmayaraq, fiziki aktivlik səviyyəsində yaxşılaşma baş verməyib.

Dünyada 1,4 milyard nəfərin yetərincə aktiv olmadığı ortaya çıxıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 mart 2019-cu il Çərşənbə № 52 (7222) Qiymətı 60 qəpik

**Xəbər**

**Vergi Məcəlləsində qəzet kağızı ƏDV-dən azaddır - bəs qanun niyə tətbiq edilmir?**

yazısı səh.4-də

# QƏRB PUL VERMƏYƏCƏK - İRƏVAN "İKİ DAŞ" ARASINDA

Erməni baş nazirin Brüssel blefi, "dəvəquşu siyasəti"; Paşinyan avropalıların "saqqızını" oğurlaya bilmir; Nikol yenə Avropaya pul üçün yalvardı... yazısı səh.8-də



## "Mənim tələbim o deyildi ki, həbsxanada kabab versinlər"

2 illik həbs həyatından sonra mətbuat konfransı keçirən **Mehman Hüseynov:** "Prezidentə müraciəti özüm yazıb və imzalamışam"

yazısı səh.7-də

**Gündəm**

### "Ölkəni qorumaq onu avtomatla qorumaq deyil ki..." - Şeyx



Bakıda "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" adlı beynəlxalq konfrans keçirilib; QMİ sədri: "Vəhhabi dostlarım var"

yazısı səh.6-da

### Vidadi İsgəndərlinin "Fransa üçün vuruşmağa hazır olmasına" müxalifətdən sərt reaksiya

yazısı səh.9-da

### Netanyahu Azərbaycana "Əfqanıstan" dedi, ara qarışdı

yazısı səh.15-də

### Ombudsman parlamentdə hesabat verdi

yazısı səh.11-də

### "Ayaz Mütəllibov devrilib, yoxsa özü istefa verib" dartışması

yazısı səh.5-də

### Xalqlar sülhə necə hazırlanır - Azərbaycan və erməni müxalifətinin oxşar ittihamı

yazısı səh.9-da

### "İstərdik prezidentlə görüşək" - QHT sədri

yazısı səh.6-da

### Məzahir Pənahov sürücüsü haqda danışmadı: "Nə istəyirsiz, əl çəkin məndən"

yazısı səh.10-da

### Paşinyanın səfəri Güney Azərbaycanda milli hərəkatı oyadıb

yazısı səh.12-də

### Yaz qapıda: nə əkərsən, onu da biçərsən...

yazısı səh.14-də

### İstanbulun 31 mart "fəthi": qalib kim olacaq...

yazısı səh.15-də



*İlham İsmayıl:*

**"Fəxrəddin Abbasovun həbsi bütün xainlərə dərs olacaq"**

yazısı səh.5-də



*Vidadi Əhmədov:*

**"Futbolla əlaqədar bütün inqilablar Tovuzda olub"**

yazısı səh.10-da



Əbülfəs Qarayev

**Mədəniyyət naziri prezidentlə görüşdə qaldırılan məsələlərin icrasından danışdı**

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

# Prezident iki teatra "akademik" statusu verdi

**Prezident İlham Əliyev "Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında" sərəncam imzalayıb.**

Sərəncamla Nazirlər Kabinetinə Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsini on beş gün müddətində təmin etmək tapşırılıb.

# Məmmədyarov Moskvaya niyə təcili zəng vurub?



**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyanın işğal altındakı Füzuli rayonundan ötən həftə verdiyi bəyanata görə Moskvaya zəng vurub.**

Virtualaz.org xəbər verir ki, nazir bunu Bakıda ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçakla görüşündən sonra keçirdiyi mətbuat konfransında deyib.

"Ermənistan rəhbərliyinin son bəyanatları sülhə xidmət etmir. Məsələn, Milli Təhlükəsizlik Xidmətinin rəhbərliyinin son bəyanatı. Mən bu məsələ ilə bağlı bu gün telefonla Minsk Qrupunun rusiyalı həmsədri İqor Popovla danışdım" - Məmmədyarov bildirib.

Azərbaycan XİN rəhbəri habelə ATƏT sədrindən xahiş edib ki, İrəvana gedəndə erməni rəhbərliyindən soruşsun: "Biz xalqları sülhə, yoxsa başqa istiqamətə hazırlayaq?"

Layçak isə erməni tərəfinin Dağlıq Qarabağın danışıqlarda iştirakına dair israrlarına münasibət bildirib. "Minsk Qrupu danışıqlar üçün yeganə formatdır və bütün münaqişə tərəfləri bunu qəbul edib. Formatda hər hansı dəyişiklik qarşı tərəflə razılaşdırılmalıdır" - o deyib.


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**



Abunə daha sərfəlidir - **"Yeni Müsavat" abunə** kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# ATƏT sədri Bakıda prezident İlham Əliyevlə görüşdü

## İlham Əliyev: "25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir"



**"Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyət yoxdur və Ermənistan danışıqlar prosesini pozmağa çalışır".**

"Report" xəbər verir ki, bunu Azərbaycan prezidenti İlham Əliyev martın 5-də ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan prezident İlham Əliyev bu münaqişənin uzun illərdir ki, davam etdiyini və Azərbaycan ərazilərinin bütün beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozularaq Ermənistan tərəfindən işğal altında saxlanıldığını diqqətə çatdırıb.

Dövlət başçısı qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə, ATƏT və digər təşkilatların bu cür qərar və qətnamələrinə baxmayaraq, 25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir.

İşğal nəticəsində bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, torpaqlarımızın zəbt edildiyini, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və demoqrafik vəziyyətin dəyişdirilməsi siyasətinin həyata keçirildiyini deyən dövlət başçısı Azərbaycanın bu münaqişənin tezliklə sülh yolu ilə həllində ən maraqlı tərəf olduğunu bildirib.

Danışıqlar prosesində müəyyən dinamikanın müşahidə olunduğunu, xarici işlər nazirləri səviyyəsində dörd dəfə görüşün keçirildiyini və Azərbaycan prezidenti ilə Ermənistanın baş naziri arasında üç dəfə söhbətin aparıldığını qeyd edən prezident İlham Əliyev Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını və Ermənistanın danışıqlar prosesini pozmağa çalışdığını bildirib.

Prezident İlham Əliyev münaqişənin həllində irəliləyişlərin əldə olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının təmin edilməsi üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini qeyd edib.

İlham Əliyev martın 5-də ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldinin başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib.

# Daha 492 şəhid vərəsəsinə birdəfəlik ödəmələr veriləcək

**Prezident İlham Əliyevin müvafiq fərmanının icrası ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən Komissiyanın növbəti iclasında daha 310 nəfərin 492 vərəsəsinə birdəfəlik ödəmə (11 min manat) verilməsi barədə qərar qəbul edilib.**

Nazirlikdən virtualaz.org-a verilən məlumata görə, onların siyahısı birdəfəlik ödəmənin həyata keçirilməsi üçün aidiyyəti quruma göndərilib. Yaxın günlərdə müvafiq vəsaitlərin həmin vərəsələrin bank hesablarına köçürülməsi təmin olunacaq. Vəsait köçürüldükdən sonra bu barədə onların sənədlərini təqdim edərkən qeyd etdikləri telefon nömrələrinə elektron qaydada ismarışla rəsmi bildiriş göndəriləcək.

Ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən olunub. Bu günədək artıq 4291 şəhidin 5966 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub və onlardan 3981 şəhid üzrə 5474 vərəsəyə ödəniş edilib.




# FHN bayramla əlaqədar əhaliyə müraciət etdi

**Fövqəladə Hallar Nazirliyi (FHN) Novruz bayramı ilə əlaqədar yanğın təhlükəsizliyinə dair əhaliyə müraciət edib. Bununla bağlı FHN-in mətbuat xidməti məlumat yayıb.**

Müraciətdə Novruz bayramı ilə əlaqədar keçirilən müxtəlif mərasimlərdə yanğın təhlükəsi ilə üzləşməmək üçün bir sıra təhlükəsizlik qaydalarını bilməyin vacibliyi qeyd olunub.

"Bayram tonqalının ətrafına yığışan azyaşlılar mütləq böyüklərin nəzarətində olmalıdır. Tonqal elektrik naqili, ağac, avtomobil, ev və digər yanar materiallardan kənarda yandırılmalı və tam sönənədək nəzarətdə saxlanılmalıdır.

Tonqal üzərindən atılarkən ehtiyatsızlıq geyimin alışmasına, bədənin xəsarət almasına səbəb ola bilər. Yandırılan şamlar nəzarətsiz qalmamalıdır. Təhlükə zamanı 112-yə zəng edin!", - deyə müraciətdə bildirilib.

# Lukaşenko KTMT-də yaranmış vəziyyət barədə nə dedi?

**Belarus prezidenti Aleksandr Lukaşenko Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ətrafında, o cümlədən bu quruma baş katib təyinatı ilə bağlı yaranmış qeyri-sağlam ab-havadan narahatlığını ifadə edib.**

TASS xəbər verir ki, dövlət başçısı inteqrasiya qurumlarında iştirak etmək və Avropa qurumları ilə əməkdaşlıq məsələlərinə həsr olunan müşavirədə sözügedən mövzuya toxunub.

O deyib: "Dünyada hərbi-siyasi cərəyanlar nəzərə alınsa, bu qurumun zəruriliyi şübhə doğurmur. Amma hazırda KTMT ətrafında qeyri-sağlam vəziyyət yaranıb. Elə təkcə baş katibin təyinatı məsələsini xatırlayın".

Belarus prezidenti diqqətə çatdırıb ki, dünyadakı ümumi hərbi-siyasi cərəyanlar nəzərə alınsa, əsas səylər göstəriləcək ən mühüm istiqamət KTMT çərçivəsində hərbi-siyasi əməkdaşlıqdır".

# AzTV-nin iki vəzifəli şəxsi işdən qovuldu

**"Azərbaycan Televiziya və Radio Verilişləri" (AzTV) Qapalı Səhmdar Cəmiyyətinin (QSC) nəzdindəki "İdman Azərbaycan" kanalının iki əməkdaşı nöqsanlara görə vəzifələrindən azad edilib.**

"Report"un məlumatına görə, Şahin İbrahimov və Tural Həmidzadə maliyyə pozuntularına yol verdiklərinə görə qurumun sədri vəzifəsini icra edən Rövşən Məmmədovun əmri ilə işdən kənarlaşdırılıblar.

Məlumata görə, bir müddət əvvəl İctimai Televiziyadan korrupsiya səbəbi ilə qovulan və yaxın qohumu, AzTV-nin keçmiş rəhbəri Arif Alışanov tərəfindən "İdman-Azərbaycan" telekanalına bərpa olunan Şahin İbrahimov müvəqqəti baş direktor gələnə kimi bütün çəkilişlərə nəzarət edib. Hətta qurumlardan gələn tədbir dəvətləri ilə bağlı faks aparatı da məhz onun otağında olub. A.Alışanovun təkidi ilə Xəbərlər departamentinin baş redaktorunun, prodüserinin görməli olduğu iş - çəkilişlərin müxbirlərə yazılması işi də ona həvalə olunub.

Bundan başqa, hazırda son iş yeri olaraq "İdman-Azərbaycan"dan da qovulan Ş. İbrahimov və T.Həmidzadə A.Alışanovun vaxtından birinci müavin olan, adı müxtəlif nöqsanlarda hallanaraq mediada mənfi imici ilə tanınan Elsevər Dünyamalıyevin yaxın adamlarının kimi tanınıblar.

Xatırladaq ki, R.Məmmədovun digər əmri ilə AzTV-nin mətbuat xidmətinin rəhbəri Xatirə Qasımova da vəzifəsindən azad olunaraq qurumun akademiyasına göndərilib.

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

# "Gələn dəfə onlar dəvət ediləcək"

## Mədəniyyət naziri prezidentlə görüşdə qaldırılan məsələlərin icrasından danışdı

**Martın 5-də M.F.Axundzadə adına Milli Kitabxanada mədəniyyət naziri Əbülfəs Qarayev dövlət başçısı ilə görüşdə müzakirə olunan məsələlərə həsr edilmiş mətbuat konfransı keçirib.**

Nazir bildirib ki, prezident İlham Əliyevin mədəniyyət xadimləri ilə son görüşündə səsləndirdiyi fikirlər mədəniyyət sahəsində islahatları sistemli şəkildə görmək istədiyinin bariz nümunəsi idi.

**Nazir bildirib ki, mədəniyyət sahəsində son illərdə islahatlar davam edir:** "Ölkə başçısı bu sistemin yeni formatda olmasını istəyir. Son iki ildə kifayət qədər eksperimental da olsa, vacib işlərin görülməsinə nail olunub. İslahatların məqsədi kiminsə işdən çıxarılması, iş yerlərinin sayının azaldılması ilə bağlı deyil. Kim bu düşüncədədirsə, yanlış düşünür".

**Ə.Qarayev qeyd edib ki, islahatlar bundan sonra da davam etdiriləcək. Nazir bildirib ki, elə kəndlər var ki, orada dağıdılmış vəziyyətdə müəssisə və ya işləməyən kitabxanalar var:** "Necə düşünə bilərik ki, onların hamısını bərpa edib, maddi-texniki baza ilə təmin etmək mümkün ola bilər? Odur ki, bütün bu işlər mərhələli şəkildə icra olunmalıdır. Əvvəllər kitabxanaların sayı az idisə, bu gün ölkədə 2600 kitabxana var. Kinematoqrafiya sahəsi ilə bağlı bir neçə layihə müzakirə olunur və kino sisteminin yeni formada idarə olunması üçün lazımi addımlar atılacaq. Həmçinin yeni teatr idarəetmə sisteminin formalaşdırılması üçün aparıcı teatrlara əlavə vəsait ayrılacaq. Yaradıcı proses dayanmamalı və işlər sistemli xarakter almalıdır. Bəzi qanunlara əsaslanan mövcud sistem daha müasir əsasda qurulmalıdır".




**Jurnalistlərin suallarını cavablandıran nazir bildirib ki, Cəfər Cabbarlının ev muzeyi dövlət balansında olmadığı üçün binanın taleyi ailə yaxınları ilə müzakirə edilib. O qeyd edib ki, C.Cabbarlının ev muzeyi 2006-cı ildən dövlətə məxsus deyil:** "Həmin ev Cabbarlının ailəsi tərəfindən özəlləşdirilib. Bu müddət ərzində binanın təmir-bərpa işləri üçün zəruri tədbirlər həyata keçirilmədiyindən bina yararsız hala düşüb. Lakin dövlət hesabına təmir üçün bina yalnız dövlətin balansında olmalıdır. 2012-ci ildə bina tam yararsız hala düşdüyü üçün binadakı əmlak teatr muzeyinə köçürülüb. Biz bu məsələni ailəsi ilə müzakirə etmişik. Ailə istəyir ki, o evin yerində yeni ev tikilsin və evin birinci mərtəbəsi Cabbarlının ev muzeyi olsun. Bu təcrübə mövcuddur. Əzim Əzimzadənin də ev muzeyinin hazırlanması bu şəkildə aparılıb. Biz özümüz də həmin binanın vəziyyətindən narahatıq. Çünki Mədəniyyət Nazirliyinin binanı tikmək və ya dağıtmaq səlahiyyəti yoxdur. Aidiyyəti orqanlar və mütəxəssislər araşdırma aparmalı və hansı istiqamətdə işlərin görüləcəyi ilə bağlı rəy verməlidir. Ümid edirəm ki, C.Cabbarlının ev muzeyində ən qısa zamanda bərpa işləri görüləcək".

**Nazir Tahir İmanov və "Parni iz Baku" kollektivinin fəaliyyəti ilə bağlı son zamanlar səslənən fikirlərə də münasibətini bildirib.**

**Konkret olaraq, qadağalardan bəhs edən nazir söyləyib ki, onların bütün fəaliyyəti Mədəniyyət Nazirliyinin nəzərindədir:** "Dövlət tərəfindən onlara heç bir məhdudiyyət qoyulmamışdı və Tahir İmanov da bunu nəzərdə tutmurdu. Özəl televiziyaların fəaliyyətinə gəlincə, onların işinə müdaxilə edə bilmərik. Onlara yalnız tövsiyə verə bilərik. Tahir İmanovun rəhbərlik etdiyi kollektivin konsertləri və ya proqramları mütəmadi şəkildə böyük mədəniyyət saraylarında nümayiş olunur. Onu da deyim ki, biz onların fəaliyyətini yüksək qiymətləndiririk. Onlar istedadlı və cəmiyyətə lazım olan gənclər kimi tanınırlar".

**Nazir mətbuat konfransında sosial şəbəkələrdə səslənən iradlara da münasibət bildirib. Xüsusilə də Rasim Balayevin prezidentlə görüşə çağırılmaması məsələsi barəsində Ə. Qarayev söyləyib ki, Rasim Balayev və digərləri prezident İlham Əliyevlə növbəti görüşlərə mütləq dəvət ediləcək:** "Rasim Balayev və bir neçə digər xalq artistinin görüşə dəvət edilməməsində xüsusi məqam yoxdur. Rasim Balayevlə bizim yaxşı dostluq münasibətlərimiz var. Sadəcə, bu gün 270 xalq artisti, ziyalılar və 1300-dən çox əməkdar incəsənət xadimi var. Biz onların hər birini dəvət etsəydik, Heydər Əliyev Sarayında onlara yer olmayacaqdı. Gələcəkdə bu görüşlərin sayı artırılacaq və dəvət edilməyən bütün ziyalılar dəvət ediləcək. Görüşdən kənarda qalan ictimai xadimlərdən, ziyalılarımızdan üzrxahlıq edirəm. Gələn dəfə onlar dəvət ediləcək".

**Nazir onu da qeyd edib ki, hazırda Cəlil Məmmədquluzadə və Hacı Zeynalabdin Tağıyevin heykəlinin ucaldılması məsələsi müzakirə edilir. Heykəllərin ucaldılması üçün memarlar müsabiqə yolu ilə seçiləcək:** "Cənab prezidentlə görüşdə 4 nəfərin heykəlinin ucaldılması məsələsi qaldırılmışdı. Bu yaxınlarda ilkin layihə üçün müsabiqə elan ediləcək. Həm memarlar, həm də heykəllərin hansı ərazilərdə ucaldılması ilə bağlı yekun qərar veriləcək. Bundan sonra ictimaiyyətə açıqlama verə biləcəyik".

❑ **Əli RAİS,**
**Foto: Elçin Əkbərov**
**"Yeni Müsavat"**

# Media kapitanlarının prezidentlə görüşü olacaqmı?

**Məlum olduğu kimi, martın 1-də Azərbaycan prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüb. Azərbaycanda mədəniyyət sahəsində görülən işlər, mövcud vəziyyət və gələcək planların müzakirə olunduğu bu görüşdə dövlət başçısı ilə yanaşı, mədəniyyət xadimləri də çıxış ediblər. Qeyd edək ki, mətbuat işçiləri də dövlət başçısının media nümayəndələri ilə belə bir görüş keçirməsini arzuolunan hesab edirlər. Hazırda həm çap mətbuatının, həm də onlayn mətbuatın bir sıra problemləri olduğunu nəzərə alsaq, dövlət başçısının jurnalistlərlə, media kapitanları ilə görüşü, onların problemləri ilə bağlı operativ qərarlar verməsi bu sahənin inkişafına müsbət təsir edə bilər.**





**Vüqar Səfərli:** "Əgər belə bir görüş yenidən məsləhət bilinərsə, biz də dəstəkləyərik"
**Müşfiq Ələsgərli:** "Belə bir ictimai sifariş olarsa, Mətbuat Şurası bu təşəbbüslə çıxış edə bilər"

Qeyd edək ki, hazırda çap mediasının inkişafı üçün qəzet kağızının ƏDV-dən azad edilməsi, ictimai yerlərdə, o cümlədən metroda qəzet satışının bərpa edilməsi, medianın reklam bazarının genişləndirilməsi, azad reklam bazarının olması, həmçinin onlayn mediaya maliyyə dəstəyinin verilməsi kimi məsələlər gündəmdədir.

**Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondunun icraçı direktoru Vüqar Səfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əvvəllər mətbuat nümayəndələrinin dövlət başçısı ilə görüşü olub:** "Həmçinin iki dəfə də jurnalistlər üçün tikilən binada mənzillərin paylanması zamanı prezident jurnalistlərlə bir araya gəlib. Mədəniyyət işçiləri ilə isə uzun illərdən bəri ilk dəfə görüş baş tutur-du. 2015-ci ildə media kapitanlarından ibarət böyük bir qrupla İlham Əliyevin görüşü oldu, orada mediaya aid məsələlər qaldırıldı, müzakirə olundu. Əgər belə bir görüş yenidən məsləhət bilinərsə, biz də dəstəkləyərik. Bu görüşlər adətən dəyirmi masa şəklində təşkil olunub, orada suallar verilib, ümumi müzakirələr aparılıb, media kapitanları fikirlərini səsləndiriblər. Görüş olsa, orada bir çox məsələlər qaldırıla bilər, elektron medianın maliyyələşməsi məsələsi, reklam bazarının formalaşması məsələsi, media nümayəndələrini maraqlandıran digər məsələlərə yer verilə bilər. Belə bir təşəbbüs olsa biz də dəstəkləyərik. Bildiyiniz kimi, gələn il medianın 145 illiyi olacaq, adətən belə yubiley illərində də görüş olur".

**Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli də qəzetimizə açıqlamasında bildirdi ki, zərurət olarsa, Mətbuat Şurası belə bir təşəbbüslə çıxış edə bilər:** "Media kapitanları ilə dövlət başçısının görüşü bir neçə dəfə, bir neçə formatda təşkil olunub. Zaman-zaman belə görüşlər baş tutub, mən də iştirak etmişəm. Mətbuat Şurasının təşkilatçılığı ilə media rəhbərlərinin dövlət başçısı ilə görüşü keçirilib. Bundan başqa, digər formatlarda, müəyyən toplantılarda da cənab prezident jurnalistlərlə görüşüb. Məsələn, mənzillərin paylanması zamanı dövlət başçısının geniş tərkibli jurnalist heyəti ilə görüşü baş tutdu. Belə bir təşəbbüs olduqda, hər zaman qarşı tərəfdən müsbət reaksiya verilir. Yenə də belə bir ictimai sifariş olarsa, yerlərdən müraciətlər olarsa, zərurət varsa, Mətbuat Şurası belə bir təşəbbüslə çıxış edə bilər. Praktikada belə hallar olub, düşünürəm ki, heç bir problem olmaz. Görüş üçün zərurət və format olmalıdır. Gündəmdə qəzet kağızının ƏDV-dən azad edilməsi, ictimai yerlərdə, o cümlədən metroda qəzet satışının bərpa edilməsi, medianın reklam bazarının genişləndirilməsi, azad reklam bazarının olması, həmçinin onlayn mediaya maliyyə dəstəyinin verilməsi kimi məsələlər var. Bunlar Mətbuat Şurasının təkliflər paketində də öz əksini tapıb. Mətbuat Şurasının İdarə Heyətinin toplantısında bu təkliflər paketi hazırlanıb, dövlət qurumlarına müraciət olunub. Ancaq elə bir mərhələ olsa və bu məsələlərə dövlət başçısının özünün birbaşa müdaxiləsi lazım gəlsə, Mətbuat Şurası belə bir təşəbbüslə çıxış edə bilər".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Vergi Məcəlləsində qəzet kağızı ƏDV-dən azaddır - bəs qanun niyə tətbiq edilmir?

**Azərbaycanda qəzet kağızı və hazır çap məhsulları əlavə dəyər vergisindən (ƏDV) azad oluna bilər.**

Modern.az-ın məlumatına görə, bu barədə Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyəti haqqında hesabatında bildirilib.

Sənədə görə, Milli Məclisin deputatları tərəfindən təklif edilib ki, ölkəyə gətirilən qəzet, kağız və hazır çap məhsulları üzərindən əlavə dəyər vergisi aradan qaldırılsın.

Nazirlər Kabinetinin həmin təklifə cavabında isə göstərilib ki, Vergi Məcəlləsinin 164.1.35-ci maddəsinin müddəalarına əsasən siyahısı Azərbaycan respublikasının Prezidenti tərəfindən müəyyən olunan xammalın və materialların idxalının ƏDV-dən azad edilməsi nəzərdə tutulub. Həmin siyahıya qəzet kağızı və hazır çap məhsulları daxil edildiyi halda qeyd olunan malların idxalı ƏDV-dən azad oluna bilər.

Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyəti haqqında hesabatı Milli Məclisin martın 15-də keçiriləcək iclasında müzakirə ediləcək.

Mətbuatın hazırkı durumunu nəzərə alsaq, bu məsələ qəzetçiliyin yaşamasında böyük rol oynaya bilər.

Diqqət çəkən əsas məqam isə odur ki, qəzetlərin, çap və poliqrafiya məhsullarının ƏDV-dən azad olunması Vergi Məcəlləsində öz əksini tapıb. Qanunun 164.1-ci maddəsində ƏDV-dən azad edilən məhsulların siyahısında kütləvi informasiya vasitələri məhsullarının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti də qeyd olunur. Yalnız reklam fəaliyyəti istisna təşkil edir. Lakin bu qanun mövcud olduğu halda, Nazirlər Kabinetinin 2015-ci ildən etibarən ləğv olunan 11 saylı qərarı əsas götürülür və onun ləğvi ilə qəzet kağızı ƏDV-yə cəlb olunur.



**Əkrəm Həsənov:** “Vergi Məcəlləsinə görə bütün ziddiyyətli məqamlar vergi ödəyicisinin xeyrinə şərh olunmalıdır”



**Rəşad Məcid:** “Arzu edərdik ki, qəzetlərin belə iqtisadi çətinlik yaşadığı dövrdə kağıza ƏDV tətbiq olunmasın”

**“Qaya” mətbuat yayımı firmasının sədri Xanhüseyn Əliyev məsələ ilə bağlı “Yeni Müsavat” a açıqlamasında bildirdi ki, qanunla azad edilməsinə baxmayaraq qəzet kağızına ƏDV tətbiq olunur:** “2005-ci ilə qədər qüvvədə olan Vergi Məcəlləsinə görə, idxal olunan kütləvi informasiya vasitələri ƏDV-dən azad idi. Qanunla kütləvi informasiya vasitələri dedikdə qəzet, jurnal və qəzet kağızı nəzərdə tutulurdu. 2005-ci ildə Nazirlər Kabineti 11 saylı qərar qəbul etdi. Vergi Məcəlləsi qüvvədə ola-ola həmin 11 saylı qərara kütləvi informasiya vasitələri və qəzet kağızını da saldı. Həmin ildən bu məsələ həm Vergi Məcəlləsi, həm də Nazirlər Kabinetinin qərarları ilə tənzimlənməyə başladı. Buna ehtiyac yox idi. 2015-ci ilin oktyabr ayında Nazirlər Kabinetinin 11 saylı qərarı ləğv edildi. Ancaq Vergi Məcəlləsi qüvvədə qaldı. Konstitusiyada da qeyd olunub ki, qanunların ardıcıllığı baxımından həmin qanun daha üstündür. Ancaq Gömrük Komitəsi qanun olduğu halda Nazirlər Kabinetinin qərarını üstün tutdu”.

**X. Əliyev vurğuladı ki, qanun var və Gömrük Komitəsi qanuna üstünlük verməli idi:** “Problemlər də buradan başladı. 2000-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş və həmin ilin oktyabr ayında prezident fərmanı ilə təsdiq edilmiş qanun - Vergi Məcəlləsi qüvvədədir. Həmin qanunun 164.1-ci maddəsi ƏDV-dən azadolma maddəsidir. Orada konkret göstərilir ki, idxalın aşağıdakı növləri ƏDV-dən azaddır. Ondan sonra onun alt maddəsi olan 164.1.17 -ci maddəsində konkret olaraq qeyd olunur ki, KİV-lərin alqı-satqısı üzrə bütün dövriyyələr ƏDV-dən azaddır. Yəni respublikaya idxal olunan bütün kütləvi informasiya vasitələri, qəzet və jurnallar, qəzet kağızı ƏDV-dən azaddır. Gömrük Komitəsi isə ləğv edilmiş qərara üstünlük verir. Son olaraq, Gömrük Komitəsi irad bildirir ki, idxalı olunan KİV azaddır, ancaq onların alqışı azad deyil. Vergi Məcəlləsində isə yazılıb ki, alqı-satqı azaddır. Onlar isə alqı sözünə etiraz bildirirlər ki, Vergi Məcəlləsində alqı sözü səhvdir, onu əsas götürməyin. Ancaq qanun alqı-satqının, bütün dövriyyənin azad olduğunu qeyd edirsə, azad olmalıdır.

Prezidentin “Kütləvi informasiya vasitələri haqqında” fərmanı var və həmin fərmanda açıqlama verilir ki, buraya qəzet və jurnallar və qəzet kağızı daxildir".

**Hüquqşünas Əkrəm Həsənov da “Yeni Müsavat”a açıqlamasında vurğuladı ki, Vergi Məcəlləsinə görə, bütün ziddiyyətli məqamlar vergi ödəyicisinin xeyrinə şərh olunmalıdır:** “Bu məsələdə həqiqətən qarışıqlıq var. Əsas problem isə bizim qanunların yazılmasındadır. Azərbaycanda qanunvericilik institutu olmalıdır və qanunların yazılmasındakı nöqsanları aradan qaldırmalıdırlar. Xüsusən də iqtisadiyyat sahəsində qanunvericiliyə elmi yanaşma olmalıdır, hüquq dili olmalıdır. Qəzet kağızına ƏDV tətbiqi ilə bağlı məsələdə qanunlar toqquşur. Onların öz məntiqləri var, ancaq praktikada müəyyən problem ortaya çıxır. Vergi Məcəlləsinin 164.1. maddəsinə baxsanız, orada qeyd olunur ki, malların ixracından başqa, malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növləri, habelə idxalın aşağıdakı növlərindən ƏDV tutulmur. Yəni aşağıdakı bəndlərdə söhbət təkcə idxaldan deyil, həm də xidmətlərin göstərilməsindən, malların təqdim edilməsindən gedir. Vergi Məcəlləsinə görə bütün ziddiyyətli məqamlar vergi ödəyicisinin xeyrinə şərh olunmalıdır”.

**Hüquqşünas hesab edir ki, bu qanun qəzet kağızına, poliqrafiya məhsullarına da şamil edilməlidir:** “Bu qanuna əsasən qeyd olunan məhsullar ƏDV-dən azaddır. Ancaq mən bu məsələni araşdırdım və müəyyən etdim ki, Dövlət Gömrük Komitəsinin mövqeyi fərqlidir. Onlar da iqtisadi yanaşma sərgiləyirlər. Ancaq bu, hüquqi yanaşma deyil, sırf iqtisadçı yanaşmasıdır. Qanunlar hüquqi dildə yazılmalıdır. Bəzən deyirlər ki, qanunlar elə yazılmalıdır ki, onu hamı başa düşsün, lakin hüquqi dil var. Qanunu hüquqşünas yazmırsa, o zaman bu problemlər yaşanır. Vergi Məcəlləsi tamamilə yenidən yazılmalıdır. Məcəllənin 164.2-ci maddəsi 2015-ci ilə qədər qüvvədə olub və orada Nazirlər Kabinetinə səlahiyyət verilmişdi ki, hansı məhsul və xidmət növlərinin idxaldan azad edildiyini müəyyən etsin. 2015-ci ildə həmin maddə də ləğv olundu və qəzet kağızı, poliqrafiya məhsullarının ƏDV-dən azad edilməsi də onunla birgə ləğv olunmuş hesab edildi. İqtisadçılar artıq fikirləşdilər ki, artıq 164.2 yoxdursa, Nazirlər Kabineti müəyyən etmirsə, poliqrafiya məhsullarının ƏDV-dən azad edilməsi dövrü bitdi. Ancaq unutdular ki, 164.1.7. maddəsi hələ də qüvvədədir. Mən bu məhsulların ƏDV-dən azad olunması mövqeyindəyəm”.

Media kapitanları da qəzet kağızının ƏDV-dən azad ediləcəyi günü səbirsizliklə gözləyirlər.

**“525-ci qəzet”in baş redaktoru Rəşad Məcid “Yeni Müsavat”a danışarkən vurğuladı ki, qəzetlərin də iqtisadi vəziyyəti ağırdır, bu, qəzetlər üçün bir iqtisadi yükdür:** “Qəzet kağızının ƏDV-dən azad edilməsi ilə bağlı uzun illərdir müzakirə aparılır. Belə bir variant irəli sürürlər ki, mətbuat orqanları qəzet kağızını ölkəyə özləri gətirəndə bu tətbiq olunmur. Ancaq hələ ki ƏDV tətbiq olunur, bu da kağızın bahalaşmasına gətirib çıxarır. İndi qəzetlərin də iqtisadi vəziyyəti ağırdır, bu qəzetlər üçün bir iqtisadi yükdür. Vaxtaşırı bu məsələlər qaldırılır, müzakirə edilir. Mən də hesab edirəm ki, bu məsələnin həlli vacibdir. Mətbuat Şurasının sədri Əflatun Amaşov da bu məsələni bir neçə dəfə Milli Məclisdəki çıxışında qaldırıb. Arzu edərdik ki, qəzetlərin belə iqtisadi çətinlik yaşadığı dövrdə kağıza ƏDV tətbiq olunmasın. Türkiyədə də kitab çapına tətbiq olunan ƏDV aşağı endirilib. Onsuz da dövlətin bundan əldə etdiyi vəsait elə böyük həcmdə deyil. Ona görə də yaxşı olar ki, hökumət belə bir qərar versin və bu məhsullara ƏDV tətbiq olunması ləğv edilsin”.

❑ **Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

# Qarabağ Komitəsində gərginlik yaradacaq yeni açıqlamalar

## Tural Abbaslı: “Bu məsələdə kimsə fərqli mövqedə dura bilməz”

**Qarabağ Komitəsi (QK) daxilində yaşanan gərginlik tükənmir. Komitə ilə yolları ayrılmaq üzrə olan və bu səbəbdən qurumun son iki iclasında iştirak etməyən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağının “Yeni Müsavat”ın ötən sayına verdiyi açıqlamada səsləndirdiyi bəzi fikirlər gərginliyi bir qədər də artırıb.**

QAT sədri açıq şəkildə ötən il 29 sentyabra, yəni QK-nın həmin tarixdə keçirdiyi “Qarabağa azadlıq” mitinqinə qədər olan uğurlarını rəhbəri olduğu təşkilatın ayağına bağlayıb.

**Sitat:** “Mən bir sualın cavabını hələ də tapa bilmirəm ki, bu adamlar nə üçün QAT-ın 25 illik təcrübəsindən, bazasından istifadə etmək istəmədilər. Özləri də bilirlər ki, komitənin 29 sentyabr mitinqinə qədərki uğuru daha çox QAT-ın bazasına söykəndiyimizə görə idi”.

**QK-nın təsisçilərindən olan, AĞ Partiya başqanı Tural Abbaslı QAT sədrinin dediklərinə bu cür mövqe sərgilədi:** “Sözün düzü, mənə tam aydın olmadı ki, Akif bəy ”Mən bir sualın cavabını hələ də tapa bilmirəm ki, bu adamlar nə üçün QAT-ın 25 illik təcrübəsindən, bazasından istifadə etmək istəmədilər" dedikdə nəyi nəzərdə tuturdu. Çünki Qarabağ Komitəsi ilə QAT arasında hər



hansı bir qarşıdurma olmayıb və bu gün də yoxdur. Biz komitə olaraq istər QAT-a, istərsə də burada cəmləşən digər partiyalara, təşkilatlara, qazilərə, ziyalılara Qarabağın azadlığa qovuşması naminə bir resurs, baza kimi yanaşmışıq və faydalanmışıq. Qarabağ Komitəsində elə bir mühit formalaşıb ki, burada artıq ayrı-ayrı şəxslər, partiyalar, təşkilatlar önə çıxmır, burada Qarabağ naminə fəaliyyət və fədakarlıq önə çıxır. Odur ki, komitənin fəaliyyətini onun tərkibindəki təşkilatlara pay şəklində bölməyi doğru hesab etmirəm. Konkret olaraq Qarabağ Komitəsinin təsis olunduğu gündən bu günə qədərki uğuru onun üzvlərinin hər birinin mübarizəsinin nəticəsidir. Bu məsələdə kimsə fərqli mövqedə dura bilməz və durmamalıdır da. QAT bu gün də komitənin üzvüdür və fəaliyyətini orada davam etdirir. Ola bilər ki, kimlərinsə komitədə QAT-a deyil, Akif Nağının şəxsinə iradları olsun. Bunu da zaman-zaman onlar səsləndirib və hətta son iclaslardan birində bəziləri bu münasibətə görə istefa verib getdilər. Ancaq Akif bəy bu iradları qətiyyən QAT-a ünvanlanan iradlar kimi təqdim etməməlidir. Mən bilən QAT-ın idarəçiliyində demokratik prinsiplər hakimdir və buna söykənərək oradakı bəzi üzvlər belə Akif bəylə nələrdəsə razı da olmurlar. Yəni demək istəyirəm ki, Qarabağ Komitəsi QAT başda olmaqla, heç kimi və heç bir təşkilatı günahlandırmır və onun resurslarından Qarabağın azadlığı naminə yararlanmağa çalışır. Qarabağ Komitəsi əksinə, sıralarını genişləndirərək qarşısına qoyduğu hədəfə yetişmək üçün tam gücü ilə fəaliyyət göstərir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019



Fəxrəddin Abbasov

# “Fəxrəddin Abbasovun həbsi bütün xainlərə dərs olacaq”

## İlham İsmayıl: “Bu adamlara qanunların dili ilə bir dərs vermək vacib idi və veriləcək də”

**Azərbaycana qarşı xəyanətkar fəaliyyəti ilə əlaqədar barəsində cinayət işi başlanan və ötən ilin sentyabrında Rusiyada həbs edilən Fəxrəddin Abbasov (özünü Aboszodə kimi təqdim edir-red.) bu il fevralın 28-də Rusiyada müvəqqəti yaşamaq müddəti bitdiyi üçün deport edildi. O, müvafiq qaydada saxlanıldığı həbsxanadan vətəndaşı olduğu Azərbaycana fevralın 28-də deport edildi və DTX onu Bakıda hava limanında qandalladı.**

O, uzun illər ərzində faktiki olaraq Ermənistanın agenti kimi çalışıb. Dəfələrlə torpaqlarımızı işğal etmiş Ermənistanın paytaxtına səfərlər edib oradan açıq şəkildə düşmənlərimizi dəstəklədiyini bildirirdi. Fəxrəddin Abbasov təkbaşına fəaliyyət göstərməyib, Azərbaycandan çıxan, Azərbaycan dövlətçiliyi əleyhinə çıxışlar edən şəxsləri təşkil etməyə və birləşdirməyə çalışıb. Tanınmamış “Dağlıq Qarabağ Respublikası”nın işğalçı rejiminin nümayəndələri ilə yanaşı əyləşib ölkəmiz əleyhinə illərlə təbliğat aparıb. Erməni xüsusi xidmət orqanlarının kuratorları ona maddi kömək edib, “Rusiya ermənilər ittifaqı” dəstək verib.

**Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl Fəxrəddin Abbasovun həbsi və Azərbaycana ekstradisiyasını müsbət qiymətləndirdiyini deyib. “Yeni Müsavat”a açıqlamasında o qeyd edib ki, F.Abbasov və onunkimilər Azərbaycanın ərazi bütövlüyü əleyhinə tam xəyanətkar mövqedən çıxış ediblər:** “Faktiki olaraq heç bir diskriminasiyanın olmadığı bir yerdə, etnik münasibətlərin tarixən normal olduğu, əsrlərlə birgə yaşadığımız torpaqlarda separatçılığı təbliğ ediblər. Fəxrəddin Abbasov, İsmayıl Şabanov kimiləri elektron saytlardan, xüsusilə ermənilərin və rusların maliyyəsi ilə açılmış "Talışıstan" televiziyasından əleyhimizə çalışıblar, təhqiredici tonda çıxışlar edib, dövlət adamlarından tutmuş dövlət atributlarımıza qədər həmişə aşağılayıcı mövqedən çıxış ediblər. Bizim düşmənlərimizlə, ermənilərlə əlaqəyə girərək “Talışstan” televiziyasının İrəvandan yayımlanmasına nail olublar. Dəfələrlə İrəvanda səfərdə olublar, aylarla orada qalıblar, Moskvada xüsusi himayə altında yaşayıb bu işləri görüblər. Bu təkcə əməliyyat işi deyil, siyasi məsələdir. Bu siyasi məsələnin bu cür yekunlaşması bizim üçün uğurdur. Azərbaycan diplomatik və xüsusi xidmət orqanlarının uğurudur. Bu məsələ ilə dövlətə xəyanət edənlərə dərs verilmiş oldu.

Fəxrəddin Abbasov Rusiyada çoxdan tutulmuşdu. Amma Azərbaycana ekstradisiyası ləngidilirdi. Onun enində-sonunda Bakıya göndərilməsi bizim ikinci uğurumuzdur. Yeni separatçılar, xainlər bilməlidirlər, anlamalıdırlar ki, harada məskən salmalarından və kimlərin himayəsində olmalarından asılı olmayaraq həbs ediləcək və gec-tez etdiklərinə görə Azərbaycan məhkəməsi qarşısında cavab verəcəklər. Bu mənada məsələ uğurlu profilaktikadır.



Söhbət Fəxrəddin Abbasovun kimliyindən, tutulmağından getmir. Onun kimiləri yalnız başqa dövlətlərin alətlərindən başqa bir şey deyillər. Bu adamlara qanunların dili ilə bir dərs vermək vacib idi və veriləcək də”.

**İlham İsmayıl deyir ki, cənub bölgəsi İran və Rusiya tərəfindən həmişə separatçılıq meyllərinin qızışdırıldığı bir bölgədir:** “Dini, etnik, separatçılıq zəminində bu işləri görüblər. Ona görə də Fəxrəddin Abbasov, İsmayıl Şabanov və bu kimi insanlar bilməlidirlər ki, dövlət əleyhinə fəaliyyətə görə qanun qarşısında cavab verməli olacaqlar. Bu əməliyyat Dövlət Təhlükəsizlik Xidmətinin ciddi uğurudur”.

**İlham İsmayıl deyir ki, Fəxrəddin Abbasovun işi üzrə məhkəmə çox şəffaf şəkildə keçirilməlidir:** “Açıq məhkəmə keçirilməldir. Sözün həqiqi mənasında separatçılara heç bir imkan verilməməlidir ki, Fəxrəddin Abbasovu qəhrəmana çevirsinlər, Novruzəli Məmmədov kimilərini vətənpərvər olmaya-olmaya vətənpərvər adlandırsınlar. Bu adamlar vətənpərvər deyillər, əgər talış xalqının mənafeyini fikirləşsəydi, bu hərəkətləri etməzdi. Fəxrəddin Abbasov və onun adamları istəyirlər ki, ölkəmizin ərazi bütövlüyü təzədən parçalansın”.

Qeyd edək ki, Azərbaycan vətəndaşı olan Fəxrəddin Abbasov barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (milli, irqi nifrət və düşmənçiliyin salınması, milli ləyaqətin alçaldılması) maddələri üzrə cinayət işi başlanmış və o, beynəlxalq axtarışa verilmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Ayaz Mütəllibov devrilib, yoxsa özü istefa verib?

## Eks-prezident yenə AXC-ni ittiham etdi,İsgəndər Həmidovdan sərt reaksiya gəldi

**Bu gün Ayaz Mütəllibovun Azərbaycan prezidenti vəzifəsindən istefa verməsindən 27 il ötür.**



1992-ci il martın 6-sı Azərbaycanın siyasi tarixində prezident Ayaz Mütəllibovun hakimiyyətdən getməsi ilə yadda qalıb. Bu gediş sıradan gediş deyildi. Ölkənin ilk prezidentinin tutduğu yüksək postdan kənarlaşdırılmasına səbəb olan hadisə cəmi bir həftə qabaq baş vermiş, Xocalıda soyqırım törədilmiş və bunun ardınca hakimiyyətə qarşı xalq etirazları baş qaldrmışdı. Ayaz Mütəllibovu hakimiyyətdən uzaqlaşdırmaq istəyən siyasi qüvvələr də təbii ki, bu etirazlardan, yaranmış situasiyadan istifadə edirdilər.

Ayaz Mütəllibov hər ilin bu günlərində hakimiyyətdən getməsi barədə medianın suallarını cavablandırır. Hər dəfə də Azərbaycan Xalq Cəbhəsinin onu güc yolu ilə devirdiyini və cəbhəçilərin bu hərəkətinin Azərbaycanın başına bəlalar gətirən tarixi səhv adlandırır. Dünən də Real.TV-yə müsahibəsində Ayaz Mütəllibov bildirib ki, 20 Yanvar hadisələrini araşdıran istintaq komissiyasının üzvü olan SSRİ KQB-sinin sədr müavini ona AXC-ni bağlamağı məsləhət görüb. Lakin mənfi cavab alıb: “Mən ona dedim ki, Azərbaycanda demokratiya qururuq, Qarabağda müharibə gedir, AXC-ni bağlamağı düşünmürəm. AXC isə 1992-ci ilin 6 martında dövlət çevrilişi etdi”.

**Bundan əvvəl də eks-prezident müsahibələrində deyib ki, 1992-ci il martın 5-6-da və həmin il mayın 15-də qanuni hakimiyyətə qarşı AXC-nin etdiyi sui-qəsdin xalqın iradəsinin təzahürü olmadığına hüquqi baxımdan şübhə qalmayıb. Bu, ilk mərhələdə küçə təzyiqləri altında parlament çevrilişi, ikincisi, hakimiyyətin silah gücünə işğalıdır, yəni hərbi çevrilişdir:** “Xocalıda baş verən faciəli hadisələri və onun təsiri altında yaranmış güclü psixoloji durum hakimiyyət uğrunda öz məqsədi üçün istifadə edən AXC-yə imkan verdi ki, küçədə toplaşan kütlənin təzyiqi altında respublika parlamentini məni istefaya göndərməyə məcbur etsin. Təəssüf ki, opponentlərimi inandıra bilmədim ki, onların hərəkətləri respublikaya fəlakətlər gətirir, torpaqlarımızın müdafiəsini çətinləşdirir, ardıcıl çevrilişlər və siyasi kataklizmlər dalğasının yaranmasına səbəb olur. AXC-nin keçmiş funksionerləri cəsarətli olub öz səhvlərini etiraf etməlidirlər”.

**AXC-nin liderlərindən olmuş sabiq daxili işlər naziri İsgəndər Həmidov isə “Yeni Müsavat”a açıqlamasında o bildirdi ki, A.Mütəllibov özü könüllü olaraq prezident vəzifəsindən istefa ərizəsini yazıb. Onu AXC-dən heç kim istefa ərizəsi yazmağa məcbur etməyib:** “Ayaz Mütəllibov Xocalı faciəsindən sonra hakimiyyətdə qala bilməzdi. Xalq ona qarşı idi. Bunu Mütəllibov yaxşı görürdü. Xocalıda ermənilər tərəfindən azərbaycanlılara qarşı misli görünməmiş vəhşilik, soyqırım aktı törədilmişdi, 600-dən yuxarı dinc sakin qətlə yetirilmişdi, 1000-dən yuxarı sakin əsir götürülmüşdü. Sabahısı gün Ayaz Mütəllibovun prezident olaraq nəzarətində olan ”AzərTAc" Dövlət Agentliyinin Azərbaycan Dövlət Televiziyasında Xocalı barədə xəbəri yayıldı. Xəbərdə Xocalıda insident nəticəsində 3 nəfər Xocalı sakininin həlak olduğu bildirilirdi. Bu cür informasiya Ayaz Mütəllibovun icazəsi olmadan yayıla bilməzdi. Təsəvvür edirsinizmi, ölkənin bir bölgəsində böyük miqyaslı qırğın törədilib, prezident bunu xalqdan gizlədir. Bu, Xocalını müdafiə etməmək qədər xəyanətə bərabər hərəkət idi. Bu hərəkətə indi cəsarətdən, vətənpərvərlikdən dəm vuran Mütəllibov yol vermişdi. Belə bir şəxsin prezident və ali baş komandan kimi qalması qeyri-mümkün idi, xalq bunu qəbul etmirdi. Ayaz Mütəllibov da bu vəziyyəti görüb istefa ərizəsini yazdı. Ərizəsində səhhətinə görə istefa verdiyini yazmışdı.

İstefa ərizəsini Allahşükür Paşazadəyə təqdim etmişdi. Yəni Mütəllibovu AXC-dən heç kim məcbur etməmişdi ki, istefa ərizəsi yazsın. Prezidentin parlamentdə impiçment məsələsi qoyulmuşdu. Ancaq biz parlamentdə cəmi 15 nəfər idik. İstəsək də onu istefa ərizəsi yazmağa məcbur edə bilməzdik. Onun getməyini xalq istəyirdi, ona görə də getdi".

**İ.Həmidov onu da bildirdi ki, Mütəllibov əslində istəyirdi ki, AXC-ni bağlasın. Sadəcə olaraq, Azərbaycan xalqının sərt reaksiyasından çəkindiyi üçün bunu edə bilmirdi:** “Onun AXC-yə qarşı qərəzi, qəzəbi heç vaxt tükənmir. AXC hakimiyyət uğrunda mübarizə aparmırdı, müstəqillik və torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparırdı. Mütəllibov özü istefa verdi getdi, may ayında konstitusiyanı pozaraq güc yolu ilə geri qayıtdı. Lakin cəmi bir gündən sonra yenə qaçdı. Onun bizi cəsarəti olmamaqda suçlaması isə gülüncdür. Cəsarətsiz adamlar SSRİ imperiyasına qarşı vuruşmazdı, Mütəllibov kimi imperiyaya sitayiş edərdi. Ayaz Mütəllibovun o zamankı davranışları qorxaqlıq, ölkəsini Rusiyaya satmaq idi. İndi də Rusiyanın əleyhinə qorxusundan bir kəlmə danışmır. Bir dəfə də olsun dilinə gətirmir ki, mən hakimiyyətdə ola-ola Rusiyanın 366-cı alayı erməni quldurları ilə birlikdə Xocalıda dinc azərbaycanlılara qarşı soyqırım törədib. Rusiyaya mütilik onu həmişə o vəziyyətə gətirib ki, hələ də elə düşünür ki, hakimiyyətdən getməsəydi rayonlarımız işğal olunmayacaqdı, guya Rusiya ermənilərə bizim torpaqlarımızı işğal etməyə imkan verməyəcəkdi. Bu adam fərqində deyil ki, Qarabağ müharibəsinin ən dəhşətli hadisəsi Xocalı soyqırımı məhz onun prezidentliyi zamanı həyata keçirilib. Rusiya Ayaz Mütəllibova görə ermənilərə ”Azərbaycan torpaqlarını işğal etməyin" xəbərdarlığın edən və işğalın qarşısını alan idisə Xocalıda görünməmiş qırğın törədilməzdi. Ayaz Mütəllibov danışanda heç olmasa azacıq məntiqlə danışsın".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019



# "İstərdik prezidentlə görüşək"-QHT sədri

## Ekspertlər siyasi islahat paketi və əfv gözləntisindən danışdılar

**Azərbaycan hökumətinin "fevral inqilabı" kimi xarakterizə edilən son sosial dəyişikliklərin davamı olaraq siyasi hərəkətlənmə də gözlənilir. Müşahidəçilərin fikrincə, iqtidarın sosial-iqtisadi açılımı siyasi müstəvidə öz əksini tapa bilər. Xüsusən Novruz bayramı ərəfəsində gözlənilən böyük əfv fərmanına bir çox siyasi məhbus elan edilmiş dustaqların düşməsi istisna edilmir.**

Çünki hakimiyyətin son davranışlarının və prezidentin verdiyi fərmanların, qərarların məntiqi davamı olaraq siyasi fazada da ciddi yumşalmalar, dəyişikliklər olmalıdır. İddia olunur ki, siyasi reformaların başlanğıcı olaraq sabiq səhiyyə naziri Əli İnsanov əfv edilə bilər.

14 ildir ki, həbs həyatı yaşayan eks-nazirlə bərabər vicdan məhbusları kimi tanınan digər dustaqlar da azad oluna bilərlər.

Hazırda Əfv Komissiyası işləyir, hüquq müdafiəçiləri öz siyahılarını təqdim ediblər, nəzərlər prezidentdədir və bayramqabağı əfv fərmanına kimlərin düşəcəyi intizarla gözlənilir.

**Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu "Yeni Müsavat"a bildirdi ki, məhkəmə-hüquq sistemində ciddi islahatlar başlanıb:** "Bu islahatlar davam edəcək, prezident də məhkəmə sistemində dəyişikliklər olacağının anonsunu verdi. Biz də dəstəkləyirik və davamı olaraq, əfv fərmanı verilərsə çox sevinərik. Cəmiyyətin əsas gözləntisi əfvdir".

**N.Cəfəroğlu qanunlarda boşluqlar olduğunu və əsaslı düzəlişlərə ehtiyac yarandığını qeyd etdi:** "Biz əsasən qadınların hüquqlarının müdafiəsi ilə məşğuluq və əksər məhkəmə işlərini uduruq. Amma bir sıra işlər var ki, onları qaldıracağıq. Əsas qanunlarda olan boşluqlardır, onlar dəyişməlidir. İslahatlar aparmaq üçün o boşluqlara düzəliş edilməlidir ki, məhkəmələr də ədalətli qərar versinlər. Çünki hər iki tərəf bundan istifadə edir. Məsələn, ata varlıdırsa, uşaq onda qalmalıdır. Axı uşağı anadan təcrid etmək olmaz. Başqa misal deyim, 13 il yaşayırlar, 3 uşaq var, boşanıb. Qanuna düzəliş olunmalıdır və boşanmış ər həmin uşaqlarla bərabər qadına da baxmalıdır. Bütün dünya bunu edir".

**Hüquq müdafiəçisi prezidentlə görüşmək istədiklərini də vurğuladı:** "Biz QHT rəhbərləri istərdik ki, prezidentlə görüşək. Çünki QHT-lərin əli ilə dövlətçiliyi qorumaq üçün müəyyən işlər görülməlidir. Axı hökumətin əli çatmadığı işi biz görürük. Kənddə insanlar islahatların mahiyyətini bilmirlər. Elə adamlar var ki, pensiyaya necə çıxırlar xəbərləri yoxdur. Bunları izah etmək vacibdir.

Milli Demokratiya İnstitutu varıydı, onlardan çox şey öyrəndik. Yeni institutlar yaradılmalıdır. Özümüzün olan. Kənardan gəlməyən İnsan Haqları Evi yaratmaq lazımdır, normal və vətənpərvər adamlar işə cəlb edilməlidir. Bu islahatlar mütləqdir".

**"Turan" informasiya agentliyinin direktoru, siyasi ekspert Mehman Əliyevin fikrincə, iqtisadi islahatlar konseptual və sistemli olmalıdır. O hesab edir ki, siyasi məhbusların azadlığa buraxılması ilə müəyyən dərəcədə gərginlik azala bilər:** "Amma kordinal dəyişikliklərə ehtiyac var. Hamısı həllini gözləyir və onsuz da bu islahatları edəcəklər. Hakimiyyət bunu görür, dəyişikliklər getdikcə genişlənəcək, çünki cəmiyyət oyanıb".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

---

**Martın 5-də Bakıda "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" adlı beynəlxalq konfrans keçirilib.**

# "Ölkəni qorumaq onu avtomatla qorumaq deyil ki?" - Şeyx

## Bakıda "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" adlı beynəlxalq konfrans keçirilib; QMİ sədri: "Vəhhabi dostlarım da var"



Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışında deyib ki, ölkədə dini-mənəvi irsə ehtiram, müxtəlif mədəniyyətlərin dialoqu, tolerantlıq ənənələri olduqca yüksək səviyyədədir: "Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. Bu bizim qürur mənbəyimizdir. Təbii ki, burada siyasi iradə böyük önəm daşıyır".

**A.Paşazadə vurğulayıb ki, prezident İlham Əliyevin qlobal miqyasda dəyər kəsb edən təşəbbüsləri bəşəriyyətin ümumi inkişafına, sülh və dinc birgəyaşayış amallarına xidmət edir.** "Təəssüf ki, hazırda dünyada humanitar fəlakətlər, insan qırğını, miqrant böhranı kimi hallar gündəmdədir. 20 faiz torpağı erməni ekstremistləri tərəfindən işğal olunmuş, bir milyondan artıq soydaşı qaçqın-məcburi köçkün taleyi yaşamağa məcbur olan, Xocalı soyqırımına məruz qalmış Azərbaycan xalqı ən ağrılı problemimiz olan Qarabağ münaqişəsinin müharibə yolu ilə deyil, beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə ədalətli həllinin tərəfdarıdır. Bu gün bütün problemlərin fövqündə duran sülhün qorunması probleminin həllində, habelə terrorizm, islamofobiya, antisemitizm, ekstremizm və radikalizmin önlənməsində dövlət rəhbərlərinin, ictimai və dini qurum liderlərinin birgə əməkdaşlığı vacibdir. Konfessiyalararası anlaşma, dinlərarası dialoq, müxtəlif din xadimlərinin əməkdaşlığı - milyonlarla insan üçün ən gözəl örnəkdir. Məzhəbindən asılı olmayaraq bölgə müsəlmanlarının tarixi dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsi dinlərarası dialoq sahəsində malik olduğu təcrübəni məhz bu istiqamətdə davam və inkişaf etdirir. Azərbaycanda din-dövlət münasibətlərinin yüksək səviyyəsi bütün bu uğurlarımıza rəvac verən məqamlardandır", - Şeyxülislam bildirib.

Şeyxülislam bildirib ki, bu il noyabrın 14-15-də dünyanın dini liderlərinin Azərbaycanda toplanması nəzərdə tutulur.

**Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov deyib ki, Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin edilməsi ölkəmizin daxili siyasətinin tərkib hissələrindədir:** "Azərbaycan dövləti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşır. Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin edilməsi ölkə qanunvericiliyində öz əksini tapıb".

**E.Nəcəfov bildirib ki, Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasına nümunə kimi milli etiqad azadlığı ilə yanaşı, bütün din və məzhəblərin qanun qarşısında bərabər olması qeyd edilməlidir:** "Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Buna baxmayaraq, dövlət dinlər arasında heç bir ayrı-seçkiliyə yol vermir. Dövlət-din münasibətlərinə dair daha bir nailiyyət ondan ibarətdir ki, dövlət bütün dini qurumların hər birinə lazımi kömək, o cümlədən maliyyə dəstəyi göstərir. Son dövrlərdə Bakıda və regionda çoxsaylı rus pravoslav, gürcü pravoslav, alban-udin kilsə və məbədləri, yəhudi sinaqoqları əsaslı təmir edilib".

Şöbə müdiri əlavə edib ki, Azərbaycanda dini azadlığın yüksək səviyyədə təmin edilməsi, bütün dini məzhəblərin qanun qarşısında bərabər olması, dini qurumlara dövlət dəstəyinin göstərilməsi öz məntiqi nəticəsi kimi ölkə daxilində dinlərarası münasibətlərin qarşılıqlı hörmət əsasında qurulmasına səbəb olub. (Trend)

**"Azərbaycan mədəniyyətlər, dinlərarası münasibətlərin həyata keçirilməsində mühüm rol oynayır". Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı beynəlxalq konfransda belə deyib.**

**Onun sözlərinə görə, Azərbaycan özünəməxsus dövlət-din modelinə malikdir:** "Azərbaycan dinlərin, mədəniyyətlərin qovşağı olan dövlət kimi dünyaya öz modelini göstərib. Bakı bu müzakirələrdə mərkəz şəhər kimi çıxış edir".

**M.Qurbanlı xatırladıb ki, bu gün Azərbaycanda 909 dini icma qeydiyyatdan keçib:** "Onlardan 32-si xristian dini icmalarıdır, yəni qeyri-müsəlman dini icmalardır. Azərbaycan əhalisinin 96 faizi müsəlmandır, yerdə qalan 4 faiz müxtəlif dini konfessiyaları özündə əks etdirir və onların ölkədə hərtərəfli fəaliyyəti üçün hər şərait yaradıb" (*yazıda "Report", "Trend" və strateq.az-ın xəbərlərindən istifadə olunub*).

**Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycan dini etiqad, vicdan azadlığı baxımından dünyada nümunə göstərilə biləcək ölkələr sırasındadır, bəlkə də bu ölkələrdən birincisidir:** "Azərbaycan müxtəlif dinlərin, sivilizasiyaların qovşağında yerləşən ölkədir. Bu xüsusiyyətimiz xalqımızın xarakterinə, tarixində əksini tapıb".

"Mənim xristianlarla da, müsəlmanlarla da dost münasibətim var. Sünnilər, şiələr arasında dostlarım çoxdur. Hətta vəhhabi dostlarım da var".

Bakupost.az-ın məlumatına görə, bu sözləri QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə deyib. O, konfransdan sonra keçirdiyi mətbuat konfransında amerikalı jurnalistin sualına cavabında belə deyib.

**Allahşükür Paşazadə deyib ki, xaricdə bəzi insanlar Azərbaycana zərbə vurmaq, onu baltalamaq istəyir. Şeyxülislam bildirib ki, haqqı eşidib onu müdafiə etməmək özü də bir günahdır:** "Bu gün biz dövlətimizi necə qoruyuruq? Ölkəni qorumaq onu avtomatla qorumaq deyil ki? Dövləti müdafiə etmək həm də dövlət rəhbərinin fikirlərini müdafiə etmək, onun dediklərini yerinə yetirməkdir. Bunun əksini edənlər dövlətçiliyimizi bilməyənlərdir. Bunu arxasında dayanan bəzi qüvvələr var".

**QMİ sədri prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşünə də toxunub:** "Prezident mədəniyyət işçiləri görüşdü, ona çoxlu suallar verildi. Bəs soruşum görüm bu dövləti, onun rəhbərini qorumaq, onun dediklərini yerinə yetirmək üçün siz ictimaiyyət, ziyalılar nə edirsiniz, atdığınız addımlar nələrdən ibarətdir? Biz bunu gözləyirik. Mən də bunu gözləyirəm".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

# "Mənim tələbim o deyildi ki, həbsxanada kabab versinlər"

## Mehman Hüseynov: "Prezidentə müraciəti özüm yazıb və imzalamışam"

**İki illik həbs müddətini başa vuran bloger Mehman Hüseynov martın 5-də evində mətbuat konfransı keçirib.**

O bildirib ki, həbsxanada olduğu müddətdə mübarizəsini davam etdirib: "Bu mübarizə mənə ağır başa gəlib. İlk növbədə bu müddətdə anamı itirdim. Bilirsiniz ki, qardaşlarımın biri xaricdədir, biri də Naxçıvanda əsgərdə. Düşünürdüm ki, anamı itirdikdən sonra çökəcəyəm. Lakin gördüm ki, çox güclüyəm və itkilərə baxmayaraq, mübarizəni davam etdirdim. İlk öncə azadlıqda olmağımın səbəbkarlarına təşəkkür edirəm. Bu, ilk növbədə Azərbaycan xalqıdır. Xalq mən aclıq edən, mübarizə aparan zaman yanımda olub. Bundan əlavə, Avropa Parlamentinin deputatları, Amerika senatorları, beynəlxalq və yerli qurumlar aclıq keçirən zaman mənə dəstək oldular. Mənimlə birlikdə digər dostlarımız da aclıq aksiyası keçirirdilər ki, onlara da təşəkkür edirəm. Siyasi partiyalara, Milli Şuraya təşəkkür edirəm ki, mitinq təşkil ediblər. Həbsdən çıxan zaman jurnalistlər məni burada üç-dörd saat gözləyib. Bunu dəyərləndirməliyəm. Ancaq jurnalistlər də başa düşməlidirlər ki, mən iki il ərazində əziyyət çəkirdim. Azad mətbuata çıxışım yox idi, telefon çətinliyim vardı. Bilmirdim ki, çöldə nə baş verir. Ona görə də azadlığa çıxan zaman jurnalistlərə bildirdim ki, icazə verin iki gün məlumatları araşdırım. Bu iki gün ərzində araşdırma edib, mitinqdə baş verənlər, bütün yaşananlar haqqında məlumat topladım. Mənim üçün mübarizə aparanlara təşəkkür edirəm".

**O, barəsində açılan və sonra xitam verilən cinayət işi haqda da danışıb:** "Heç bir ağlı başında olan insan həbsinin başa çatmasına iki ay qalmış təxribata uymazdı. Hadisə ilə bağlı bildirim ki, belə bir hadisə, ümumiyyətlə, baş verməyib. Əvvəllər də siyasi məhbuslara qarşı cəzanın sonuna yaxınlaşanda təxribatlar olub. Düşünürəm ki, təxribatla üzləşən insanlar bəlkə vaxtında düzgün addım atmayıblar deyə, mənim də başıma belə işlər gəlib. Cinayət işinin açılması ilə bağlı xəbər aldığımda bildirdim ki, cəzama iki ay qalıb və 2 mart tarixi mənim üçün çox önəmli olacaq". **M.Hüseynov deyib ki, bu səbəbdən aclıq aksiyası keçirib, sudan belə imtina edib:** "Bunları həbsdən qorxduğum üçün etmirdim. Həbsdən qorxan insan mənim kimi fəaliyyət göstərməzdi. Bu hadisə mənim üçün prinsipial məsələ idi. Aclıq aksiyası zamanı huşumu da itirdim. Aclıq aksiyası keçirənlər aclığın nə olduğunu yaxşı bilirlər. Bu, çox çətin proses idi. Qərar vermişdim ki, haqsızlıq aradan götürülənə qədər davam edəcəyəm. Aclıq aksiyasına dekabrın 26-da başlamışdım. Dekabrın 30-da vəziyyətim pisləşib, huşumu itirmək üzrəydim. Həkimlər bildiriblər ki, aclıq aksiyasını dayandırmasam, sistem vasitəsilə yemək yedirdib, çəkib icti maiyyətə göstərəcəyik. Proseslərdə irəliləyiş olduğu üçün sonradan mən yoqurt, süd də qəbul etdim. Bəziləri deyirlər ki, Mehman yemək də yeyib. Bu, doğru deyil. Prezidentə müraciətimə gəlincə isə hamı indi düşünür ki, Mehman bunu boynundan atacaq. Xeyr, açıq şəkildə deyirəm ki, müraciəti özüm yazıb və imzalamışam. Müraciətdə bildirmişəm ki, mən Əli Abdalovu vurmamışam. Bu, mənə qarşı haqsızlıqdır və aradan götürülməlidir. Mübarizənin sonunda saxta cinayət işinə xitam verildi". **M. Hüseynov bildirib ki, müraciətində qardaşı ilə bağlı qeyd olunanları özü yazıb:** "Başa düşmürdüm ki, şərləmə prosesi niyə baş verib. Əgər Emin Hüseynovun hərəkətlərinə görə məndən qisas alırlarsa, onun məsuliyyətini mən daşımıram. Biz bir-birimizi müdafiə edə bilərik, ancaq hərəkətlərimizə cavabdeh ola bilmərik".



**M.Hüseynov onunla görüşən hüquq müdafiəçiləri barəsində də danışıb:** "Onlar çıxıb bildiriblər ki, Mehmanin şəraiti yaxşıdır. Mənim tələbim o deyildi ki, həbsxanaya PlayStation gətirsinlər, kabab versinlər. Tələbim o idi ki, mənə qarşı olan haqsızlıq aradan götürülsün".

**O, Əli Abdalovla barışması barədə bunları deyib:** "Məsələ odur ki, Əli Abdalov çox kiçik fiqur idi. Həmin insan mənə qarşı şərəfsizlik edibsə, görün necə tərbiyə, mədəniyyət almışamsa, onu Azərbaycan xalqının övladı kimi dəyərləndirib, bağışladım. Düşündüm ki, onun da ailəsi var. Onun ailəsinin, valideynlərinin, balaca uşağının heç bir günahı yoxdur. Biz görüşəndə dedilər ki, gizli video çəkəcəyik. Mən dedim ki, bunu açıq edin. Camaat görsün ki, Mehman necə insandır ki, ona qarşı bu cür hərəkət edəni bağışladı. O adamla mənim heç bir problemim olmayıb".

❑ **Əli RAİS,**
**Fotolar: Elçin Əkbərov**

# Azərbaycanla bağlı çirkli pullar müzakirəsi AŞ PA-nın gündəliyindən çıxarıldı

## Səməd Seyidov: "Bunun AŞ PA-nın ikili standartlardan can qurtarmasına yardımçı olacağına ümid edirəm"

**Bəzi təşkilatlarda, eləcə də AŞ PA-da bir qrup insan anti-Azərbaycan mövqeyi tutaraq, qeyri-obyektiv münasibətləri ilə ölkəmizin imicinə xələl gətirmək istəyirlər. AŞ PA-nın hüquq məsələləri və insan hüquqları komitəsində çirkli pulların yuyulmasına dair mövzu gündəlikdə əks olunsa da, icraata qəbul edilməyib və yekdilliklə gündəlikdən çıxarılıb.**



AzərTAc bildirir ki, bu fikirləri AŞPA-nın komitə iclasında iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

**O bildirib ki, Azərbaycan nümayəndə heyətinin apardığı iş nəticəsində martın 4-də Parisdə AŞ PA-nın komitə iclasında yuxarıda adıçəkilən məsələ gündəlikdən çıxarılıb.** "AŞ PA-nın üzv ölkələrində problemlərin araşdırılması və onların həll olunmasında hər hansı bir ölkənin hədəf seçilməsi qəbulolunmazdır. Bütün məsələlər ümumi kontekstdə müzakirə edilməlidir", - deyə S.Seyidov diqqətə çatdırıb.

**Nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, AŞ PA-nın əsas problemlərindən biri daxilində ikili standartları müəyyən edib aradan qaldırmaq istiqamətində səylər göstərməmsidir:** "Bu gün ölkəmizə qarşı bu qərəzli məruzənin gündəlikdən çıxarılmasının həm qlobal problemlərin həllinə, həm də AŞ PA-nın ikili standartlardan can qurtarmasına yardımçı olacağına ümid edirəm".

# Səcdədə vəcdə gələnlər...



**Samir SARI**

**Dünən dostlardan biri sosial şəbəkədə Stalinin əzəmətli büstünün önünə yığışaraq, 66-cı ölüm günündə onun xatirəsini ananların şəklini paylaşmışdı.**

Şəkildə ön planda 22-23 yaşlı bir qırxıqbaş gədə görünür, dizinin birini yerə atıb, başını asfalta dəyəcək qədər əyib, Stalinin büstünə səcdə edir.

Adam nəinki 70-90 il əvvəllər yaşayan, milyonlara rəhbərlik edən Stalini, heç tərifli sovet dövrünü də görməyib, hətta heç Qorbaçovun yumşaq hakimiyyəti illərində də yaşamayıb, amma 50-60 milyon insanı məhv edən müstəbidin qarşısında baş əyir.

Stalin dövrünün məşəqqətlərindən, iztirablarından bu qədər yazıblar, təkzibedilməz faktlarla dolu yüzlərlə kitablar, məqalələr var, bu oğlan onların heç birini oxumayıbmı?

Görünür ki, bu gəncin ya Stalin haqqında informasiyası sıfırdır, ya da o, hər şeyi bilir və deyir, lap yaxşı eləyib.

İkinci variantın olması ehtimalı böyükdür. Çünki indiki gənclər bir adam haqqında informasiya toplamaq üçün basa-basa kitabxanalara-filana getmir, saatlarla kartotekalarda eşələnmirlər, mobil telefonlarını götürür, displeydə klaviaturanı açır, axtarış verirlər. Tutaq ki, "STA" yazan kimi, Stalin haqqında beş-altı milyon mənbədən informasiya çıxır. İkisini oxusa, bəsidir.

Ona qalsa, dünyanın çox yerində Hitlerin manyaklığı, qaniçənliyi haqda hamı məlumatlıdır, amma ona rəğbət bəsləyən, onun da şəkilinin qabağında eynilə o cür, dizini yerə qoyaraq səcdə edən, vəcdə gələn var.

Dünya tarixində Çingiz xandan çox ölkə istila edən, adam öldürən, miylonları əsir edən, qadın zorlayan "fateh" olmayıb, amma onu da müqəddəs sayan milyonlarla adam var. Çindən Macarıstana qədər yüz minlərlə Çingiz adlı adam taparsan. Monqol gəncləri isə il on iki ay Çingiz xanın Monqolustandakı türbəsinin başına fırlanırlar.

Adam bu kimi mənzərələrə baxır və düşünür ki, heç nə yox, kaş zaman maşını olaydı və bu adamları arzu etdikləri, həsrətini çəkdikləri dövrə, sevdikləri rəhbərlərinin hakimiyyəti altına qaytarmaq mümkün olaydı.

Əmin edirəm ki, Stalinin büstünün qabağında ikiqat bükülən o qırxıbaş gədə məhz saçının o almansayağı düzümünə görə gecəylə evindən götürülər, it sürütməsi edilər, ertəsi gün onu dəri gödəkçəli müstəntiqin qabağında məhz o cür vəziyyətə salardılar - dizi yerdə, başıaşağı. Deyərdilər, sən mənfur Qərb gəncini təqlid edərək sovet gəncinin əxlaqını pozursan, satqın antipod... Və gənci basardılar Kolıma, Maqadana, Solovkiyə. Gedib orada konvoyların qabağında bu cür durardı. Adi oğrulan, quldurların daha hörmətli olduğu "zon"larda it gününə qoyulardı, maddəsini nəzərə alaraq "üzdənirağ"a çevirərdilər, onda ağlı başına gələrdi.

Bu, havayı söhbətlər deyil, 1920-ci ildən 1953-cü ilə qədər milyonlarla onun kimi heç nə üstündə tutulmuş gəncləri sınıq-salxaq eşelonlara doldurub Brestdən Xabarovska qədər, yol boyunca həbs düşərgələrinə paylaya-paylaya həftələrlə etap ediblər. Bu saat da tayqanın meşələrində torpağı bir metr qazanda eyzən insan sür-sümüyü çıxır.

Əlbəttə, 70-80 il insanların kütləvi şəkildə çəkdiyi əzab-əziyyəti saat yarımlıq filmlərdə izləmək çox asandır. Oturursan isti evdə, yumşaq divanda, çay, qəhvə içə-içə, ağzına popkorn ata-ata televizorda və ya kompüter monitorunda baxırsan, 1,5 saata bütün məşəqqətlər sona çatır. Bir də var, 25 yaşında həbs düşərgəsinə salınmış gənc oradan 50 yaşında çıxsın (o vaxt insanlara 25 illik cəzalar kəsmək çox yayğın olub). Gənclik bitib, həyat gedib, get, 3-4 əyyaşlıq elə, ölümə hazırlaş. On milyonlarla gəncin nəsibi bu olub.

Ona görə də hansısa təbliğata qapılan və bir müstəbidin abidəsi önündə baş əyən gənc görəndə adamın acığı tutur.

Bu baxımdan fransız gənclər daha ağıllıdır. Nə Napoleon Bonopartın abidəsi önündə əldən gedirlər, nə Şarl de Qolldan ötrü ağlaylb-sızlayırlar. Fransız gənclər anlayırlar ki, əgər Napoleon sağ olsaydı, yenə onları kütləvi şəkildə dəhmərləyib Rusiyanın qarlı çöllərinə aparar, orada qırdırıb geri qayıdardı.

Budur, fransızlar heç demokrat Makrona belə təhəmmül etmirlər, geriyə baxmırlar, yalnız irəli getmək istəyir, daha yaxşı yaşamağa çalışırlar, ona görə də sarı jiletlərini geyib tökülüşüblər meydanlara.

Rus gəncləri isə "dünyanın ən nəhəng ölkəsinin şanlı keçmişi"ndən yapışıblar, elə bilirlər, Stalinin, Xruşovun, Brejnevin dövründə dədə-babaları çox ağ gün görüb.

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019



# Akademik köşə

Zamin HACI
zaminhaci@gmail.com

"Teatr bir millətin yüksəlişini və ya çöküşünü göstərən barometrdir"
***(Fransisko Lorka, məşhur şairin qardaşı)***

**Prezidentin mədəniyyət zəhmətkeşləri ilə görüşünün ilkin nəticələri, meyvələri yetişməkdədir. Örnək üçün, teatrlara 1 milyon 800 min pul ayrıldı, bundan hər birinə 200 min manat olmaqla 6 teatr, hər biri 100 min almaqla yenə 6 teatr (əyalətdəkilər) yararlanacaqdır. Əlbəttə, teatr və dövlət bütün dünyada qarşılıqlı əlaqəsi olan sahələrdir, tarixən belə olmuşdur, hətta Molyerin zamanında kral Lüdovik tamaşalara sponsorluq etməsinin əvəzində bəzi səhnələrdə rol almışdı. Xüsusən indiki elmi-texniki tərəqqi dövründə teatra dövlət qayğısı əslində vacibdir, çünki teatrı özbaşına, bazar iqtisadiyyatının ümidinə qoysan yaşaması çətindir. Yenə qeyd edirəm: bütün dünyada özü özünü maliyyələşdirən, anşlaq yığan, biletləri tapılmayan, nə bilim, iki-üç il qabaqcadan növbəyə yazılıb baxılan teatrlar çox azdır, bizim regionda deyəsən Gürcüstandakı bir-iki teatrı çıxmaqla (Robert Sturua və Rezo Qabriadzenin teatrları) heç yoxdur.**

Ancaq teatrların binaları təmir olunub gözəlləşdikcə, dövlət büdcəsindən yardımlar artdıqca və az qala bütün aktyorlar və aktrisalar təqaüd, fəxri ad, medalla ödülləndikcə səhnəmizin keyfiyyəti aşağı düşür. Fakt budur ki, indi bizdə anşlaq cəhənnəmə, heç bir sünnət toyunun kontingentini yığacaq qədər tamaşaçısı olan teatr, səhnə əsəri yoxdur. Özü özünə "korifey, azman, ustad", nə bilim, "görkəmli sənətkar" yarlıkı yapışdıran aktyorlar var, lakin xalqın sevib tamaşasına son qəpiyini verməyə hazır olduğu sənətkar yoxdur. 1980-ci illərin axırları, 1990-cı illərdə maddi imkanları bundan qat-qat aşağı olan teatr xadimlərimiz xalqın sevimlisi idilər, ortaya bənzərsiz əsərlər qoyurdular. Ad çəkmirəm, ancaq o dövrün teatr tamaşalarından sitatlar indiyədək dillərdə əzbərdir. Hacıbaba Bağırovun o dövrdəki unudulmaz personajlarından birindən sitat vermək istəyirsən: "Nöş belə oldu, Çibuş?" Bizim teatrlar, necə deyərlər, nə yedilər ki, bu kökə düşdülər?

"Azadlıq olmayanda sənət də iflasa uğrayır", yaxud "elə dövlət inhisarı üzündən mədəniyyətimiz çökmüşdür yazmaq istəməzdim". Bu, çox sadə izahat olardı. Mədəniyyət böhranımızın min dənə səbəbi var, kompleks yanaşmalıyıq. Dostumuz, iqtisadçı Natiq Cəfərlinin sevimli ritorikası ilə yazsam, bizimkisi sistem problemidir.

Bu arada iki teatra - Dövlət Musiqili Teatrı və Dövlət Rus Dram Teatrına da öz xahişləri ilə "akademik" adı verildi. Zəhmətkeşlərimiz bilmək istəyir bununla nə dəyişəcək? Bəlkə tamaşaların keyfiyyəti artacaq, yaxud salon dolub daşacaq? Yox. Ortada Akademik Milli Teatrın acı təcrübəsi var. Son illər bu teatr gündəmə tamaşaları ilə yox, səhnə arxası ilə daha çox gəlmişdir. Rejissor aktyoru söydü, aktyor xalq artistini döydü, nə bilim, daha nələr... Ümumiyyətlə, bu "akademik" nə deməkdir? Adına belə söz əlavə ediləndə teatr mexaniki şəkildə Platonun yaratdığı məktəb kimi bir zad olur yoxsa? Dünyada bu mənasız teatr yarlıkı keçmiş SSRİ-nin, bolşeviklərin "kəşfi" kimi qalmaqdadır və yalnız elə keçmiş SSRİ məkanında. Rusiyada, Tacikistanda, Azərbaycanda və bu kimi müttəfiq respublikalarda. Başqa heç yerdə yoxdur. Milli Elmlər Akademiyamızda çobanlar oturub nərd oynayır, akademik ali məktəblərimizdə tələbələr laqqırtı vurur, akademik teatrlarımızda da aktyorlar Keçəl, Kosa, Şaxta baba və Qar qız obrazları qayırıb millətin səviyyəsini artıracaqdır. Vəssalam, şüttəmam. Kor nə istər, iki göz. Şəmi var, Şöşü var, Nadir oxuyur, Zaur göstərir - daha uca millətə nə lazımdır? Bəsimizdir. Teatr yox idi, sabah açılmırdı? Özümüz gül kimi şəbeh çıxardırdıq - məhərrəmlikdə.

Özü də bunun kökünü Axundov o zaman yanlış qoyubdur. Təsəvvür elə, teatrı olmayan millət üçün pyes yazırsan. Nə qədər bekar adam olubdur. Özü də Tiflis kimi gözəl yerdə. A kişi, get çaxırdan iç, "matişkələrlə" əylən da bə.

Hərçənd deyilənə görə, o pyesləri də çar hökuməti sifariş veribmiş, yoxsa yazmazmış. Bax, görürsən, yenə dövlət siyasətidir...

# Qərb pul verməyəcək - İrəvan "iki daş" arasında

## Erməni baş nazirin Brüssel blefi, "dəvəquşu siyasəti"; Paşinyan avropalıların "saqqızını" oğurlaya bilmir; Nikol yenə Avropaya pul üçün yalvardı...



**Tehran səfəri fiasko olan, İranla ciddi heç bir anlaşmaya nail olmayan Nikol Paşinyan indi də Brüsseldə səfərdədir. Bu dəfə o, Avropaya Qarabağ nağılları danışır, Qərblə dostluq nəğmələri oxuyur, işğalçı ölkədə "vüsət alan islahatlar"dan, "demokratik Ermənistan"ın xristian Avropası üçün vazkeçilməz önəmindən dəm vuraraq, ondan pul qoparacağına ümid edir.**

Amma gələn xəbərlərdən hasil olan qənaət belədir ki, Nikol Paşinyan Avropadan yenə "əli ətəyindən uzun" qayıdacaq. Ona nə Qarabağ məsələsində gözlədiyi siyasi dəstək veriləcək, nə də avropalılardan umduğu maliyyə, pul. Səbəb təkdir: Paşinyan "iki stulda oturmaq" siyasəti aparır, istəyir ki, onun bir əlindən Rusiya, o birindən Qərb tutsun, biri silah, hərbi-təhlükəsizlik dəstəyi versin, digəri - Qərb isə maliyyə və siyasi köməyi göstərsin. Bu fonda da xristian dünyasının ərköyün "balası" Dağlıq Qarabağın ilhaqını rəsmiləşdirəcəyinə ümid bəsləyir.

Bunu Paşinyanın Brüsseldəki açıqlamaları, bir yanda Rusiya və İran, o biri yanda isə ABŞ-Avropa Birliyi cütlüyü olmaqla onların arasında manevr eləmək cəhdi bir daha sübut edir. Məsələn, Paşinyan Avropa Parlamentinin Xarici İşlər Komitəsinin iclasında çıxışı zamanı rəsmi Bakıdan giley-güzar edərək deyib ki, Azərbaycan Qarabağ konfliktinin həlli ilə bağlı danışıqlar çərçivəsində ümidləri doğrultmayıb.

"Qarabağa gəlincə, qeyd edim ki, konfliktin hərbi həlli ola bilməz. Biz gərək sülhlə həll üçün atmosfer yaradaq. Bizim hakimiyyət bunun üzərində çalışır. Sentyabrda mən bizim parlamentdə görünməmiş bəyanat səsləndirib dedim ki, istənilən qərar Dağlıq Qarabağın erməni əhalisi və Azərbaycan əhalisi üçün qəbul edilən olmalıdır", - deyə o bildirib. Paşinyan bu bəyanatından sonra Azərbaycan tərəfindən oxşar açıqlama gözlədiyini söyləyib: "Təəssüf ki, ümidlərim gerçəkləşmədi. Əksinə, biz Azərbaycandan konflikti Dağlıq Qarabağ əhalisinin maraqlarını nəzərə almadan hərbi yolla həll etməklə bağlı daimi təhdidlər eşidirik. Biz Azərbaycanı dialoq qurmağa məcbur etməliyik".

*****

Paşinyan əlbəttə ki, növbəti dəfə blef edib. Qarabağ danışıqlarındakı durğunluğa, artan müharibə riskinə görə haqsız yerə Azərbaycanı günahlandırıb. Halbuki Avropa Birliyi, ABŞ konfliktin nizamlanmasında ilk növbədə Paşinyan hökumətindən real addım gözləyir. Qərb rəsmiləri bir neçə dəfə bəyan ediblər ki, işğal altındakı ərazilərin heç olmasa, bir qismi boşaldılmayınca, yəni müharibə riski tam aradan qalxmayınca, Ermənistan qonşu Azərbaycan və Türkiyə ilə əlaqələri qaydaya salmayınca, problemin həllində irəliləyiş mümkün deyil. Demək, münaqişə zonasına, Ermənistana böyük investisiya yatırımlarını da gözləməyə dəyməz.

"Ermənistan rəhbərliyi Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın heç vaxt tam müstəqil olmayacağını anlamalıdır". Bunu isə Azərbaycan XİN-in sözçüsü Leyla Abdullayeva Paşinyanın Brüsseldə Qarabağ bəyanatına münasibət bildirərkən deyib. "Demokratik yolla seçildiyini bəyan edən Ermənistan rəhbərliyi ən azından özü və xalqı qarşısında vicdanlı davranmalı və Azərbaycan ərazilərinin işğalından və əhalinin etnik təmizlənməsindən Ermənistanın və erməni xalqının nə qazandığı sualına cavab verməlidir. Bu çox sadə cavabı mən səsləndirməyəcəm, onu Ermənistan rəhbərliyindən eşitmək istərdim", - deyə o əlavə edib.

*****

**Ermənistanın yeni rəhbərliyi isə deyəsən, sələflərindən də güclü eyforiya içindədir və güman edir ki, onun "dəvəquşu siyasəti", Qarabağ və suverenlik nağılları bu dəfə Brüsseldə ciddiyə alınacaq. Misal üçün, "Yeni Müsavat"ın məlumatına görə, Paşinyan çıxışında deyib:** "Avropa Birliyi bizim qarşımızda geosiyasi oriyentasiya məsələsini qoymur. Şübhə yox ki, bizim Rusiya ilə əməkdaşlığımız çox mühümdür, nədən ki, strateji tərəfdaşlar olaraq qalırıq. Ermənistanın Rusiya və Avropa Birliyi ilə əlaqələrində ziddiyyət yoxdur və ola bilməz. Bu əlaqələr şəffafdır. Bunu da qeyd eləməyi vacib bilirəm ki, bizim AB ilə yaxınlaşmağımız Rusiyaya qarşı qəsdi nəzərdə tutmur, eyni qaydada Rusiya ilə əməkdaşlığımız AB-yə qarşı qəsd demək deyil. Energetika sahəsində biz əməkdaşlığı mühüm sayırıq və bu sahə üzrə Rusiya və İranla əlaqələri inkişaf etdirmək əzmindəyik".

O da diqqətçəkicidir ki, Paşinyan Ermənistanın AB ilə imzaladığı assosiasiya sənədinin tələbinə zidd olaraq, qəza vəziyyətində olan Metsamor AES-i bağlamayacağını bildirib. Yəni faktiki, Brüsselin iradəsi əleyhinə gedərək, Rusiyaya daha bir reverans edib. Bu da anlaşılandır. Çünki "Moskvaya alternativ axtarışı İrəvana baha başa gələ bilər". Bunu iqtisadçı ekspert Natiq Cəfərli axar.az-a deyib.

**Yada salaq ki, Tehran səfəri zamanı Paşinyan İrandan qaz tədarükünü artırmağın mümkünlüyündən danışmışdı. N.Cəfərli isə hesab edir ki, Ermənistanın İranla qaz danışıqları Rusiyanın qazın qiyməti ilə bağlı kəskin artıma getməsinin qarşısını almaq məqsədi güdür. Ekspert sözügedən danışıqları Rusiyanın İrəvana satdığı qazın qiymətinin artırılmasına əks addım kimi qiymətləndirib:** "İranla qaz danışıqları İrəvanın alternativlərin mövcudluğu ilə bağlı Moskvaya mesajıdır və Rusiyanın qazın qiyməti ilə bağlı kəskin artıma getməsinin qarşısını almaq məqsədi daşıyır".

**İqtisadçı bildirib ki, rus qazının Ermənistan bazarından tamamilə kənarlaşdırılması indiki halda mümkünsüzdür:** "Rusiyanın əlində Ermənistana təzyiq etmək üçün böyük imkanları var. Çünki Rusiya təkcə Ermənistana qaz satmır, həm də qazpaylayıcı şirkətdə də böyük paya sahibdir. "Qazprom" Ermənistanda ən böyük payçılardan biridir. Ona görə də Rusiyanın təkcə ölkəyə yox, əhaliyə də qaz satmaq imkanları var. Bu mənada Rusiya nəinki Ermənistana təzyiqləri artıra, həm də qaz müqaviləsi ilə bağlı İrəvanın reaksiyanı da neytrallaşdıra bilər. Moskvanın bundan hansı səviyyəyə qədər istifadə edəcəyini indidən söyləmək çətin olsa da, qaz məsələsi Rusiya ilə Ermənistan arasında kompleks danışıqların tərkib hissəsi kimi yenidən gündəmə gələcək".

*****

**Beləcə, Ermənistan, onun inqilabçı baş naziri Rusiya, İran və Qərb arasında vurnuxur. Faktiki, "iki daş" arasındadır. Paralel olaraq, o, daxildəki "islahatları" geridönməz eləmək üçün Qərbin maliyyəsinə ümid edir, onun "saqqızını" oğurlamağa çalışır.**

"Biz yeni iqtisadi fəaliyyət üçün meydan, mikrobiznes yaratmağa çalışırıq. Elə bir meydan ki, orada insanlar vergidən azad olacaqlar. Biz həmçinin investisiya mühitini yaxşılaşdırmaq üçün qanunverici düzəlişlərə hazırlaşırıq. Buna paralel infrastrukturları inkişaf etdirəcəyik. Bundan ötrü isə bizə Avropa Birliyinin texniki və maliyyə köməyi lazımdır". "Yeni Müsavat"ın məlumatına görə, bunu da Nikol Paşinyan Avropa Parlamentindəki çıxışı zamanı bildirib.

Ancaq belə bir kömək olmayacaq, gözlənilmir. Qərb (ABŞ və Avropa Birliyi) "məxməri inqilab"dan sonra da Rusiyanın ağuşunda qalmaqda, onun regionda yeganə hərbi qalası missiyasını can-başla yerinə yetirməkdə davam edən Ermənistana böyük sərmayələr verməyəcək. Verə bilməz. Bu, Qərbə inteqrasiyanın fəlsəfəsinə zidd olardı. Ən əsası, Qərbdə bunu dönə-dönə Paşinyanın özünə də anladıblar. O isə hələ də nağıllara inanır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən səsləndirilən son bəyanatda xalqların sülhə hazırlanmasından söz açılması Azərbaycan və Ermənistanda gündəmin əsas mövzusuna çevrilib. Hər iki xalqın necə sülhə hazırlanacağı, bu planın tərkib hissəsinin nədən ibarət olduğu geniş suallar doğurub.**

# Xalqlar sülhə necə hazırlanır - Azərbaycan və erməni müxalifətinin oxşar ittihamı

## Nəzakət Məmmədova: "Müharibənin nəticələri aradan qalxmamış sülhdən danışmaq mənasızdır"

Təsadüfi deyil ki, hər iki ölkənin müxalifəti bundan hakimiyyətə qarşı istifadə edirlər. Azərbaycan müxalifəti bununla iqtidarın Qarabağı güzəştə gedə biləcəyini deyir. Eyni ilə düşmən ölkədə hazırda müxalifətin həbsdəki sədri, sabiq prezident Robert Köçəryan rəqibi, baş nazir Nikol Paşinyanın Dağlıq Qarabağı Azərbaycana qaytarmaq istədiyini, lakin buna imkan verməyəcəyini deyir.

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a öncəliklə dünya praktikasında xalqları necə sülhə hazırlamaqla bağlı təcrübələrdən söz açdı: "Xalqları sülhə hazırlamaq dedikdə ağlımıza ilk gələn fikir odur ki, xalqların beynindəki düşmən obrazı silinməyə çalışılsın, ədavət aradan qaldırılsın, yenidən əvvəlki dövrlərdə olduğu kimi dinc yanaşı yaşamanın mümkünlüyü təlqin olunsun və s. Çünki 30 il davam edən münaqişə azərbaycanlılar və ermənilər arasında dərin ziddiyyətlər yaradıb, nifaq, ədavət yaradıb və onun aradan qaldırılması belə asanlıqla mümkün olmayacaq. Rusiya imperiyasının himayəsi ilə ermənilərin Qafqaza kütləvi köçürülməsi burada 1905, 1918-ci illərdə müsəlman qırğınına səbəb olmuşdu. Lakin ruslar iki xalq arasındakı düşmən obrazını unutdurdular. Sovet zamanı Azərbaycan-Ermənistan qardaşlığı təlqin olundu. Sual olunur ki, bəs bundan sonra necə olacaq?! Sovet vaxtı burada tək söz sahibi, ideologiyanı müəyyən edən ruslar idisə, indi prosesə çox oyunçular qoşulub. ABŞ, Avropa, İran və s. Oradakı erməni diasporası da qızışdırıcı rol oynayır. Belə mürəkkəb bir şəraitdə sülh baş tuta bilərmi, tutsa da bunun, nə qədər müddət davam edəcəyi sual altındadır. Fikrimcə, Azərbaycan xalqı bunu belə tezliklə qəbul etməz. Əvvəla, müharibənin nəticələri aradan qalxmamış sülhdən danışmaq mənasızdır. İnsanlar müharibənin ağrı-acısını hələ öz üzərlərində, gündəlik həyatlarında hiss edirsə, hansı sülhdən danışmaq olar? Səmərəli sülhdən o vaxt danışmaq olar ki, müharibə tam başa çatsın, təcavüzkar tərəf layiqli cəzasını alsın, hərbi canilər tribunalda mühakimə olunsun, əsir və girovlar bir nəfərə kimi azad edilsin, Ermənistan Azərbaycana dəymiş mənəvi zərərə görə üzr istəsin, maddi ziyana görə təzminat ödəsin və s. İşğalın bütün nəticələri aradan qaldırılsın. O zaman sülhə hazırlıqdan danışmaq olar. İndiki şəraitdə isə bu, mənasızdır. Ermənistan səhvini etiraf etməli, bir daha Azərbaycana qarşı ərazi iddiası irəli sürməyəcəyinə dair öhdəlik götürməlidir. Bütün müharibələr o zaman başa çatıb və sülh o zaman dayanıqlı olub ki, işğalçı layiqli cəzasını alsın. Sülhə hazırlama ATƏT-in Minsk Qrupundan gəlir. Onlar hamısı böyük müharibələr keçmiş ölkələrdir. Sual olunur, almanlar SSRİ ərazisini işğaldan azad etməmiş, SSRİ ilə Almaniya anlaşdımı ki, rus və alman xalqını sülhə hazırlayaq? Fransa işğal altında olan zaman fransızlarla almanlar xalqları sülhə hazırlayırdımı? Doğrudur, digər həmsədr ABŞ ərazisi coğrafi baxımdan əlçatan olmadığı üçün işğal oluna bilməmişdi, amma ABŞ da müharibədə iştirak edirdi. Nəticə nə oldu? Almaniya özü dörd işğal zonasına bölündü, daha sonra iki yerə parçalandı, bir daha müharibə etməmək öhdəliyi götürdü və s. İşğalçı cəzalanmasa, heç vaxt heç bir beynəlxalq təşkilat təcavüzə məruz qalan xalqın yaddaşından işğalçını silib, onun simasında dost obrazı yarada bilməz. Xatırlayırıq ki, Azərbaycan-Ermənistan düşmənçiliyini aradan qaldırmaq üçün bir neçə dəfə kommunikasiyaların bərpası, ticarət əlaqələrinin qurulması yolu ilə azərbaycanlılarla ermənilər arasında yaxınlaşma təklifləri səslənib, bunun üçün beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən işlər görülüb. Həm də təkcə Ermənistan və Azərbaycan arasında yox, Türkiyə və Ermənistan arasında da Qarsda ortaq mətbəx nümunələri və s. Yaxud "Sarı gəlin" mahnısının bölgə xalqlarının ortaq nəğməsi olması kimi cəfəng ideya təbliğ olunurdu. Etiraf edək ki, dörd bir tərəfimizdə milyonlarla azərbaycanlı olmasına baxmayaraq, biz lazımi dəstəyi görmürük. Nəinki görmürük, hətta sirr deyil ki, İranda yaşayan azərbaycanlılardan Qarabağda və Ermənistanda ticarətlə məşğul olanlar az deyil, Gürcüstan azərbaycanlıları uzun illər Sadaxlı bazarında ermənilərlə alver edirdi. Hətta Tomas de Val kitabında bunu xalqların sülhə yaxınlaşmasına ümid kimi göstərmişdi. Yaxud Xankəndində ermənilərin Azərbaycan musiqiləri dinləməsini.



Ərazisinin beşdə bir hissəsi işğalda olan, on minlərlə şəhid vermiş, qaçqın düşmüş xalq erməniləri özünə dost bilə bilərmi?!

Üstəlik, erməni xalqı, ümumiyyətlə, sülh barədə düşünmür. Sülh ikitərəfli, qarşılıqlı olmalıdır. Lap tutalım ki, biz sülh əlimizi uzatdıq, ermənilərin o əli tutacağına inanmaq sadəlövhlük olardı. Onlar fikirləşir ki, müharibə ilə alınan torpaq sülhlə qaytarıla bilməz. Bunu onların sosial şəbəkələrdə, mətbuatda olan yanaşmasından müşahidə edirik. Eyni zamanda rəy sorğuları, jurnalist araşdırmaları, sosioloji sorğular əksər ermənilərin sülh istəmədiyini qeyd edir. Hətta ABŞ-ın İrəvandakı keçmis səfirinin də təəccübü xatirimizdədir.

Xüsusi vurğulamaq istərdim ki, ədalətli sülh şərtləri olmasa, o müharibə bitmiş sayılmaz və yenidən alovlanması ehtimalı yüz faizdir. Heç sülh müqaviləsinin şərtləri belə açıqlanmadan, xalqları sülhə hazırlamadan söhbət gedirsə, sual ortaya çıxır: hansı sülhə?! Birdən-birə bir azərbaycanlı gecə yatıb, səhər yuxudan oyanıb deyə bilərmi ki, mən artıq sülhpərvərəm, müharibə istəmirəm, erməni bizim dostumuzdur?! Sülh, barış arzusu xalqın beynində təkamül yolu ilə formalaşmalıdır. İnsan gördüyünə inanır. İngilislərin bir atalar sözü var: görmək, inanmaqdır. Azərbaycanlılar görsə ki, ermənilər öz əməllərindən peşman olub, bəlkə o zaman sülh barədə düşünə bilərlər. Hətta bu halda belə bu, birdən-birə mümkün deyil, illər lazımdır. Sülhə hazırlanmalı olan bir xalq var, o da ermənilərdir. Torpaq iddiasını onlar irəli sürüb, müharibəyə başlayıblarsa, onlar da geri çəkilməli, sülh çağırışlarına məhəl qoymalıdırlar. Azərbaycan dövləti hər zaman sülh istəyib, burada müharibə ritorikası ilə çıxış edən Ermənistandır, öz xalqını da sülhə o hazırlamalıdır. Ən böyük məsuliyyət Ermənistanın üzərinə düşür".

**Politoloq müxalifətin hökumətə yönəlik ittihamlarına da toxundu:** "Doğrusu, hakimiyyətin Qarabağın Azərbaycandan qoparılıb Ermənistana verilməsinə razılıq verməsi inandırıcı deyil. İlham Əliyev bunu etsəydi, niyə bu qədər uzun illərdə danışıqlar aparır, beynəlxalq təzyiqlərə müqavimət göstərirdi? İstənilən hakimiyyət bunu etsə, xalqın etimadını itirə bilər. Qarabağ Azərbaycan xalqı üçün ölüm-qalım məsələsidir. Ona görə də hakimiyyətin bu məsələdə güzəştə gedəcəyinə inanmıram. Ehtimal ki, güzəşt Ermənistandan tələb olunur, lakin təkcə erməniləri sülhə hazırlamaq çağırışı səslənsə, bu, böyük səs-can ən böyük güzəşti edib Qarabağa ən yüksək muxtariyyət təklif edir, ondan böyük güzəşt təslimçilik, Qarabağın Ermənistana verilməsidir ki, nə Azərbaycan xalqı, nə ölkə hakimiyyəti heç vaxt bununla razılaşmaz. Müxalifət bu məsələyə münasibətini ehtimallar əsasında irəli sürür, çünki danışıqlar açıq getmir və ortada konkret fakt yoxdur. Ehtimal əsasında hakimiyyəti ittiham etmək, məncə, doğru deyil, əgər deyilsəydi Qarabağı güzəştə gedirik, o zaman bu narahatlıq başadüşülən olardı. Lakin indi fərziyyələr əsasında mülahizə yürütmək əsassızdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Vidadi İsgəndərlinin "Fransa üçün vuruşmağa hazır olmasına" müxalifətdən sərt reaksiya

## "Siyasi mübarizədə heç kəs, yaxud tərəf əxlaqa və qanuna zidd vasitələrdən istifadə etməməlidir"

**Fransada yaşayan Vidadi İsgəndərli videoçıxışında deyib ki, mən bu gün Fransa ordusunun əsgəri olub Fransanı qorumağa hazıram, amma sabah İlham Əliyev Qarabağ müharibəsi elan etsə, mən əlimdə avtomat Qarabağa yox, İlham Əliyevin üzərinə gedəcəyəm.**

Vidadi İsgəndərlinin bu fikirləri Azərbaycan cəmiyyətində narazılıqla qarşılanıb. Sosial şəbəkədə onu hətta vətən xaini adlandıranlar da var. Hakimiyyətə qarşı müxalifətdə olan siyasi qüvvələr belə, bildirirlər ki, Vidadi İsgəndərli hakimiyyəti özünə siyasi düşmən saysa belə, əldə silah torpaqlarımızı işğal edən milli düşmənə-erməniyə qarşı döyüşmək lazımdır, siyasi düşmən etdiyin qüvvəyə qarşı isə silahla mübarizə aparılmamalıdır, mübarizə sivil siyasi mübarizə olmalıdır.

**VİP sədri Əli Əliyev bu barədə "Yeni Müsavat"a bildirdi ki, Vidadi İsgəndərlinin mövqeyini bölüşmür, düzgün saymır:** "Onun fikirlərini şərh etmək istəmirəm. Hesab edirəm ki, siyasi mübarizədə heç kəs, yaxud tərəf əxlaqa və qanuna zidd vasitələrdən istifadə etməməlidir. Silah isə torpağımızı işğal edənlərə qarşı çevrilməlidir. Bu mənim mövqeyimdir".

**AĞ Partiyanın sədri Tural Abbaslı da bildirdi ki, Vidadi İsgəndərli və ya Avropadakı başqa hər hansı bir şəxsin fikirlərini geniş şərh etmək istəmir. Silahı millətimizə düşmən kəsilən işğalçı ermənilərə yönəltmək lazımdır:** "Vidadi İsgəndərli güman edirəm ki, nə dediyini bilir və dediklərinin yaratdığı mənəvi və hüquqi məsuliyyətdən xəbərdardır. Mənim bir siyasətçi, partiya rəhbəri və nəhayət, sadə vətəndaş kimi bu məsələdə mövqeyim birmənalı olaraq birdir. Bu da ondan ibarətdir ki, Qarabağ məsələsində mənim üçün heç bir partiya, iqtidar, müxalifət, siyasi, iqtisadi maraq yoxdur. Məncə, hər bir Azərbaycan vətəndaşı üçün də belə olmalıdır. Mənim üçün və AĞ Partiya üçün Qarabağın azadlığı uğrunda Azərbaycan xalqı və işğalçı düşmən var. Mən kimin hakimiyyətdə olmasından asılı olmayaraq əlində silah sıravi əsgər kimi torpaqlarımızın azadlığı uğrunda ölməyə və öldürməyə hazıram.



Bizim bugünkü iqtidara qarşı mübarizə metodumuz isə aydındır. Biz istənilən silahlı və qanundankənar metodlarla hakimiyyətə qarşı mübarizənin əleyhinəyik. Biz Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunları çərçivəsində öz müxalifkik fəaliyyətimizi davam etdiririk və bu sona qədər də belə olacaq. AĞ Partiya hakimiyyət uğrunda sona qədər mübarizə aparacaq, ancaq bu o demək deyil ki, biz hakimiyyətə gəlmək üçün hər yolu məqbul hesab edirik. Bizim üçün ilk növbədə dövlətimizin və xalqımızın milli maraqları öndə gəlir. Zatən AĞ Partiya hakimiyyəti xalqa və millətə xidmət etmək üçün bir vasitə gördüyü üçün bu uğurda siyasi mübarizə aparır. Yoxsa ki, biz bəziləri kimi şəxsi maraqlarımız naminə mübarizə aparmamışıq və bundan sonra da aparmayacağıq".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc bildirdi ki, silahlı mübarizəni hər kəs torpaqlarımızı işğal edən Ermənistana, ermənilərə qarşı aparmalıdır. Çünki bu məsələ milli məsələdir:** "Xalq bütünlüklə, eləcə də hər bir fərd öz hakimiyyəti ilə birlikdə ərazisini işğal etmiş, 10 minlərlə övladını qətlə yetirmiş, 10 minləri şikəst etmiş, yüz minləri öz yurd-yuvasından didərgin salmış, malını-mülkünü talamış, yandırmış, dağıtmış, 20 faiz ərazisini işğal etmiş düşmənə qarşı döyüşməlidir. Bu müharibəni, döyüşü hakimiyyət komadası xalqla birlikdə aparmalıdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Qafqazın Tovuzdakı "Ayaks"ı geri dönür

## Vidadi Əhmədov: "Futbolla əlaqədar bütün inqilablar Tovuzda olub"

**Tovuzda futbol akademiyası yaradılacaq. Bununla bağlı AFFA İcraiyyə Komitəsinin martın 4-də keçirilən yığıncağında qərar qəbul edilib. Bu barədə mətbuata AFFA-nın baş katibi Elxan Məmmədov məlumat verib. O, may ayına qədər layihənin hazır ola biləcəyini vurğulayıb.**

*Yerli futbolçular yetişdirmək baxımından Qafqazın "Ayaks"ı adlandırılan Tovuzun "Turan" klubunun qurucusu, fəxri prezidenti Vidadi Əhmədovla Azərbaycan futbolu ilə bağlı bu və ya digər məsələləri dəyərləndirdik.*

***- Vidadi bəy, AFFA-nın bu qərarı ilə bağlı nə deyə bilərsiniz? Niyə məhz Tovuz?***

- Bu qərarı çox müsbət qiymətləndirirəm. Hesab edirəm ki, bu qərar Tovuz futbol məktəbinin və ümumilikdə Azərbaycan futbolunun inkişafına çox fayda verəcək. Yəqin ki, AFFA rəhbərliyi bunları düşünərək futbol akademiyasının Tovuzda yaradılmasına qərar verib. Tovuzda yüz illərlə futbol olub. Tovuz futbol ictimaiyyəti adından AFFA rəhbərliyinə bu qərarla əlaqədar öz dərin təşəkkürümü çatdırmaq istəyirəm.

***- Tovuz futbol məktəbi bundan sonra Azərbaycan futboluna nələr verəcək?***

- Bunu zaman göstərəcək. Düşünürəm ki, ciddi faydalar verə biləcəyik. Hazırda kənardan seyrçiyəm. Amma yeri gələndə Tovuzun futbolu ilə əlaqədar müxtəlif xahişləri ayrı-ayrı şəxslərə çatdırmışam, fikirlərimi söyləmişəm. Bəzi şəxslərin bu futbol məktəbinə cəlb olunmalarında, köməklik göstərmələrində əlimizdən gələni etmişik.

***- İki il öncə "Turan" Azərbaycan Premyer Liqasına geri döndü. Lakin maliyyə ucbatından əsas liqada oynaya bilmədi. Həmin vaxt klubu heçmi xilas etmək mümkün deyildi?***

- Yüksək liqada iştirak üçün müxtəlif tələblər lazımdır. "Turan" isə həmin ərəfədə o tələbləri yerinə yetirməkdə iqtidarında deyildi. Düşünürəm ki, AFFA həmin vaxt çox düzgün qərar qəbul edib, "Turan"ın əsas liqada iştirakını təmin etmədi. Çünki klub iştirak edib sonradan çıxışını davam etdirməyə də bilərdi. O zaman "Turan"ın gücü birinci liqaya yüksəlməyə yetdi. Əsas maliyyə səbəbindən iştirak edə bilmədik. Maliyyə olsaydı tələbləri yerinə yetirmək çətin olmazdı.

***- Tovuz futbol məktəbinin ənənələri barədə də oxucularımızı tanış edərdiniz...***

- Tovuzda futbol hələ Çar Rusiyası dövründə belə olub. Hər zaman Tovuz Azərbaycan futbolunda öndə gedib. Futbolla əlaqədar bütün inqilablar Tovuzda olub. Ötən əsrin 20-ci illərində başqa ölkədən hakim gəlib və burada oyun idarə edib. 40-50-ci illərdə "Neftçi"də Tovuzdan olan futbolçular da iştirak edib. Sonradan "Turan" klubu yaradıldı və Azərbaycanı ilk dəfə UEFA-da təmsil etdi. Ölkəmizdə ilk peşəkar klub da "Turan"dır. Çox sağ olsun ki, AFFA rəhbərliyi belə bir qərar qəbul edib. Tovuzda hər zaman futbol məktəbi olub, hər zaman futbolçu yetişdirilib. Hazırda maliyyə sıxıntısı olsa belə baxırsan ki, Tovuzdan futbolçular yetişir. Hazırda ölkənin bir sıra klublarında Tovuzdan olan oyunçular iştirak edirlər. Bu gün Avropada azərbaycanlı futbolçular yox dərəcəsindədir. İnşallah, bundan sonra Avropaya da qapılar açılar, Tovuzun yetirmələri xarici klublarda iştirak edərlər.



**"Müharibə vaxtı ən çox "Turan"ı onun üçün yaratdıq ki, insanlar rayonun yaşadığını görsünlər"**

***- Qafqazın "Ayaks"ı bundan sonra yerli futbolçulara, yoxsa legionerlərə üstünlük verəcək?***

- Əslində legionerlər lazımdır. Hələ mən "Turan"ın prezidenti olanda ilk dəfə xaricdən məşqçi, legioner gətirdik. Legionerlər elə olmalıdırlar ki, bizimkilərdən üstün olsunlar. Öz futbolçularımızın onlardan nələrsə öyrənmələri baxımından da bu vacibdir. Ona görə legionerlər də vacibdir. Amma hesab edirəm ki, legionerlər klubda 2 və ya 3-dən artıq olmamalıdır. Lakin o da bir reallıqdır ki, maliyyə yüksək olanda klub qarşısına daha çox hədəflər qoyur və bunu reallaşdırmaq üçün kluba futbolçular gətirir. Bu zaman yerli və ya xarici oyunçulara o qədər ciddi önəm vermir. Bu günləri "Turan"ın o maliyyəsi yoxdur ki, legionerlər gətirsin. Əsas liqaya qayıtdıqdan sonra bəlkə nələrsə ola bilər. Klub rəhbərliyindən çox şey asılıdır.

***- "Turan" əsas liqada oynamaq üçün rəsmi müraciət edib. Növbəti sezonda klubu Premyer Liqada görə biləcəyik?***

- Bunu zaman göstərəcək. Tələblər yerinə yetirilsə, düşünürəm ki, AFFA iştirakımızı təmin edə bilər. O tələbləri yerinə yetirə bilməsək, deməli, hələ gözləməli olacağıq.

***- "Turan"ın tarixi barədə məlumat versəniz maraqlı olardı...***

- Klub 1992-ci ildə təsis olunub. O zaman müharibə gedirdi. Hər kəs Tovuzun müdafiəsi barədə düşünürdü. Bir rayonu ki, insanlar tərk etdilər, o rayon işğal təhlükəsi ilə üz-üzə qalır. Sona qədər rayonumuzu müdafiə etməyi qarşımıza məqsəd qoymuşduq. Müharibə vaxtı ən çox "Turan"ı onun üçün yaratdıq ki, insanlar rayonun yaşadığını görsünlər. Bu, sərhədlərimizin müdafiəsinə çox müsbət təsir göstərdi. "Turan" yarandığı illərdən yüksək yerlər uğrunda mübarizə aparıb. 1993-94-cü ildə ölkə çempionu olub. Həmin vaxt ölkəmizi ilk dəfə Avropada təmsil etdi.

***- Səhv etmirəmsə, "Turan" artıq 8 ildir əsas liqada mübarizə aparmır. Bu illər ərzində Azərbaycan futbolu və komanda nələr itirdi?***

- Uşaq futbolunun inkişafı klubun yüksək liqada iştirakına çox müsbət təsir edir. "Turan" klubu yarandığı zamandan onun nəzdində futbol məktəbi də var idi. Bunun kluba çox böyük təsiri var idi. Bildiyim qədəri ilə hazırda "Turan"ın futbol məktəbinin uşaqları çox zəif iştirak edirlər. Başqa klublar "Turan" futbol məktəbinin uşaqlarını aparırlar. Komanda güclülər dəstəsində oynayanda, azyaşlı futbolçu düşünür ki, gələcəkdə öz klubunda oynayacaq. Ona görə də kənara getmir. Amma bir halda görəndə ki, klub güclülər dəstəsində deyil, o zaman uşağın valideyni övladının gələcəyini düşünüb onu başqa kluba dəyişir.

***- Azərbaycan futbolunun bugünkü durumu barədə nə deyə bilərsiniz?***

- Hazırda Azərbaycan futbolundan tamam kənardayam. Amma eşitdiyim qədər uşaq futbol məktəblərinə ciddi önəm verilməyə başlanıb. Bunlar davam edərsə, gələcəkdə müəyyən müsbət nəticələr əldə etmək olar. 2007-ci ildən etibarən Azərbaycan futbolundan tamam kənardayam. Belə müsbət addımların atıldığını görəndə ümidlənməyə dəyər.

***- Azərbaycan milli komandası barədə nə deyə bilərsiniz?***

- Futbol komanda oyunudur. Millinin çıxışına hər bir amilin təsiri olur. Yığma komandada oyunçu yetişdirilmir, sadəcə olaraq taktiki göstərişlər verilir. Milli ilə əlaqədar nəsə fikirlər söyləmək mənim üçün çətindir. Amma oyunlara baxanda görürəm ki, futbolçularımız bəzi hallarda əzmkar oynayıb yaxşı təsir bağışlayırlar, bəzən də zəif çıxış edirlər. Bunun nə ilə əlaqədar olduğunu deyə bilmərəm. Yəqin ki, komandadaxili baş verənlər bu cür vəziyyət yaradır. Hesab edirəm ki, komanda bəzi hallarda gücündən çox aşağı səviyyədə çıxış edir. Mətbəxin içərisində olmadığım üçün futbolumuzda hansı problemlərin olduğunu deyə bilmərəm.

***- Əvvəllər klublarımızın maliyyəsi az idi, amma çempionatda sayca daha çox komanda çıxış edirdi. Lakin son zamanlar maliyyə yüksək olmasına baxmayaraq, əsas liqada iştirak edən klublar azdır. Səbəb nədir?***

- Maliyyə az olan vaxt klublar qarşısında bugünkü tələblər yox idi. UEFA tərəfindən ciddi tələblər qoyulub. Qoyulan tələbləri yerinə yetirmədikləri üçün klublar çempionatda azdır. Burada AFFA rəhbərliyini günahlandırmaq olmaz. AFFA istəyir ki, futbol daha da inkişaf etsin. Klublar tələbləri yerinə yetirə bilməyəndən sonra AFFA nə etsin?

***- 8 klubun mübarizə apardığı çempionat acınacaqlı deyilmi?***

- Elə ölkələr var ki, daxili çempionatları belə yoxdur. Lakin həmin ölkələrin milli komandaları olur. Elə dövlətlər də var ki, 1-2 klubları var. Belə ölkələrin millilərinin bəzən güclü çıxışlarının şahidi oluruq. Doğrudur, klubların sayının çoxluğu ancaq müsbət təsirlər edir. Təsəvvür edin ki, Azərbaycanda demək olar əksər klublar Bakıdadır. Meydanlara azarkeş axını yoxdur. Amma rayonlarda belə deyildi. Oyunlar olan zaman stadionlar daim dolu olurdu. Azarkeş 12-ci oyunçudur. Futbol kralı Pele deyib ki, futbolu 12 adam oynayır. Bakıda 12-ci oyunçu olmasa da, rayonlarda var. Çalışmaq lazımdır ki, rayonlarda komandalar olsun. Diqqətləri bölgələrə yönləndirmək lazımdır.

***- Təsəvvür edin ki, çempionatımızda iştirak edən 8 klubdan yalnız "Qəbələ" əyalət təmsilçisidir. Buna çempionat demək olarmı?***

- 8 komandanı yığıb Bakıya gətirmək nəyə lazımdır? Qəbələlilər məndən inciməsinlər. Hər bir ölkənin xüsusi bir ənənəsi var. Tarix boyu Qəbələdə demək olar futbol olmayıb. Futbol hər zaman Tovuzda, Gəncədə, Zaqatalada, Qubada, Lənkəranda, Mingəçevirdə olub. Qəbələdəki azarkeş axını bu rayonlardakı qədər ola bilməz.

**❑ Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

## "Şəfiqə kimiləri özünə kabinet axtarır, Zeynəb isə..."

**Rasim Balayev:** "Mən də getsəydim, kinomuzun problemlərini dilə gətirəcəkdim"



**"Deyirlər ki, prezident İlham Əliyevlə görüşün siyahısını Mədəniyyət Nazirliyi hazırlayıb. Adımın siyahıda olmama səbəbini bilmirəm, bu haqda düşünmürəm. Heç kim mənə zəng edib, demədi ki, niyə dəvət olunmamışam?"**

Bu sözləri musavat.com saytına açıqlamasında xalq artisti Rasim Balayev deyib.

O bildirib ki, tədbirə dəvət olunsaydı, Azərbaycan kinosunun vəziyyəti barədə danışardı: "Dəvət olunsaydım, mənim də deyəcəyim sözlər vardı. Mehriban Zəkinin Allah canını sağ eləsin. Mənim ürəyimdəkiləri dedi. Mən də getsəydim, kinomuzun problemlərini dilə gətirəcəkdim.

Kimisi kino üçün çalışır, Şəfiqə kimilər də özünə kabinet axtarır. Şəfiqə Məmmədova deyir ki, Kino İttifaqının binası yoxdur. Ay Şəfiqə, birinci kino olmalıdır, sonra onun ittifaqına bina axtarılmalıdır.

Zeynəb Xanlarova da deyir ki, şikayət etməyin. Camaatın ildə bir dəfə prezidenti görüb, fikirlərini deməsi normaldır. Sənət adamlarının problemləri deyilməlidir".

## Məzahir Pənahovdan qəzəbli reaksiya: "Nə istəyirsiz, əl çəkin məndən"



**Ötən həftə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun sürücüsünün qayda pozması haqda xəbər yayılmışdı. Yayılan xəbərdə paytaxtın "Azadlıq" prospektində sürücünün yolun əks istiqaməti ilə hərəkət etməsini təsdiq edən görüntülər var.**

Həmin görüntülərlə bağlı qurumdan heç bir açıqlama verilməmişdi.

Bizimyol.info sürücüsünün qayda pozduğu görüntülərlə bağlı MSK rəhbəri Məzahir Pənahova zəng edib. Onun məsələ ilə bağlı sayta açıqlaması maraqlı olub. "Nə istəyirsiz siz məndən? Əl çəkin, mən bu barədə heç nə danışmayacam. Mətbuat şöbəsinə bildirmişəm, açıqlama versinlər. Hazırda uyğun yerdə deyiləm" - deyə MSK rəhbəri bildirib.

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019



# Parlament ombudsmanın illik məruzəsini qəbul etdi

## Deputatlar Elmira Süleymanovanı xarici ölkələrdə söyüş söyənlərə qarşı mübarizəyə, təzyiqlərə məruz qalan jurnalistləri və Gürcüstan azərbaycanlılarını müdafiəyə çağırdılar

**Martın 5-də Milli Məclisin yaz sessiyasının növbəti iclası keçirildi. İclasın gündəliyinə 18 məsələ daxil edilmişdi.**

**Birinci vitse-spiker Ziyafət Əsgərov** gündəlikdəki məsələlərin təsdiqindən sonra ilk olaraq İnsan hüquqları üzrə müvəkkilin (Ombudsman) 2018-ci ilin illik məruzəsini təqdim etmək üçün sözü Elmira Süleymanovaya verdi. Xanım ombudsman bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edildiyi 2018-ci il tarixi əhəmiyyətli hadisələrlə zəngin olub: "Ən mühüm hadisə cənab İlham Əliyevin bir daha böyük səs çoxluğu ilə Azərbaycan prezidenti seçilməsi olmuşdur. Seçki günü əməkdaşlarımla birgə Bakı və ölkənin 53 şəhər və rayonunda 103 seçki dairəsində, məcburi köçkünlərin məskunlaşdığı qəsəbələrdə, o cümlədən Cocuq Mərcanlıda, hərbi hissələrdə, cəzaçəkmə müəssisələrində səsverməni müşahidə etmişik. Bu seçkilər yüksək fəallıqla, demokratik, azad, şəffaf, ədalətli, qanunvericiliyə və beynəlxalq standartlara uyğun nizam-intizamla keçirilmiş, ölkəmizin hüquqi, demokratik dövlət quruculuğu və milli dövlətçilik ənənələrinin möhkəmləndirilməsini, xalqımızın prezidentimizə yüksək etimadını və dəstəyini bir daha təsdiqləmişdir".

**E.Süleymanova uğurlarla yanaşı, nöqsanlardan da bəhs etdi:** "Mənzil hüququ ilə bağlı müraciətlərdə, əsasən, yerli icra hakimiyyəti orqanları tərəfindən fərdi mənzil tikintisi ilə bağlı süründürməçiliyə yol verilməsi, çoxmərtəbəli binalardan alınmış mənzillərin qeydiyyata alınmaması kimi hallar öz əksini tapmışdır". **Ombudsman dedi ki, tikintidə, xüsusilə çoxmərtəbəli binaların inşası zamanı istifadə edilən, xaricdən gətirilən materialların yararlığının yoxlanılması təmin edilməli, standartlara uyğun olmayan materiallar satışdan və istifadədən çıxarılmalı, müvafiq tədbirlər görülməlidir:** "Tikinti zonası ətrafında təhlükəsizliyin təmin olunmasına nəzarət də gücləndirilməlidir. Tikinti şirkətlərinin qanunsuz məskunlaşmaya yaratdığı şərait nəticəsində yüzlərlə mənzil sahibi müxtəlif problemlərlə üzləşirlər. Bu baxımdan, ölkə prezidentinin 2019-cu il 19 fevral tarixli fərmanı çoxmənzilli yaşayış binalarının istismarına icazə prosedurunun sadələşdirilməsi, sakinlərin sənədləşmə məsələlərinin həllində böyük əhəmiyyəti olmuşdur".

Müvəkkil bildirdi ki, yeni ildən bütün ölkədə icbari tibbi sığortanın tətbiqi əhali üçün geniş imkanlar yaradacaq.

**Təhsil hüququ ilə bağlı qeyd etdi ki, ehtiyaclar nəzərə alınmaqla tələbə yataqxanalarının bərpa və ya inşa edilməsinin, eyni zamanda belə yataqxanalarda məskunlaşmış məcburi köçkünlərin onlar üçün tikilmiş və ya başqa yeni mənzillərə köçürülməsinin sürətləndirilməsi zəruridir.** "İşçilərin ixtisarı zamanı pensiya yaşının çatmasına azı 10 il qalmış qadınların və 7 il qalmış kişilərin əmək müqaviləsinin ləğv edilməsinin qadağan olunması ilə bağlı Əmək Məcəlləsinin 79-cu maddəsinə müvafiq əlavənin edilməsi təklif olunur" - ombudsman əlavə etdi.

E.Süleymanova dedi ki, ötən il vətəndaşların haqlı narazılığını doğuran pozuntulara görə 14 hakimin fəaliyyəti qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilib, 4 məhkəmə sədri aşağı işə keçirilib, 6 hakim intizam məsuliyyətinə cəlb edilib, 2 nəfər tutduğu vəzifədən azad edilib, 1 nəfərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib. Məhkəmə qərarlarının icrasına gəlincə, borc, xüsusilə aliment ödənilməsi ilə bağlı müraciətlər çoxluq təşkil edir.

2018-ci ildə fəaliyyətində kobud nöqsanlara yol verən 33 icra məmuru barəsində intizam tənbehi verilib. 2018-ci ildə aparılmış xidməti yoxlamaların nəticəsi üzrə müxtəlif nöqsan və çatışmazlıqlara yol verdiklərinə görə 31 prokurorluq işçisi, 399 daxili işlər orqanları əməkdaşı intizam məsuliyyətinə cəlb edilib.

Müvəkkil və onun Milli Preventiv Qrupu ölkə ərazisində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 240-dək müəssisəyə, o cümlədən müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, təhsil, səhiyyə, sosial, miqrasiya və dövlət uşaq müəssisələrinə əvvəlcədən xəbərdarlıq edilmədən ümumilikdə 343, o cümlədən plan üzrə 220, plandankənar 123 başçəkmə keçirib. Saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, qidalanma, tibbi xidmətin vəziyyəti öyrənilmiş, konfidensiallıq təmin olunmaqla ümumilikdə 3.114 saxlanılan şəxslə görüşlər keçirilmiş, müraciətlər yerində araşdırılmış, tədbirlər görülmüş, tövsiyələr verilmişdir. Araşdırmaların nəticələri ilə bağlı səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, mətbuata operativ açıqlamalar verilmiş, internet səhifəmizdə yerləşdirilib.

Ombudsman dedi ki, fəaliyyəti dövründə müntəzəm olaraq verdiyi çoxsaylı təkliflər əsasında ümumilikdə 638 şəxs, 2018-ci ildə isə 72 məhkum əfv edilib.

Milli Məclisin sədr müavini Bahar Muradova dedi ki, İnsan haqları komitəsində məruzə geniş müzakirə olunub. Vitse-spiker məruzənin yüksək səviyyədə hazırlandığını vurğuladı və deputatlara xitabən məruzəni qiymətləndirməyə çağırdı.

Deputat Tahir Kərimli Ağsu şəhərinin və Şamaxı şəhərinin qədim tarixinə və mədəniyyət abidələrinə, ənənələrinə diqqət çəkərək bu şəhərlərin ərazisini qoruq elan etməyə çağırdı. Daha sonra isə dedi ki, Qəbələ şəhərinin 2500 illiyi qeyd olunmalıdır, bunun üçün kifayət qədər faktlar var. T.Kərimli prezidentin ziyalılarla görüşdə səslədilən təklifləri dəstəkləməklə yanaşı, bəzi tarixi qəhrəmanlarımıza - Cavanşirə, İbrahimə, Hacı Çələbi və digərlərinə heykəllər qoymağa çağırdı.

**Komitə sədri Siyavuş Novruzov bildirdi ki, keçmişdə parlamentdə ombudsman qarşısında qaldırılan məsələlərin böyük əksəriyyəti prezidentin qərarları ilə həllini tapdı. Komitə sədri bu mənada şəhid ailələri ilə bağlı həllini tapan problemdən tutmuş, problemli kreditlərə kimi bir sıra həll olunmuş məsələləri xatırladı. Daha sonra S.Novruzov ombudsmana müraciət etdi:** "Cənab prezident bütün Azərbaycan xalqının hüquqları ilə bağlı addımlar atır. Həmçinin beynəlxalq səviyyədə Türk dünyası, İslam aləmi ilə bağlı fikirlərini ifadə edir. Ancaq bu gün xaricdə bir qrup insan var ki, nə qanuna baxır, nə dəyərlərə qiymət verir. Elmira xanımdan xahiş edərdim ki, həmin ölkələrin ombudsmanlarına müraciət etsin və bu məsələləri diqqətə çatdırsın. Azərbaycan prezidentinin hüquqları qanunla qorunduğu kimi, bu məsələyə ombudsman tərəfindən də diqqət göstərilməlidir və həmin ölkələrə müraciət edilməlidir".

**Deputat Fazil Mustafa** jurnalist Mətin Yaşaroğlunun işdən çıxarılmasından və Moskvada azərbaycanlıları müdafiə edən Fuad Abbasovun təzyiqlərə məruz qalmasından danışdı. O, ombudsmana müraciətlə ondan jurnalistlərin məsələlərini nəzarətə götürüb onları müdafiə etməyi xahiş etdi.

Daha sonra F.Mustafa vətəndaşların pozulan hüquqlarından danışdı. Bildirdi ki, insanların ən çox hüquqlarının pozulması xidmət sektoru ilə əlaqədardır. Çünki bu sektor bazar günü fəaliyyət göstərmir. Deputat xidmət sektorlarının bazar günü də fəaliyyət göstərməli olduğunu vurğuladı.

**Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov** da jurnalistlərlə bağlı məsələyə reaksiya verdi. Bildirdi ki, cəmiyyətdə adıçəkilən jurnalistlərlə bağlı təfsilatlı məsələ yoxdur. Ona görə də Ə.Amaşov ombudsmanı həmin jurnalistlərin məsələsini araşdırıb münasibət bildirməyə çağırdı.

**Deputat Qənirə Paşayeva** da ombudsmandan təzyiqlə üzləşən jurnalistlərin məsələsini nəzarətə götürməyi, Rusiya ombudsmanı ilə bu faktları müzakirə etməyi xahiş etdi.

Q.Paşayeva Gürcüstan azərbaycanlılarının problemləri ilə bağlı məsələləri Gürcüstan ombudsmanı ilə müzakirə etməyə çağırdı və deputat həmkarı Fərəc Quliyevin səsləndirdiyi təklifi dəstəklədi. Qeyd edək ki, F.Quliyev iclasda E.Süleymanovanı Gürcüstanın ombudsmanı ilə də əlaqə yaratmağa səslədi.

**Deputat Qüdrət Həsənquliyev Rusiyada saxlanılan, Azərbaycana xəyanət edən Fəxrəddin Abbasovun bu günlərdə həbs edilməsindən danışdı:** "Mən onun həbs olunmasında xidmətləri olan Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşlarına öz dərin minnətdarlığımı bildirirəm. Amma mən çox istərdim, elə xalqımız da istərdi ki, onun qolu qandallı və boynu əyilmiş şəkildə həbsxanaya aparılmasını görsün. Təəssüf ki, hələlik bu kadrlar ictimaiyyət üçün açılmayıb. Amma əminəm ki, o, Azərbaycan dövlətinə qarşı etdiyi xəyanətə görə layiqli cəzasını alacaq və bu, başqaları üçün dərs olacaq. Eyni zamanda son vaxtlar DTX tərəfindən Azərbaycan dövləti əleyhinə işləyən casus şəbəkəsi ifşa olundu, çoxlu sayda həbslər həyata keçirildi. Amma yenə də çox təəssüf ki, həmin casusluğa cəlb olunmuş şəxslərin hansı dövlətlərə işləməsi barədə ictimaiyyətə açıqlama verilmədi. Əlbəttə, məntiq onu deyir ki, Azərbaycan hökuməti qonşu dövlətlərlə münasibətlərin korlanmaması üçün bu adları açıqlamır. Amma dünya təcrübəsi göstərir ki, belə casuslar ifşa olunanda onların hansı dövlətə casusluq etdiyi barədə ictimaiyyətə məlumat verilir. Ki, həmin ölkənin vətəndaşları daha ehtiyatlı olsunlar, istər biznes münasibətləri quranda, istər şəxsi əlaqələr yaradanda".

**Q.Həsənquliyev Siyavuş Novruzovun fikirlərini dəstəklədi:** "Ombudsman xarici ölkələrdəki söyüş söyənlərlə bağlı həmin ölkələrin ombudsmanlarına müraciət edə bilər. Heç bir namuslu kişi söyüş söyməz. Çünki bilir ki, söyüşün on qat artığı ona qaytarılır. Belələri çox təəssüf ki, ləyaqətlərini satdıqları üçün başqa yolları yoxdur, belə əxlaqsız və ləyaqətsiz işlə məşğul olurlar".

Ombudsmanın hesabatı qəbul edildi və digər məsələlərin müzakirəsinə keçildi.

"Gənclər siyasəti haqqında" qanuna dəyişiklik layihəsini Gənclər komitəsinin sədri Ülvi Quliyev təqdim etdi. Qeyd edək ki, qanuna edilən dəyişikliklə gənclər təşkilatlarının üzvlərinə yaş məhdudiyyəti tətbiq edilib. Gənclər təşkilatlarının üzvlüyünə həmin təşkilatlarda üzvlüyünə onların 35 yaşı tamam olduğu andan xitam verilir.

**Deputat Vahid Əhmədov çıxışı zamanı təklif etdi ki, gənclər təşkilatlarının üzvlərinin həmin təşkilatlarda üzvlüyünə onların 45 yaşı tamam olduğu andan xitam verilməlidir:** "Bununla əlaqədar müraciətlər çoxdur, sosial şəbəkələrdə də müzakirələr aparılıb".

Spiker Oqtay Əsədov isə V.Əhmədova cavab olaraq bildirdi ki, dünyanın hər yerində yaş həddi qoyulur: "Elə ölkələr var 28, elə ölkələr də var 35 yaş müəyyən edir".

**Müzakirələrdən sonra dəyişikliklər təsdiqləndi.**

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

**Ötən həftə İrana səfər edən Ermənistanın baş naziri Nikol Paşinyanın Tehranda erməni diasporunun nümayəndələri ilə görüşü zamanı "Qarabağ Ermənistanındır" şüarının qaldırılması İranda yaşayan azərbaycanlıların narazılığına səbəb olub.**




# Paşinyanın səfəri Güney Azərbaycanda milli hərəkatı oyadıb

## Azərbaycan telekanalları niyə güneyli soydaşlarımızın dəstəyini görməməzlikdən gəlir?

Təbriz sakinləri "Ararat" klubunun ofisinin divarlarına "Qarabağ Azərbaycanın ayrılmaz parçasıdır" şüarını yazıblar. Bunun ardınca Təbrizin "Traktorsazi" futbol komandasının "Sepahan" komandası ilə oyunu zamanı azərbaycanlı azarkeşlər milli birlik sərgiləyiblər. Təbriz stadionunda 100 min nəfər "Qarabağ bizimdir, bizim olacaq" şüarı səsləndirməyə başlayıb. Daha sonra Təbriz ziyalıları isə İran xarici işlər nazirinə etiraz məktubu yazıblar.

Bir sıra siyasi analitiklər hesab edir ki, Nikol Paşinyanın ötən həftə İrana səfəri Güney Azərbaycandakı soydaşlarımızın hərəkətlənməsi, "Azərbaycan-Qarabağ" şüarlarının İranı bürüməsinə səbəb oldu. Bu baxımdan erməni baş nazirin səfərini dolayısı ilə bizim xeyrimizə işləyən səfər də adlandırmaq olarmı?

**Siyasi ekspert Əli Orucov bildirdi ki, erməni baş naziri Nikol Paşinyanın İrana səfəri və onun təxribat xarakterli addımlarından sonra Güneydə gedən prosesləri rəsmi Tehran da heç gözləmirdi:** "Yüksək rütbəli erməni rəsmilərinin İrana bundan əvvəl də işgüzar səfərləri olub. Lakin indiyədək Paşinyan kimi açıq-aşkar həyasızlıq edilməyib. Onun İrandan meydan oxuması güneyli soydaşlarımızın sərt təpkisini çəkməliydi və çəkdi də. 2006-cı ildən Güney Azərbaycan Milli Oyanış Hərəkatının növbəti dalğası başlayıb. Paşinyanın məlum səfərindən sonra bu dalğa yeni təkan götürüb. Bir qığılcım, bir bəhanə lazım idi ki, proses bütün Güney Azərbaycanı bürüsün. Paşinyanın da səfəri bu fürsəti verdi. Gördüyünüz kimi, Paşinyana deyil, etirazlar İran hakimiyyətinə yönəldi. Gedişat da onu göstərir ki, "Qarabağ Azərbaycanındır" şüarları yaxın zamanlarda istiqlal və azadlıq şüarları ilə əvəzlənə bilər. Güneydə milli oyanışın qarşısını almaq artıq İran rejimi üçün də çətinləşməkdədir. On illərlə aparılan diskriminasiya və assimliyasiya siyasəti, repressiyalar və təzyiqlər soydaşlarımızın milli ruhunu və əzmini öldürə, mübarizədən çəkindirə bilməyib. Bu gün Abbas Lisani kimi milli ictimai-siyasi fəallar həbsxanalarda çürüdülür, minlərlə soydaşımıza mənəvi-fiziki işgəncələr verilir. "Traxtursazi" futbol komandası güneyli soydaşlarımızın azadlıq və ilham simgəsinə çevrilib. Bu komandanın hər qarşılaşması bir aksiya, bir göstəridir. Paşinyan bilsəydi ki, onun təxribatları Güneydə böyük rezonans verəcək, belə etməzdi. Çünki Güneydə oyanış Ermənistanın məhvi deməkdir. Təəssüflər olsun ki, Azərbaycan telekanalları güneyli soydaşlarımızın son günlər nümayiş etdirdiyi qəhrəmanlığı görməməzlikdən gəlir. Bu da hakimiyyətin heç vaxt Güneyə bu və ya digər şəkildə dəstəyini ifadə etməməsindən irəli gəlir".

**Politoloq Məhəmməd Əsədullazadə isə qeyd etdi ki, İranın işğalçı Ermənistana dəstəyi Güney azərbaycanlıları narahat edir. Bu narahatlıq Qarabağ məsələsində şimallı-cənublu Azərbaycanın bir olmasını, azərbaycanlıların Təbrizdə böyük kütləvi etirazlarını ortaya çıxardı. Artıq Tehranda ciddi təşviş yaranıb. Rəsmi Tehran XİN səviyyəsində açıqlama verməyə məcbur oldu:** ""Traxtursazi" klubunun azarkeşlərinin mövqeyi, bunun İran azərbaycanlıları səviyyəsinə qalxması artıq Tehranın Ermənistanla əlaqələrində bundan sonra ehtiyatlı davranmasına gətirəcək. Tehran rejimi gördü ki, Azərbaycan əleyhinə hər hansı bir demarş Cənubi Azərbaycanı ayağa qaldıra bilər. Artıq biz gördük ki, Təbriz də Qarabağ həsrətindədir. Cənubi Azərbaycanlılar ümummilli məsələdə bizimlə həmrəy oldular. Bu artıq milli oyanışdır və düşmənlərimizə xəbərdarlıqdır. İran hakimiyyəti Azərbaycanla siyasətində diqqətli olmalı, işğalçı Ermənistanla əlaqələrinə yenidən baxmalıdır. Hesab edirəm ki, xarici işlər naziri Elmar Məmmədyarov Təbrizdə yerləşən konsulluğumuza gedib, orada azərbaycanlılarla görüş keçirsə yaxşı olar.

**Təbrizdə və digər şəhərlərdə, xüsusilə "Traxtursazi" azarkeşlərinin Qarabağ şüarlarının, etirazlarının ölkəmizdə televiziyalarda verilməməsi isə Bakının Tehranla münasibətlərinə görədir:** "Əgər İran rəsmi səviyyədə ölkəmizə qarşı təxribatçılara imkan tanıyırsa, özəl televiziyalar niyə "Traxtursazi" azarkeşlərinin Qarabağ şüarını vermir?! Televiziyaların bu siyasəti kökündən yanlışdır. Müxtəlif səviyyələrdə sosial şəbəkə, internet saytları və çap mətbuatı ilə "Traxtursazi" azarkeşlərini dəstəklədik, həmrəyliyimizi qeyd etdik. Amma xalqın güzgüsü olan tv-lər bundan çəkindi. Televiziyalar ümummilli məsələlərdə mövqe ortaya qoymalıdır. Təəssüf ki, bayağı bir hala gələn televiziyalarımız məhz buna görə Azərbaycan tamaşaçısının marağında deyil. Nəzərə almaq lazımdır ki, Cənubi Azərbaycanda soydaşlarımız bizim yerli kanalları izləmək imkanına malikdir və izləyirlər. Ona görə də tv-lər diqqətli olmalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Venesuelada müxalifət lideri ölkəyə qayıtdı

## Quaydo 6 avropalı səfirin "çətiri altında" meydana döndü; Tramp Maduronun məmurlarının vizasını ləğv etdi; **Elxan Şahinoğlu:** "Burada Rusiya və Amerikanın maraqları kəsişir, ordu müxalifətə keçsə..."

**Venesuelanın müxalifət lideri, ABŞ tərəfindən müvəqqəti prezident kimi tanınan Xuan Quaydo Karakasa qayıdıb. Qayıdışı barədə twitter-də məlumat yayan Quaydo immiqrasiya yoxlanışından keçdiyini yazıb.**

Latın Amerikası müttəfiqləri ilə görüşündən sonra Quaydo venesuelalıları onu dəstəkləməyə çağırıb.

O, Maduronun istefası üçün təzyiqləri artırmaq məqsədilə Latın Amerikası ölkələrinə səfərinin bir hissəsi olaraq şənbə günü Ekvadorda olub.

Keçən həftə Xuan Quaydo ABŞ-ın vitse-prezidenti Mayk Pens və digər regional liderlərlə görüşdükdən sonra Braziliya və Paraqvaya səfər edib.

"Infobae" portalının yazdığına görə, onu Fransa, Almaniya, Rumıniya, Niderland, Argentina və Braziliya səfirləri müşayiət ediblər.

Birləşmiş Ştatlar isə Venesuelaya təzyiqləri daha da artıraraq, yüksək səviyyəli altı rəsmiyə qarşı sanksiyalar tətbiq edib və onlarla yüksək səviyyəli Venesuela rəsmisinin vizalarını ləğv edib.

Tramp administrasiyası bildirib ki, sanksiyalar keçən həftə müxalifət tərəfindən dəstəklənən ərzaq yardımının gətirilməsi səylərinin qarşısını alan Venesuela hərbi rəsmilərinin hərəkətlərinə cavab olaraq tətbiq edilib.

Sərhəddəki bir məntəqədə yük maşınlarında yanğın baş verib və bir neçə insan həyatını itirib. Faktiki olaraq, ABŞ açıq şəkildə hazırkı prezident Nikolas Maduronu devirmək üçün bütün təzyiq rıçaqlarını səfərbər edib.



Quaydo da çevrilişə dəstək almaq üçün xarici və qonşu ölkələrə səfər etməkdədir. Yəni ortada iki qütb var - həm Maduro, həm Quaydo tərəfdarlarının kifayət qədər olmazı prosesi uzadır. Əks halda, hakimiyyət çoxdan devrilmişdi.

Maduro çəkinmədən meydana çıxır, tərəfdarları ilə rəqs edir, rəqibinin ölkəyə qayıdışına embarqo tətbiq eləmir. Təsəvvür edin ki, rəqib lider ABŞ-dan Braziliyaya, Paraqvaydan Ekvadora qədər gəzib-dolaşır, açıq dəstək alır, sonra əlini-qolunu sallayıb vətəninə rahat şəkildə qayıdır, sərhəddə problemlə üzləşmir, ardınca tərəfdarlarının qarşısına çıxaraq etirazları davam etdirir.

Üstəlik, prezident parlamentin spikeri olan Quaydonu növbədənkənar parlament seçkiləri elan etməyə çağırıb. Amma müxalif lider seçkiyə getmir, iqtidar rəhbərinin istefasını tələb edir.

Odur ki, bəzi analitiklər Quyadonu Trampın "kukla namizədi" adlandırırlar. Buna baxmayaraq, Maduronun bundan sonra iqtidarda qalacağı ehtimalı azdır. Vaşinqton Venesuelada öz neft şirkətlərinin fəaliyyətini bərpa edənə qədər Maduronu sıxmağa davam edəcək.

Keçmiş prezident, martın 5-də vəfat edən Uqo Çavesin davamçısı olan Maduro ideyaca sosialistdir və ölkədən Qərbin enerji şirkətləri çıxarılıb.

Elə sanksiyalar və bəlalar da bundan sonra başlayıb. Əgər Maduro ABŞ-a qarşı bu siyasəti yürütməsəydi, indi Quaydo spiker kimi işini görəcəkdi.

Yeri gəlmişkən, yanacaq cəmi 6 həftəyə bəs edəcək, aprelin ortalarında yanacaq anbarları boşalacaq. Hazırda Venesuela sahillərində 500 milyon dollara olan 8.4 milyon barel neftlə yüklü 16 tanker dayanıb, ölkədə neft hasilatı gündə 1.49 milyon barelə qədərə azalıb.

Venesuelanın dövlət neft şirkəti sanksiyalara görə nefti sata bilmir, ölkənin özünün neft emalı zavodlarının gücü isə neftin hamısını emal etməyə bəs etmir. İki iri neftayırma zavodu fəaliyyətini dayandırıb.

Daha bir neftayırma zavodu - "Paraquana" isə 940 min barel istehsal gücünə malik olsa da cəmi 70 min barel yanacaq istehsal edə bilir.

Maduro problemi Hindistanın hesabına həll etməyə çalışır. Hindistan ABŞ-ın embarqolarından sonra Venesueladan neft almağa icazəsi olan yeganə ölkədir.

Bütün bu ağır şəraitə, başqılara baxmayaraq Maduro iqtidarının hələ də devrilməməsinin iki mühüm səbəbi var: xalq kütlələrindən dəstək ala bilməsi və ordunun tam müxalifət tərəfə keçməməsi.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Venesuelada çox maraqlı proses gedir:** "Oxşar hadisələr başqa dövlətlərdə də yaşanıb. Amma bu qədər uzanmayıb. Söhbət ondan gedir ki, Venesuelada başqa dövlətlərin maraqları toqquşur. Nəzərə alınmalıdır ki, Venesuela əsas neft alverçisidir. Rusiya və Amerikanın bu səbəbdən regionda maraqları kəsişir".

**Analitikin fikrincə, ABŞ Venesuelanı "arxa bağça"sı hesab edir:** "Əgər Amerika Maduronu Quaydo ilə əvəzləsə, yeni prezident Rusiya ilə müqavilələri donduracaq. Məhz ona görə Maduronu aradan qaldırmaq istəyir. Rusiya və Çin isə Maduronun dəstəkçisidir. İki qrup dövlət arasında mübarizə gedir. Amma getdikcə Maduronun şansları azalır. Orduda istefaların sayı artır. Əgər ordu müdaxilə etməsə belə, açıq şəkildə Maduronu dəstəkləmədiyini açıqlasa, artıq Quaydo qalib gələcək".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 52 (7222) 6 mart 2019

**ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçak dünən Bakıya gəlib. O, səfər çərçivəsində Azərbaycan prezidenti İlham Əliyevlə görüşüb. ATƏT sədri az öncə verdiyi müsahibədə Bakıda Azərbaycanla ATƏT-in əməkdaşlığının inkişafı, həmçinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələlərini müzakirə etmək niyyətində olduğunu bildirmişdi.**





# Erməni baş nazirin puç olan Qarabağ arzuları

## Nikol Paşinyanın sülhü deyil, müharibəni yaxınlaşdıran bəyanatlarının pərdəarxası; **Bakıdan reaksiya gecikmədi:** "Heç kim beynəlxalq prinsipləri güc yolu ilə poza bilməz..."

ATƏT-in icraçı sədri onu da qeyd eləmişdi ki, problemin həlli yönündə müəyyən ümidlər yaransa da, "uzun müddət davam edən bu münaqişənin nizamlanması regional kontekstdə sabitlik, aktiv dialoq və cəmiyyətin irəliyə doğru addım atmağa hazır olmasını tələb edən çətin məsələdir".

*****

Məsələ də elə ərazisinin 20%-i işğala məruz qalan Azərbaycanla işğalçı Ermənistan arasında dialoqdadır. Söhbət ondan gedir ki, Ermənistanın təzə iqtidarı da belə bir dialoqa faktiki şəkildə Azərbaycanın tam və sözsüz kapitulyasiyası vasitəsi kimi baxır, nəinki beynəlxalq hüququn, BMT TŞ-nin Dağlıq Qarabağa dair 4 məlum qətnaməsinin icrası zərurətinin diktəsi kimi. Düşmən ölkədə sadəlövhcəsinə hesab edirlər ki, Azərbaycan Qarabağ müharibəsini uduzub və o, İrəvanın şərtlərini qəbul eləməlidir. Əsas şərt isə Dağlıq Qarabağa ya tam müstəqillik verilməsi ya da onun Ermənistana birləşdirilməsidir.

İrəvanın belə absurd, sülh danışıqlarını mənasız edib müharibəni tətikləyən mövqeyi işğalçı ölkənin baş naziri N.Paşinyanın İran səfəri zamanı özünü qabarıq şəkildə büruzə verdi. Paşinyan Tehranda erməni icması ilə görüşdə bəyan elədi ki, o, yalnız Ermənistanın adından danışa bilər, "Dağlıq Qarabağın isə öz hökuməti var".

Bu azmış kimi, o, konflikti nə vaxtsa güc yolu ilə həll etmək istəyən Azərbaycanı hədələməkdən də çəkinmədi. Görüşdə erməni dilində qaldırılan "Qarabağ Ermənistana məxsusdur və son" şüarı də düşmən tərəfin dinc danışıqlara münasibətini aydın şəkildə ortaya qoyur.

**Yeri gəlmişkən, həmin təxribatçı şüarla bağlı rəsmi Tehran özünü sığortalamağa çalışaraq bəyan edib ki, guya bundan xəbəri olmayıb. Politoloq Elxan Şahinoğlu isə bunu qətiyyən inandırıcı saymır:** "İranlı rəsmilər Nikol Paşinyanın Tehranda ermənilərlə görüşü zamanı asılan bayraqdan və şüardan xəbərləri olmadıqlarını bildirdilər. Onu da dedilər ki, həmin yazılar erməni dilində olub, nə yazıldığını guya bilməyiblər. Ancaq bunun təxribat mahiyyəti daşıdığını etiraf edirlər. Onda sual olunur: Niyə İran polisi Tehranda "Qarabağ Ermənistanındır" şüarını zalın mərkəzində asan təxribatçıları həbs etmir, Təbriz stadionundan çıxarkən "Qarabağ Azərbaycanındır" deyən 29 soydaşımızı həbs edir? Məgər Tehran Qarabağın Azərbaycanın bir parçası olduğunu qəbul etmir? Edirsə, o zaman nədən təxribatçı erməniləri yox, rəsmi Tehranın Azərbaycanın ərazi bütövlüyünü tanıdığına dəstək verən azərbaycanlıları həbs edir? Axı soydaşlarımız "Qarabağ Azərbaycanındır" deməklə rəsmi Tehranın siyasətinə tərs düşən heç nə deməyiblər".

Suallar təbii ki, ritorikdir. Çünki hamı bilir ki, işğalçı Ermənistan, xaricdəki ermənilər həm də İranın Dağlıq Qarabağ məsələsində məlum anti-Azərbaycan, antiislam mövqeyindən cəsarətlənərək belə həyasızlıqlar edirlər. Kəsəsi, ermənilər Qarabağ ixtilafı başlayandan onlar üçün "əsas nəfəslik" rolu oynayan fars rejiminə arxayındırlar. Paşinyanın Tehran çıxışı da ən əvvəl bu arxayınlıqdan qaynaqlanırdı...

*****

Öz havadarlarına arxalanan rəsmi İrəvanın Qarabağla bağlı maksimalist ritorikası azmış kimi, Ermənistan rəhbərliyi indi də sülh danışıqlarında heç bir irəliləyişin olmamasının günahını həyasızcasına Azərbaycanın üzərinə yıxmağa çalışır. Görünür, bununla o, öz mövqeyi ilə müharibəni qaçılmaz etdiyi barədə artıq dünyada formalaşmaqda olan rəyi dəyişməyə ümid edir.

"Azərbaycan tərəfi Qarabağ konfliktinin həlli ilə bağlı danışıqlar çərçivəsində ümidləri doğrultmadı". Bunu baş naziri Nikol Paşinyan Avropa Parlamentinin Xarici İşlər Komitəsinin iclasında çıxışı zamanı deyib (axar.az).

"Qarabağa gəlincə isə onu qeyd etmək vacibdir ki, konfliktin hərbi həlli ola bilməz. Biz gərək sülhlə həll üçün atmosfer yaradaq. Bizim hakimiyyət bunun üzərində çalışır. Sentyabrda mən bizim parlamentdə görünməmiş bəyanat səsləndirib dedim ki, istənilən qərar Dağlıq Qarabağın erməni əhalisi və Azərbaycan əhalisi üçün qəbul edilən olmalıdır", - deyə o bildirib.

**Paşinyan həmçinin bu bəyanatından sonra Azərbaycan tərəfindən oxşar açıqlama gözlədiyini söyləyib:** "Təəssüf edirəm ki, bu ümidlərim gerçəkləşmədi. Əksinə, biz Azərbaycandan konflikti Dağlıq Qarabağ əhalisinin maraqlarını nəzərə almadan hərbi yolla həll etməklə bağlı daimi təhdidlər eşidirik. Biz Azərbaycanı dialoq qurmağa məcbur etməliyik".

Beləcə, Paşinyan Qarabağ məsələsində sülh prosesini dalana dirəyən təzadlı yanaşmasını davam etdirir, "yaş dəsmalı ağrıyan başdan ağrımayan başa qoymağa" səy edir. Bir çox analitiklərə görə, bununla o, ən əvvəl vaxt udmağa və daxildəki siyasi, sosial-iqtisadi problemləri müəyyən qədər yoluna qoymağa çalışır.

Lakin Azərbaycan atəşkəs rejiminə uzun müddət dözüm göstərə bilməz. Bakı məhz buna görə Ermənistanda xunta rejiminin hakimiyyətdən devrilməsinə Dağlıq Qarabağ məsələsinin ədalətli həlli üçün unikal şans kimi baxırdı. Əfsuslar olsun ki, məhz Paşinyan iqtidarı bu ümidləri doğrultmur.

Söhbət həm də erməni xalqının köklü maraqlarından gedir. Çünki Dağlıq Qarabağ konflikti uzandıqca ilk növbədə ermənilərin iztirabları uzanacaq və çoxalacaq. Hələ ki öz xalqının ciddi mandatına sahib olan Nikol Paşinyan, onun komanda üzvləri bu barədə düşünmək, bu yöndə real addım atmaq və işğalçı ölkəni ağır blokadadan çıxarmaq üçün tədbirlər tökmək əvəzinə, Azərbaycana qarşı absurd tələblər irəli sürürlər. Bilə-bilə ki, Azərbaycan tərəfi heç vaxt bu tələbləri qəbul etməyəcək və... müharibə qaçılmaz olacaq.

*****

"Bizim hüquqi əsaslarımız var ki, məsələnin həllində iddialı olaq. 1993-cü ildə Nyu-Yorkdakı müzakirələrdə ermənilərin Azərbaycan torpaqlarından çıxması tələb olunurdu. Ancaq hazırda qarşı tərəf müxtəlif vasitələrdən istifadə edərək, əhalini həmin ərazilərə köçürür. 2000-dən çox qaçqın Suriyadan Ermənistana gəlib və onların bir qismi işğal altında olan Azərbaycan torpaqlarında yerləşdirilir. Bu, beynəlxalq hüquqa ziddir".

Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakı Biznes Mərkəzində keçirilən "Hərbi işğal altında olan ərazilərdə iqtisadi və digər fəaliyyətlərin qeyri-qanuniliyi, üçüncü tərəflərin öhdəlikləri və münaqişənin həllinə təsirləri"nə dair beynəlxalq konfransda deyib.

"Ermənistan Cenevrə konvensiyasına qoşulmasına baxmayaraq, şərtləri pozur. Biz işğal olunmuş ərazilərdə müxtəlif şirkətlərin fəaliyyət göstərdiyini aşkar etmişik. Biz siyahını da hazırlaya bilərik. Məşhur "Frenk Müller" saat şirkəti həmin ərazilərdə qeyri-qanuni fəaliyyət göstərir. Biz İsveçrə ilə bununla bağlı danışıqlar aparırıq. Bəzi hökumətlər deyir ki, özəl şirkətlərin fəaliyyətinə müdaxilə etmirik. Amma etməlidir, artıq bəzi şirkətlər orada fəaliyyətini dayandırıb. Burada öhdəlik hökumətlərin üzərinə düşür. Hökumətlər öz şirkətlərinə qeyri-qanuni fəaliyyət göstərməyə icazə verməməlidir. Bu məsələnin bir qismi məxfi şəkildə həll olunmalıdır. Düşünürəm ki, bu konfrans böyük əks-səda doğuracaq. Heç kim İkinci Dünya müharibəsindən sonra dünya dövlətləri tərəfindən qəbul olunmuş prinsipləri güc yolu ilə poza bilməz", - deyə nazir bildirib.

Bu bəyanatı, bütövlükdə Qarabağ konfransını Nikol Paşinyan və komandasının son günlər Qarabağla bağlı sərgilədikləri radikal və təxribatçı bəyanatlara cavab da saymaq olar.

Qeyd edək ki, Bakıda öz işinə başlayan beynəlxalq konfransda Elmar Məmmədyarov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, YUNESKO-nun Dünya İrs Mərkəzinin direktoru Metşild Rosler, eləcə də bir sıra xarici ekspertlər iştirak edirlər.

**Yaz fəslinin başlanması ilə kənd təsərrüfatında əkin işləri də start götürür. Ölkənin hər yerində bu ərəfədə xüsusi canlanma müşahidə olunur: əkin texnikasını sazlayan kim, əkin yerlərini şumlayan kim...**

# Yaz qapıda: nə əkərsən, onu da biçərsən...

## Aqrar istehsalçılar texnika və damazlıq heyvan almaq üçün dövlətin güzəştli kreditlərini 11 bankdan əldə edə bilər

Bu ərəfədə həm də Azərbaycanda hansı bitkilərin əkiləcəyi, nə qədər məhsul götürülməsinin planlaşdırıldığı maraq doğurur. Qeyd edək ki, ötən ilin aprelindən Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyinə yeni komanda gətirilib. Nazir İnam Kərimovun başçılıq etdiyi komanda qarşısına çox ambisiyalı vəzifələr qoyub. Bu, kənd təsərrüfatı istehsalının intensiv üsulla artırılmasına nail olunmasıdır. Komanda buna aqrar sektora elmi yanaşma, müasir texnologiya və metodlardan istifadə sayəsində nail olmağı nəzərdə tutur. Bu məqsədlə uzun illərdən bəridir Azərbaycanda ciddi problemlərdən birinə çevrilmiş kənd təsərrüfatında məhsuldarlıq məsələsinin həllinə yönəlik addımlar atılır. Eyni zamanda aqrar istehsalçılara dövlət dəstəyinin çatdırılması mexanizmində köklü dəyişiklik edilib, illər boyu korrupsiya və mənimsəmə mənbəyinə çevrilmiş “Aqrolizinq” ASC-nin əksər funksiyaları əlindən alınıb.

Belə ki, prezidentin ötən ilin dekabrın 19-da imzaladığı sərəncama əsasən, kənd təsərrüfatı texnikaları, texnoloji avadanlıqlar, suvarma sistemləri dəsti və avadanlıqları, damazlıq heyvanların aqrar istehsalçılara banklar, bank olmayan kredit və lizinq təşkilatları vasitəsilə verilməsinə başlanıb. Bu zaman texnikanın qiymətləndirmə nəticəsində müəyyən edilən satış dəyərinin 20 faizini ilkin ödəniş olaraq fermer, 40 faizini isə subsidiya (güzəşt) şəklində Aqrar Kredit və İnkişaf Agentliyi ödəyir. Qiymətin qalan hissəsi bankda maksimum 5 il müddətinə kredit şəklində rəsmiləşdirilir. Kredit faizlərini isə fermer deyil, dövlət ödəyir



“Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Fərmanın təbiqi ilə əlaqədar texnika satışında subsidiyalar bütün təchizatçı şirkətlərdən alınan kənd təsərrüfatı texnikasına şamil olunur. Fevralın 15-dən etibarən artıq fermerlər müvafiq texnikanı güzəştli qiymətlərlə təkcə “Aqrolizinq”dən deyil, bütün təchizatçı şirkətlərdən ala bilirlər.

Kənd Təsərrüfatı Nazirliyindən “Yeni Müsavat”a verilən məlumata görə, bu şirkətlərlə bağlı bir sıra tələblər müəyyənləşdirilib. Onların satdıqları texnikaya xidmət göstərə biləcək servis nöqtələri və texniki xidmət şəbəkəsi olmalı, ehtiyat hissələrinin mövcudluğunu və satışını təmin etməli; alıcıların istehsal olunduğu tarixdən 2 ildən artıq müddət keçməmiş texnika ilə təmin edə bilməli; zəmanət müddətində avadanlıq və ya texnikanın təmirini və ya onlara texniki qulluğu həyata keçirmək üçün zəruri imkanlara malik olmalıdılar. Damazlıq heyvan təqdim edən təchizatçılar isə heyvanların qidalanma və saxlanma şəraitini həmin cins (növ) heyvan üçün zəruri olan formada təmin etməli; müvafiq cinsdən (növdən) heyvanın xəstəlikləri, habelə qidalanması üzrə ixtisaslaşmış zootexnik, baytar və mütəxəssislərə malik olmalı və ya əməkdaşlıq etməlidilər.

Texnika və damazlıq heyvan almaq üçün dövlətin güzəştli kreditlərini aqrar istehsalçılar 11 bankdan əldə edə bilərlər. Bunlar Access Bank ASC, Azərbaycan Beynəlxalq Bankı ASC, BTB Bank ASC, Express Bank ASC, Günay Bank ASC, Kapital Bank ASC, Muğan Bank ASC, NBC Bank ASC, Paşa Bank ASC, Rabitə Bank ASC, Turan Bank ASC-dir.

Bundan əlavə, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması və satışı üzrə layihələrdə; regionların aqrar inkişafı ilə bağlı innovativ layihələrdə; heyvandarlıq təsərrüfatlarının inkişafı sahəsində layihələrdə yeni yaradılmış Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə etmək olar. Hər bir müvəkkil kredit təşkilatı üçün müəyyən edilən kredit həcmi 5 milyon manat olacaq. Bu qaydalar nəticəsində daha istehsalçı dövlət orqanlarının qapısını gəzməyərək, rəsmi qaydada banka müraciət edir, 15 gün ərzində ona kredit və ya güzəştin verilməsi ilə bağlı rəsmi ya “hə”, ya da “yox” cavabı verilməlidir. Bəyənilən layihələr növbəti 15 gün ərzində agentliklə razılaşdırılaraq maliyyələşdiriləcək:

- 5 000 manatadək - mikrokreditlər (2 ilədək);
- 5 001 manatdan 30 000 manatadək - kiçikhəcmli kreditlər (3 ilədək);
- 30 001 manatdan 100 000 manatadək - ortahəcmli kreditlər (3 ilədək);
- 100 001 manatdan 200 000 manatadək - irihəcmli kreditlər (5ilədək);
- 1 000 000 manatədək - kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün kreditlər (5 ilədək);

Kreditlər üzrə güzəşt müddəti aşağıdakı kimi müəyyən edilir:

- mikrokreditlər üçün - 12 ayadək;
- kiçik və ortahəcmli kreditlər üçün - 18 ayadək;
- irihəcmli kreditlər üçün - 24 ayadək.

Kredit müddəti güzəştli şərtlərlə alınan damazlıq heyvanlar üçün 3 il, digər kənd təsərrüfatı istehsal vasitələri üçün 5 ildir. Vəsait müvəkkil kredit təşkilatlarına illik 2 faiz tətbiq etməklə verilir, bank isə 7 faizlə istehsalçılara verir.

Bu ilin əkin planlarına gəlincə, nazirlikdən verilən məlumata görə, cari ildə 680 min hektar sahədə buğda əkilməsi və 2 milyon 140 min ton məhsul əldə olunması gözlənilir. Hər hektardan gözlənilən orta məhsuldarlığın 31,5 sentner təşkil etməsi gözlənilir.

Bu il həmçinin 334 min 100 hektar ərazidə arpa əkilərək 935 min ton məhsul və 28 sent / ha məhsuldarlıq nail olunması planlaşdırılır. 4900 hektar sahədə çəltik əkərək, 16 400 ton məhsul və 33,5 sent/ha məhsuldarlıq, 4 min hektar sahədə tütün əkərək 7400 ton məhsul, 9500 hektar sahədən 350 min ton şəkər çuğunduru, 60 min hektar sahədə 970 min ton kartof istehsalına nail olunması planlaşdırılır.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

# Biznes kreditlərinin kompensasiya olunması ədalətli yanaşmadır

## Eksperlər əsas diqqətin mikro və orta sahibkarlığa yönəldilməsini təklif edirlər

**Azərbaycan hökuməti fiziki şəxslərdən sonra devalvasiya nəticəsində zərərlə üzləşmiş hüquqi şəxslərə də dəstək mexanizmi hazırlayır. Bu barədə maliyyə naziri Samir Şərifov bu günlərdə mərkəzi televiziyaya müzahibəsi zamanı məlumat verib. Maliyyə nazirinin dediyindən aydın olub ki, hökumət hüquqi şəxslərin ödənilməyən borcları ilə bağlı da iş aparır: “Bəzi şirkətlər banklara olan borclarını vaxtında qaytarmırlar, ödənişlərdə çətinlik çəkirlər. Bu da istər-istəməz bankların fəaliyyətinə mənfi təsir göstərir. Dövlət qurumları bununla bağlı da işləyir. Prezidentin tapşırığı var. Bank sektorunun sağlamlaşdırılması ilə bağlı növbəti proqram hazırlanır, onun maliyyə tutumu müəyyən edilir, yəqin ki, yaxın zamanlarda bu proqram təqdim ediləcək”.**



Onu da qeyd edək ki, bir çox ekspertlər problemli kreditlərin əsas hissəsinin fiziki şəxslərə deyil, məhz hüquqi şəxslərə məxsus olduğunu bildirirlər. Son illərdə kredit götürənlərlə bağlı statistikada müəyyən məhdudiyyətlər tətbiq olunduğu üçün bu gün Azərbaycanda nə qədər sahibkarlıq subyektinin problemli kreditinin olduğunu söyləmək mümkün deyil. Mərkəzləşdirilmiş Kredit Reyestri Xidmətinin 2015-ci il mayın 1-də yaydığı məlumatdan aydın olur ki, o zaman üçün ölkədə kredit təşkilatlarına borcu olan 2 milyon 414 min 122 nəfərin 2 milyon 381 min 592 nəfəri fiziki şəxs olub. Ondan sonra Reyestrin açıqladığı məlumatlarda kredit götürənlər arasında hüquqi və fiziki şəxslərin sayına dair bölgü əksini tapmayıb. Reyestrin kredit götürənlərin sayına dair son məlumatı 2016-cı ilin fevral ayının yekunlarını əks etdirir. Həmin məlumata görə, Azərbaycanda 2 milyon 555 min 645 nəfər borcalan qeydə alınıb.

**İqtisadçı-ekspert Samir Əliyevin fikrincə, devalvasiyadan zərərçəkən tərəflərdən biri də hüquqi şəxslərdir:** “Bu baxımdan, onların da üzləşdiyi zərərin heç olmasa bir qisminin kompensasiya olunması ədalətli yanaşmadır. Sadəcə, düşünürəm ki, hüquqi şəxslərin hamısının deyil, mikro, kiçik və orta sahibkarların mənafeyi önə çəkilməlidir. İri holdinqlərin borclarının dövlət büdcəsi hesabına kompensasiya olunmasına gedilməməlidir”.

**S.Əliyev hesab edir ki, hüquqi şəxslərlə bağlı qərar verilərkən kompensasiya olunacaq məbləğ artırılmalıdır:** “Kredit qalığının azı 50 faizinin artan məzənnə xərcləri kompensasiya edilməlidir”.

**İqtisadçı-ekspert Rəşad Həsənov da hesab edir ki, hüquqi şəxslərin devalvasiya nəticəsində üzləşdiyi maliyyə itkisinin qaytarılması düzgün addım olacaq:** “Əlbəttə, hüquqi şəxslər də devalvasiya qərarından təsirlənən qruplardandır. Bir gecədə onların maliyyə yükü kəskin şəkildə artıb. Bu baxımdan, onların zərərinin qarşılanması mütərəqqi bir addım olar. Nəzərə almaq lazımdır ki, hər hansı bir qərar hazırlayarkən mikro, kiçik və orta sahibkarlıq diqqət önünə gətirilməlidir. Onlar üçün dəymiş zərərin kompensasiyası, yaxud qismən ödənilməsi mexanizmi hazırlanmalıdır. Sonrakı mərhələdə isə iri sahibkarlıq subyektlərinin də devalvasiya nəticəsində üzləşdiyi zərərin qarşılanması məsələsinə baxılmalıdır. Burada differensial mexanizm tətbiq edilə bilər. Məsələn, bir hüquqi subyektə dəyən zərərin müəyyən faizinin - tutalım ki, 50 faizinin, yaxud 70 faizinin ödənməsi nəzərdə tutula bilər. Digər yanaşma, sahibkarlıq subyektlərinin bölgüsünə uyğun tətbiq oluna bilər. Məsələn, mikrosahibkarlıq subyektlərinin zərərinin 80 faizinin, orta sahibkara dəyən zərərin 70 faizinin, iri sahibkarın isə zərərin 40 faizinin ödənməsi mexanizmi tətbiq oluna bilər”.

**Ekspert deyir ki, hüquqi şəxslərin devalvasiya nəticəsində dəyən zərərinin kompensasiya edilməsi bütövlükdə ölkə iqtisadiyyatında aktivliyi artıra biləcək addım ola bilər:** “Bu gün ölkədə maliyyə mənbələrinə çıxış çox məhduddur. Biz əgər iqtisadiyyatın diversifikasiya olunmasından, qeyri-neft iqtisadiyyatının inkişafından, dayanıqlı iqtisadiyyatın formalaşdırılmasından danışırıqsa, iqtisadiyyatın maliyyə resursları ilə təminatına, maliyyə mənbələrinin genişlənməsinə də diqqət yetirməliyik. O cümlədən biznesin maliyyəyə çıxış imkanlarının artırılmasına nail olmalıyıq. Mərkəzi Bankın qərarından yaranan zərərin ödənməsi müasir texnologiyaların, innovasiyaların tətbiqinə, dövriyyənin genişləndirilməsinə, bütövlükdə iqtisadiyyatda aktivliyin təşkilənməsinə gətirib çıxara bilər”.

**R.Həsənovun fikrincə, fiziki şəxslərlə bağlı mexanizmdə də təkmilləşmə aparılmalıdır:** “Belə etmək olar ki, hər bir kredit götürənin 10 min dollara qədər olan kredit məbləği üzrə zərər kompensasiya olunsun. Bu, daha ədalətli bir yanaşma olar, hər kəs dövlətin dəstəyindən yararlana bilər”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

**Elan**

**Abdullayev Əbdürəhman Musa oğlunun adına olan Xəzər rayonu Zirə bağ massivində yerləşən 64 T saylı texniki pasport (çıxarış) itdiyi üçün etibarsız sayılır.**

***

**Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Bayramov Nicat Aydın oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**Martın 31-də Türkiyədə bələdiyyə seçkiləri keçiriləcək. Hazırda seçki kampaniyasının ən qızğın dövrüdür və Türkiyə prezidenti (Konstitusiya dəyişikliyindən sonra artıq Türkiyə prezidenti həm də partiya sədri ola bilir - K.R.) də daxil olmaqla bütün siyasi qüvvələr seçki yarışındadır.**



# İstanbulun 31 mart "fəthi": qalib kim olacaq...

## Hasan Oktay: "AKP İstanbulda məğlub olarsa..."

Builki bələdiyyə seçkilərinin Türkiyə üçün daha bir önəmi ondan ibarətdir ki, bu seçkilər 2023-cü ilə, yəni Türkiyədə Respublikasının 100 illiyinə qədər keçiriləcək son seçkilərdir. Məhz bu səbəbdən hakim AKP 31 mart bələdiyyə seçkilərində xüsusən də iri şəhərlərə "ağır toplarını" göndərib. Və təbii ki, əsas yarış ölkənin meqakəndi hesab olunan İstanbul uğrunda olacaq.

Çünki İstanbul Türkiyə iqtisadiyyatının əsas hissəsinin cəmləşdiyi, böyük əhali kütləsinin yerləşdiyi mühüm turizm və maliyyə mərkəzidir. Bu mənada İstanbulda qələbə bütün siyasi qüvvələr üçün mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən də siyasi qüvvələr İstanbula ən şanslı nümayəndələrini göndərib.

Xatırladaq ki, AKP və MHP-nin birləşdiyi "Cumhur İttifaqı" koalisiyası tanınmış siyasi xadim Binali Yıldırımın namizədliyini irəli sürüb. Ana müxalifət partiyası CHP isə İstanbul bələdiyyə sədrliyinə nisbətən gənc və uğurlu karyerası olan, xüsusən də İstanbulda güclü olan mühafizəkar camiəyə yaxın şəxs hesab olunan Əkrəm İmamoğlunun namizədliyini irəli sürüb. Onun namizədliyini həm də müxalifətdə olan İYİ Partiya da dəstəkləyir.

**"Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin sədri, politoloq Hasan Oktay deyir ki, İstanbul AKP üçün mühüm əhəmiyyət kəsb edir, bir mənada hakimiyyəti qoruyub saxlamaq üçün əsas vasitədir. Bu səbəbdən də bu şəhərə hakim partiya ikinci əsas fiqurunu göndərib:** "AKP iqtidara İstanbul bələdiyyəsini qazandıqdan sonra gəlib. Yeni prezident Ərdoğan İstanbulun dəyərini bilir. Əgər AKP İstanbulda məğlub olarsa, o zaman hakimiyyəti də təftiş olunacaq. Digər tərəfdən, bu seçkilər, sadəcə, parlament seçkiləri deyil, eyni zamanda parlament idarəçilik sistemi də səsverməyə qoyulacaq. Dövlət Baxçalının "iqtidar 50 faizdən az səs qazanarsa, prezident üsul-idarəsi təftiş olunacaq" deməsi, bələdiyyə seçkilərini xüsusi olaraq önəmli hala gətirdi".

**H.Oktay istisna etmir ki, əgər hazırkı hakim partiya İstanbul və Ankarada bələdiyyə sədri postunu itirərsə, o zaman növbədənkənar parlament seçkilərinə gedilə bilər:** "Bu səbəbdən də Rəcəb Tayyib Ərdoğan İstanbula ikinci adamını göndərdi. Bununla yanaşı, özü də Türkiyənin bütün regionlarında mitinqlər keçirərək xalqı partiyasına səs verməyə çağırır".

Qeyd edək ki, AKP-nin İstanbul bələdiyyəsi sədrliyinə namizədi Binali Yıldırım 1955-ci il dekabrın 20-də Türkiyənin Ərzincan vilayətinin Refahiyə rayonunda anadan olub. İstanbul Texnik Universiteti Gəmi İnşaatı və Dəniz Elmləri Fakültəsində təhsil alıb. Daha sonra eyni ixtisas üzrə magistr dərəcəsi alıb. İngilis və fransız dillərini bilir. Türkiyə Gəmiçilik Sənayesi Baş İdarəsində çalışıb. İstanbul Bələdiyyəsi Dəniz Nəqliyyatı idarəsinə rəhbərlik edib. Türkiyənin AKP dövründə 58, 59 və 60-cı hökumətləri zamanında nəqliyyat naziri, daha sonra isə nəqliyyat, dənizçilik və rabitə naziri olub. 2016-cı ilin mayında Əhməd Davudoğlunun istefa verməsindən sonra baş nazir və AKP sədri seçilib. Binali Yıldırım həm də Türkiyə tarixinə sonuncu baş nazir kimi düşüb. 2017-ci ildə keçirilən referendumdan sonra Türkiyədə dövlət idarəçiliyi sistemi dəyişib və bununla da baş nazir postu ləğv olunub. Ötən il isə Binali Yıldırım Türkiyə parlamentinin sədri seçilib. Binali Yıldırım Semiha Yıldırım ilə evlidir, Əhməd, Büşra və Erkan adlı 3 övladı var.

31 mart seçkilərində müxalif CHP və İYİ Partiyanın namizədi Əkrəm İmamoğlu 1970-ci ildə Trabzonda dünyaya gəlib. İstanbul Universitetinin menecment ixtisası üzrə təhsil alıb. 1992-ci ildə əmək fəaliyyətinə ailəsinə məxsus şirkətdə inşaat mühəndisi kimi başlayıb. Tezliklə şirkətin rəhbərliyinə gətirilib.

İmamoğlu ənənəvi CHP elektoratından deyil, sağ mühafizəkar cinahdandır. Yeri gəlmişkən, Türkiyənin hazırkı prezidenti və hakimiyyətdə təmsil olunan bir sıra şəxslər məhz İmamoğlunun mənsub olduğu Qara dəniz bölgəsindədir. İmamoğlu siyasi fəaliyyətə Turqut Özalın Ana Vətən Partiyasında başlayıb. Ailəsi dindar mühafizəkar olsa da, İmamoğlu universitet illərində sosial-demokrat camiəyə yaxınlaşıb. 2008-ci ildə isə aktiv siyasətə gələndə CHP-ni seçib. 2009-cu ildə Beylikdüzü bələdiyyəsinə namizədliyini versə də, partiyadan namizədliyi qəbul olunmayıb. Ancaq bir neçə ay sonra CHP-nin Beylikdüzü təşkilatına sədr seçilir. 2014-cü il seçkilərində bələdiyyə seçkilərində Beylükdüzündən namizədi olub və 50,83 faiz səslə bələdiyyə sədri seçilib. Hazırda İmamoğlu Beylikdüzü bələdiyyəsinin sədridir. Ailəlidir, 3 övladı var.

Qeyd etmək lazımdır ki, hər iki namizəd kifayət qədər şanslı hesab olunur. Aydın məsələdir ki, hazırda Türkiyədə hakimiyyətin parlament və prezident seçkilərinin qalibi olan AKP iqtidarı İstanbul üçün əlindən gələni etməyə çalışır. Ancaq müxalifətin də namizədi o qədər zəif deyil.

Ərkəm İmamoğlu gənc olsa da, Beylükdüzündə bələdiyyə sədri kimi 5 illik təcrübəsi və iş nümunəsi var. Daha bir mühüm məqam İmamoğlunun ənənəvi CHP sol elektoratı deyil, Türkiyədə indi daha populyar olan sağ mühafizəkar, dindar kəsimdən olmasıdır. Yəni İmamoğlu CHP-nin ənənəvi elektoratı ilə yanaşı Qara dəniz bölgəsinin və İstanbulda çox güclü olan dindar mühafizəkar kəsimin səsini də qazana bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Netanyahu Azərbaycana "Əfqanıstan" dedi, ara qarışdı

## İsrailin baş naziri səhvinə izah verdi



**İsrailin baş naziri Benyamin Netanyahu ötən əsrin 80-ci illərinin əvvəllərində SSRİ rəhbəri Leonid Brejnevin Azərbaycanın adı ilə bağlı buraxdığı səhvi təkrarlayıb, Azərbaycan əvəzinə "Əfqanıstan" deyib.**

Virtualaz.org İsrail KİV-lərinə istinadən xəbər verir ki, ötən gün martın 4-də baş nazir Netanyahu başçılıq etdiyi "Likud" Partiyası üzrə tərəfdaşları qarşısında seçkiqabağı çıxışı zamanı hökumətə rəhbərlik etdiyi dövrdə İsrailin əldə etdiyi diplomatik uğurlardan danışıb. Və səfər etdiyi bir sıra ölkələrin və paytaxtların adlarını sıralayıb.

"Mən Pekində, Tokioda, Rio-de-Janeyroda və Nyu-Dehlidə dünya liderləri görüşəndə, Çadda, Omanda, Əfqanıstanda, Qazaxıstanda, Avstraliyada və Sinqapurda səfərdə olanda...Sizləri və bütün İsrail vətəndaşlarını təmsil etməkdən qürur duyuram"-Netanyahu deyib.

Lakin Netanyahunun Əfqanıstanın adını çəkməsi təəccübə səbəb olub, çünki İsraillə Əfqanıstan arasında diplomatik münasibətlər yoxdur. Və Netanyahu səhvə yol verdiyinin fərqinə varmayıb, Əfqanıstanın adını səhvən, yaxud bilərəkdən çəkdiyini dəqiqləşdirməyib.

Nəticədə bəzi informasiya agentlikləri dərhal Netanyahunun Əfqanıstanın adını çəkməklə dramatik məlumatı açıqladığını, ola bilsin bu ölkəyə məxfi səfər etdiyini yazıblar.

Netanyahu bundan əvvəl də ərəb və müsəlman dünyası ilə münasibətlər qurması barədə fəxrlə danışıb, Omana və Çada səfərlərini misal gətirib. Ancaq İsrailin qətiyyən populyar olmadığı Əfqanıstana səfər əsl fantastika olardı.

Və daha sonra məsələnin yanlış olduğu təsdiqlənib. Çıxışını yekunlaşdıran baş nazir twitter- izah edib: "Mən bayaq Azərbaycanı nəzərdə tuturdum, amma kim bilir? Ola bilsin növbəti müddətdə Əfqanıstana da səfər edə bildim".

Netanyahu birinci dəfə deyil ki, siyasi coğarfiya ilə bağlı səhvə yol verir. Ötən ilin dekabrında o, xanımının Nikaraquada dövlət səfərində olduğunu demişdi, əslində isə Netanyahunun xanımı Qvatemalada idi.



# Trampa impiçment təhlükəsi

## Ağ Ev rəhbərinin siyasət və biznes sahəsindəki fəaliyyətinin araşdırılmasına qərar verildi

**ABŞ Nümayəndələr Palatasında çoxluqda olan demokratlar ölkə prezidenti Donald Trampın impiçmenti yolunda ilk addımı atıb.**

CNN telekanalının bununla bağlı hazırladığı süjetdə aşağı palatanın məhkəmə işləri üzrə komitəsinin sədri Cerald Nadlerin Ağ Ev başçısının siyasət və biznes sahəsindəki fəaliyyətinin genişmiqyaslı araşdırılmasına başlanılması barədə sözlərinə diqqət çəkilib.

Bununla da demokratların uzunmüddətli, lakin məqsədyönlü şəkildə Trampın impiçmenti proseduruna start verdiyi vurğulanıb.

Qeyd olunur ki, Cerald Nadler əsas işi administrasiya tərəfindən ədalətin gerçəkləşməsinə mane olmaq cəhdlərinə, Donald Trampla intim əlaqədə olduğu iddia edilən 2 yüngül əxlaqlı qadına pul ödənilməsinə, ən əsası da 2016-cı il seçkilərində onun Rusiya ilə potensial əlbir olması məsələsinə, nəhayət, ABŞ konstitusiyasının mükafatlandırma ilə bağlı müddəalarının pozulmasına yönəldəcək.

CNN-in xəbərində təşəbbüsün məhz C. Nadler tərəfindən gəlməsi təsadüf hesab olunmayıb. Çünki impiçment barədə prosedur məhz Nadlerin rəhbərlik etdyi məhkəmə komitəsindən keçməlidir.

Ağ Ev isə Demokrat Partiyasının Konqresdə prezidentə qarşı yeni araşdırmaya başlamasını "rəzalət" və "rüsvayçılıq" adlandırıb.

❑ **Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 52 (7222) 6 mart 2019



# Mismarlı yeşiklə türmədən qaçmaq istədi

**Amerikanın Nyu York ştatındakı Obern şəhərində ömürlük həbs cəzası almış məhkum qaçış planı barədə danışıb. Bu, haqda, Associated Press xəbər verib. Qordon Mauer adlı məhbus deyib ki, türmədəki mebel sexində o qədər də böyük olmayan taxta yeşikdə gizlənməyi planlaşdırıb. O, ümid edib ki, yeşiklərə nəzarət edən işçi onun içərisində nə olduğuna fikir vermədən onu maşına yükləyəcək və son nəticədə o da həbsdən qurtulmuş olacaq.**

Mauer qoruyucu eynək və maska tapandan sonra dostları ilə birgə qaçış planını hazırlayıb. Dediyinə görə, içi mismar dolu yeşikdə 50 dəfəyə yaxın gizlənməyə cəhd edib. Hərdən yeşik bu ağırlığa dayana bilmədiyindən qırılıb və məhbus da zədə alıb. Buna baxmayaraq, türmə işçiləri bu cəhdi fərq etməyiblər. Məhbus özü də türmə işçilərinin bu cəhdlərdən xəbər tutmamasına təəccüblənib və yaxalandıqdan sonra bunu açıq şəkildə deyib. Qaçış məhbuslardan birinin Mauerin planları barədə türmə rəhbərliyinə xəbər verməsindən sonra pozulub.

# Bu implant gözləri əvəzləyir

**ABŞ-ın Minnesota Universitetinin alimləri ilk dəfə olaraq, gözün üçölçülü strukturunun əldə edilməsinə nail olublar. “Trend”in məlumatına görə, struktur torlu qişanın işini təqlid edir və implantatla birlikdə işləyir - beyinə təsvir haqqında siqnalları ötürən torlu qişa hüceyrələri üçün görülən təsvir elektrik impulslarına çevrilir.**



Qeyd olunur ki, alimlər yarımkürə əsasla işləməyə başlayıblar. Onu üçölçülü printerdən istifadə edərək, tərkibində gümüş zərrəcikləri olan mürəkkəblərlə örtüblər. Onların üzərində yarımkeçirici polimer materiallardan yaradılmış və işığı elektrikə çevirən fotodiodlar yerləşdirilib. Bu metoddan istifadə etdikdə bütün strukturun çap olunması prosesinə təxminən 1 saat sərf olunur.

Gələcəkdə alimlər ötürülən informasiyanın keyfiyyətini yüksəltmək üçün işıq reseptorlarının sayını artırmağı planlaşdırırlar.

# Ürək gerçəkdən qırılır - elm sübut etdi



**Ürəyin birdən zəifləməsi və funksiyasını icra etməməsi mənasına gələn qırıq ürək sindromu bir yaxının itirilməsi anlamına gəlir. Bu, stresli və emosional bir vəziyyətin ardınca baş verir. Bu problemin niyə ortaya çıxdığı bilinmir. Amma "European Heart Journal"da yer alan araşdırmada beynin stressə verdiyi reaksiyanın rol oynadığı qeyd edilir.**

Bu narahatlığı yaşayan insanların ürəklərinin, eyni adı daşıyan bir yapon qabına bənzəyən şəkillərinə itfən ‘Takotsubo sindromu" adı verilən sınıq ürək sindromu yaşanan bir şokla ortaya çıxa bilir. Tıxanan ürək damarlarına görə yaranan infarktdan fərqli, təkcə nəfəs darlığı və ürək ağrısı daxil bənzər əlamətləri var. Tez-tez yaşanan üzücü bir hadisə onu tətikləyir, ancaq evlilik, yeni bir iş kimi böyük, həyəcanverici hadisələr də buna səbəb ola bilir.

Ürək əzələsinin günlər, həftələr, ya da aylar içində düzənləməsi ilə keçici ola bilir. Amma bəzilərində bu, ölümə yol aça bilir.

Bu, İngiltərədə hər il 2.500-ə yaxın insana təsir edir. Narahatlığa tam olaraq nəyin yol açdığı bilinmir. Amma mütəxəssislər buna adrenalin kimi stress altındaykən ifraz olunan hormonlardakı artımın səbəb ola biləcəyini istisna etmir. Zürix Universiteti Xəstəxanasından həkim Jelena Kadri sınıq ürək sindromundan təsirlənən 15 xəstənin beyinlərində nələr yaşandığını incələyib. Beyin araşdırmalarında nəzarət qrupu olan 39 sağlam xəstə ilə müqayisədə xeyli fərqlər üzə çıxıb. Beynin hissləri və ürək atışı kimi şüursuz və ya avtomatik bədən reaksiyalarına nəzarət edən hissələr arasında daha az əlaqə olduğu müəyyənləşdi.

Beynin bu hissələri stresə verdiyimiz reaksiyaya da nəzarət edən hissələrdəndir. Xəstəliyin necə yarandığını müəyyən etmək üçün xeyli araşdırma lazımdır. Qırıq ürək sindromu xəstələrinin xəstəlik başlamadan öncəki beyin araşdırmaları olmadığından, beyin bölgələri arasında azalan əlaqənin xəstəliyə yol açıb-açmadığı sözün böyük mənasında müəyyənləşdirilə bilmir.





**QOÇ - İmkan daxilində çalışın ki, təşəbbüskarlıq başqalarında olsun. Çünki bu gün istənilən riskiniz iflasa uğraya bilər. Daxili gücünüzü ənənəvi vəzifələrinizin icrasına yönəldin.**


**BUĞA - Ağlınız kəsməyən və ya keçmişi qaranlıq olan istənilən şəxslə işbirliyi qurmaqdan çəkinin, ağır fəsadları ola bilər. Əgər planınızda olsa, uzaq səfərə çıxın ki, daxili rahatlığınız bərpa olunsun.**


**ƏKİZLƏR - Maraqlı insanlarla rastlaşacağınızdan xəbər verən Göy qübbəsi bu təqvimdən razı qalacağınızı bəyan edir. Əgər daxili orqanlarınızı qoruya bilsəniz, hər hansı fəsad olmayacaq.**


**XƏRÇƏNG - Qarşınızda unikal bir tarix dayanıb. Demək olar ki, bütün proseslərdən mənfəət götürəcəksiniz, əlbəttə, əgər bütün planlarınız ədalət prinsiplərinə söykənərsə. Dilinizi duasız etməyin.**


**ŞİR - Ümumi gedişat maraqlı bir təqvim yaşayacağınızı bəyan edir. Hər şeyə yenidən başlayın. Əgər üç dəfədən çox cəhd etdiyiniz işlər boşa çıxırsa, onlardan imtina edin. Səfərə çıxa bilərsiniz.**


**QIZ - Boş dayanmağa lüzum yoxdur. Hər fürsətdən yararlanın: istirahət və əyləncələri arxa plana salın. Ola bilsin ki, axşama doğru sevincinizi artıran fəaliyyət sürprizləri yaşayasınız.**


**TƏRƏZİ - Kosmik fon uğursuz olduğu üçün bir çox məsələlərə ehtiyatla yanaşmalısınız. Maliyyə sahəsində isə bütün növ planlarınızı dondurmağınız məsləhətdir. Yalandan keçən işlərdən yayının.**


**ƏQRƏB - Səhər saatlarında müəyyən problemlərdən keçəcəksiniz. Təmkininizi qorumaqla bu gərginliyi minimal itki ilə başa vura bilərsiniz. Günün qalan vaxtı müsbət çalarlı olacaq.**


**OXATAN - Təxminən saat 15-ə qədər nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Hansısa problemin yaranacağını düşünməyin. Sonrakı müddətdə isə diqqətli olmalısınız.**


**OĞLAQ - Astronomik quruluşun o qədər də qənaətbəxş olmaması köhnə münaqişələri təzələməyinizin qorxulu olacağını göstərir. Bu səbəbdən bütün gücünüzlə neytrallığınızı qorumalısınız.**


**SUTÖKƏN - Düşərli bir gün yaşayacaqsınız. Ailə üzvlərinizlə, gündəlik ünsiyyətdə olduğunuz insanlarla mülayim davranın ki, bu hal davamlı olsun. Şəxsi büdcənizi bərk-bərk qoruyun.**


**BALIQLAR - Ötən günlərin gərginliyindən əsər-əlamət qalmayacaq. Üstəlik, gələcək həyatınızda önəmli rol oynaya biləcək şəxslərlə rastlaşmaq ehtimalınız da var. Həyatınızda müsbət rolu olanları unutmayın.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Həftədə 150 dəqiqə gəzmək lazımdır

**Dünyada 1 milyard 400 milyondan çox yetkin adam yetərincə idman etmədiyi üçün ölümcül xəstəliyə tutula bilər. Belə bir xəbərdarlıqla Ümumdünya Səhiyyə Təşkilatı çıxış edib. Qurum son 20 ilə yaxın müddətdə dünyada adamların hərəkətlilik səviyyəsində dəyişiklik olmadığını da vurğulayır. ÜST tövsiyə edir ki, hər bir yetkin şəxs həftədə azı 150 dəqiqə “orta gərginlikli” idman, məsələn, sürətli yürüş, üzgüçülük, yaxud velosiped sürməklə məşğul olsun. Yaxud bunu həftədə 75 dəqiqə “yüksək gərginlikli” fəaliyyətlə - qaçış, komanda idman növlərlə əvəzləmək olar.**

Araşdırma zamanı 2016-cı ildə dünyanın 168 ölkəsində 1,9 milyon nəfərin fəallığı öyrənilib. Tədqiqatçılar üzə çıxarıblar ki, 2001-ci ildən bəri dövlətin saysız səhiyyə təşəbbüslərinə baxmayaraq, fiziki aktivlik səviyyəsində yaxşılaşma baş verməyib.

Dünyada 1,4 milyard nəfərin yetərincə aktiv olmadığı ortaya çıxıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.755